Xalqın qəzeti!

# Xalq qəzeti

№ 170 (30864) 15 avqust 2025-ci il, cümə

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır | Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti

## Prezident İlham Əliyev: Zəngəzur dəhlizi beynəlxalq nəqliyyat marşrutlarının mühüm hissələrindən biri olacaq



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Amerika Birləşmiş Ştatlarına səfəri zamanı bu ölkənin "Fox News" telekanalına müsahibə verib. Telekanalın saytında dövlətimizin başçısının müsahibəsində səsləndirdiyi bəzi fikirlər əsasında material yayımlanıb.**

Prezident İlham Əliyev müsahibəsində deyib: "İstər regionumuzdan olan, istərsə də regionumuzdan kənarda yerləşən istənilən dövlət tərəfindən bugünkü nailiyyətlə bağlı hər hansı bir mənfi fikir bildirilməsi çox çətin olar. Çünki bu gün biz sülh istiqamətində yekun addımı atdıq".

Materialda vurğulanıb ki, Azərbaycan Prezidenti Zəngəzur dəhlizi (TRIPP) ilə bağlı əldə edilmiş razılaşmanın heç kimə qarşı olmadığını deyib. Bildirib ki, bu, yeni bağlantı layihəsidir və beynəlxalq nəqliyyat marşrutlarının mühüm hissələrindən biri olacaq.

Prezident İlham Əliyev müsahibəsində ABŞ Prezidenti Donald Tramp və onun komandasına razılaşmanın əldə olunmasındakı roluna görə minnətdarlığını da ifadə edib.

Dövlətimizin başçısı, həmçinin Rusiya ilə münasibətlərdən və 2024-cü ilin dekabrında "Azərbaycan Hava Yolları"nın 8243 saylı təyyarəsinin vurulmasından danışıb. Qeyd edib ki, Azərbaycan bunun qəsdən hücum olduğunu düşünmür. "Biz, sadəcə, bunu etiraf etməyi, həmin cinayəti törədənləri cəzalandırmağı və tam təzminat ödənilməsini tələb etdik", – deyə Prezident İlham Əliyev əlavə edib.

*AZƏRTAC*

## OPEC illik hasilatı sabit saxlayıb




səhifə ⇨ 8

## Nə oldu bəs, ağayi Araqçı?




səhifə ⇨ 4

## Dövlət borcu ÜDM-in 19,6 faizi səviyyəsindədir

*Bu, uğurlu borclanma və gəlirlərdən məqsədyönlü istifadənin nəticəsidir*



**Azərbaycan Maliyyə Nazirliyinin açıqladığı rəsmi məlumata əsasən, 2025-ci il iyulun 1-nə ölkənin dövlət borcu 25 milyard 695,6 milyon manat səviyyəsində olub ki, bu da ümumi daxili məhsulun (ÜDM) 19,6 faizinə bərabərdir. Beynəlxalq maliyyə standartlarına görə, dövlət borcunun ÜDM-ə nisbətinin 30-40 faizdən aşağı qalması təhlükəsiz zona hesab olunur. Bu baxımdan Azərbaycanın göstəricisi kifayət qədər müsbət və idarəolunan səviyyədədir.**

ardı səhifə ⇨ 8

## Rusiya itirmək istəyirsə...

*Cənubi Qafqaz maraqları, yoxsa diplomat Fadeyevin "Solovyov ağzı"?*

**Rusiya Vaşinqtonda Azərbaycanla Ermənistan arasında sülh müqaviləsinin paraflanmasına, eləcə də Prezident İlham Əliyevin ABŞ-ın dövlət başçısı Donald Trampın şahidliyi ilə baş nazir Nikol Paşinyanla üçtərəfli Birgə Bəyannamə imzalamasına reaksiya verib. Söhbət həm də Zəngəzur dəhlizi – Tramp marşrutu kontekstindəki reaksiyadan gedir.**

Qeyd edək ki, Rusiya Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Mariya Zaxarovanın Vaşinqtonda yaşananlar barədə daha əvvəl səslənmiş açıqlaması, müəyyən mənada, ümumi xarakter daşıyırdı. Qurumun İnformasiya Siyasəti Departamentinin direktor müavini Aleksey Fadeyevin dedikləri isə daha konkretdir. Elə isə görək Rusiya XİN-in təmsilçisi hansı məqamları qabardıb.



ardı səhifə ⇨ 7

## Qərb mövqeyini dəyişməyə məhkumdur

*Azərbaycanın haqlı mövqeyi beynəlxalq aktorları düşünməyə məcbur edir*



**8 avqustda Vaşinqtonda Azərbaycan–Ermənistan–ABŞ üçtərəfli formatında sülh sənədinin paraflanması Cənubi Qafqaz diplomatiyasında uzun müddət ərzində Bayden–Blinken administrasiyasının, eləcə də Makron, Avropa İttifaqı, Avropa Şurası və Avropa Parlamentinin tətbiq etdiyi "Azərbaycanı güzəştlərə məcbur etmə" strategiyasının real siyasət qarşısında sınmasını nümayiş etdirir. Tarixi səfərin əhəmiyyəti təkcə sənədin paraflanmasında deyil, həm də regional güc balansının və diplomatik nüfuzun yenidən tənzimlənməsindədir.**

Buradan sual ortaya çıxır ki, nə üçün illərlə davam edən siyasi və diplomatik təzyiqlər nəticə vermədi? Cavab sadə görünə bilər, amma əslində bu, strateji, hüquqi və regional kontekstlərin qarşılıqlı təsirinin nəticəsidir. 2020-ci ildən sonra yaranmış yeni güc balansı Azərbaycanın lehinə çevrildi. Balans yalnız hərbi üstünlükdən ibarət deyil; eyni zamanda Azərbaycanın hüquqi mövqeyi, beynəlxalq səviyyədə tanınmış sərhədlərə söykənən diplomatik arqumentləri və regional iqtisadi-geoiqtisadi marşrutlar üzərində strateji nəzarəti bu üstünlüyü möhkəmləndirdi.

ardı səhifə ⇨ 5

## ABŞ–Azərbaycan–Ermənistan paktının həmrəylik dalğası



səhifə ⇨ 6

## Vətən sevdalı, vətəndaş şair



səhifə ⇨ 10

## Alyaska görüşü Avropaya sülh gətirəcəkmi?



**ABŞ Prezidenti Donald Tramp ilə Rusiya Prezidenti Vladimir Putin arasında Alyaskada keçiriləcək görüş yalnız diplomatik protokol deyil – bu, dünya siyasətində yeni mərhələnin açarı ola bilər. Tarix yaxınlaşdıqca beynəlxalq ictimaiyyət də bu suala cavab axtarır: Tramp-Putin görüşü Ukrayna müharibəsinin taleyinə necə təsir göstərəcək və hamının gözlədiyi sülh Avropaya qayıdacaqmı?**

ardı səhifə ⇨ 11

# "Azərbaycan Respublikası Hökuməti ilə Özbəkistan Respublikası Hökuməti arasında ətraf mühitin mühafizəsi sahəsində əməkdaşlıq haqqında Saziş"in təsdiq edilməsi barədə

## *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1** 2025-ci il iyulun 2-də Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikası Hökuməti ilə Özbəkistan Respublikası Hökuməti arasında ətraf mühitin mühafizəsi sahəsində əməkdaşlıq haqqında Saziş" təsdiq edilsin.

**2.** Bu Fərmanın 1-ci hissəsində göstərilən Saziş qüvvəyə mindikdən sonra Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi onun müddəalarının həyata keçirilməsini təmin etsin.

**3** Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Sazişin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə Özbəkistan Respublikası Hökumətinə bildiriş göndərsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***
**Bakı şəhəri, 14 avqust 2025-ci il**

# "Azərbaycan Respublikası Hökuməti ilə Özbəkistan Respublikası Hökuməti arasında surəti köçürülmüş, oğurlanmış, itirilmiş və cinayətkar fəaliyyət ilə əlaqəli mobil cihazlar barədə məlumat mübadiləsinin təşkili haqqında Saziş"in təsdiq edilməsi barədə

## *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1** 2025-ci il iyulun 2-də Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikası Hökuməti ilə Özbəkistan Respublikası Hökuməti arasında surəti köçürülmüş, oğurlanmış, itirilmiş və cinayətkar fəaliyyət ilə əlaqəli mobil cihazlar barədə məlumat mübadiləsinin təşkili haqqında Saziş" təsdiq edilsin.

**2.** Bu Fərmanın 1-ci hissəsində göstərilən Saziş qüvvəyə mindikdən sonra Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi onun müddəalarının həyata keçirilməsini təmin etsin.

**3** Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Sazişin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə Özbəkistan Respublikası Hökumətinə bildiriş göndərsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***
**Bakı şəhəri, 14 avqust 2025-ci il**

# "Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının dövriyyəsi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 9 avqust tarixli 280 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

"Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının dövriyyəsi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 9 avqust tarixli 280 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2005, № 8, maddə 712 (Cild I) 2-1-ci bəndində "Dövlət Gömrük Komitəsi və" sözləri "Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi, Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi və Azərbaycan Respublikasının" sözləri ilə əvəz edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***
**Bakı şəhəri, 14 avqust 2025-ci il**

# "Azərbaycan Respublikası Hökuməti ilə Özbəkistan Respublikası Hökuməti arasında elm, peşə təhsili və ali təhsil sahələrində əməkdaşlığa dair Saziş"in təsdiq edilməsi haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1** 2025-ci il iyulun 2-də Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikası Hökuməti ilə Özbəkistan Respublikası Hökuməti arasında elm, peşə təhsili və ali təhsil sahələrində əməkdaşlığa dair Saziş" təsdiq edilsin.

**2.** Bu Fərmanın 1-ci hissəsində göstərilən Saziş qüvvəyə mindikdən sonra Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi onun müddəalarının həyata keçirilməsini təmin etsin.

**3** Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Sazişin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə Özbəkistan Respublikası Hökumətinə bildiriş göndərsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***
**Bakı şəhəri, 14 avqust 2025-ci il**

# "Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi ilə Özbəkistan Respublikasının İqtisadiyyat və Maliyyə Nazirliyi yanında Gömrük Komitəsi arasında səlahiyyətli iqtisadi operator institutlarının qarşılıqlı tanınması haqqında Saziş"in təsdiq edilməsi barədə

## *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1** 2025-ci il iyulun 2-də Bakı şəhərində imzalanmış "Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi ilə Özbəkistan Respublikasının İqtisadiyyat və Maliyyə Nazirliyi yanında Gömrük Komitəsi arasında səlahiyyətli iqtisadi operator institutlarının qarşılıqlı tanınması haqqında Saziş" təsdiq edilsin.

**2.** Bu Fərmanın 1-ci hissəsində göstərilən Saziş qüvvəyə mindikdən sonra Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi onun müddəalarının həyata keçirilməsini təmin etsin.

**3** Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Sazişin qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə Özbəkistan Respublikası Hökumətinə bildiriş göndərsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***
**Bakı şəhəri, 14 avqust 2025-ci il**

# Avropa İttifaqı Vaşinqton razılaşmasını alqışlayır

**Avqustun 14-də Avropa İttifaqı Şurasının Prezidenti Antonio Koşta Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib.**

Antonio Koşta Vaşinqtonda Azərbaycanla Ermənistan arasında ABŞ Prezidentinin şahidliyi ilə bəyannamənin imzalanması, sülh və dövlətlərarası münasibətlərin qurulması haqqında Sazişin paraflanması və regional nəqliyyat dəhlizi ilə əlaqədar əldə olunmuş nailiyyətlər münasibətilə dövlətimizin başçısını təbrik edib. Avropa İttifaqı Şurasının Prezidenti bu nəticələrin regionda davamlı sülhün və sabitliyin təmin olunması baxımından önəmini vurğulayıb. O, Avropa İttifaqının əldə edilmiş razılaşmaların həyata keçirilməsi prosesinə dəstək verməyə hazır olduğunu bildirib.

Təbriklərə görə minnətdarlığını ifadə edən Prezident İlham Əliyev Azərbaycanla Ermənistan arasında sülh gündəliyinin təşəbbüskarının və sülh müqaviləsinin mətninin müəllifinin məhz ölkəmiz olduğunu xatırladıb. Vaşinqtonda əldə olunmuş nailiyyətlərin əhəmiyyətini vurğulayan dövlətimizin başçısı bu məsələdə ABŞ Prezidenti Donald Trampın xüsusi rolunu qeyd edib. Prezident İlham Əliyev Azərbaycanın əsas hissəsi ilə onun Naxçıvan regionu arasında maneəsiz nəqliyyat bağlantısı üzrə razılaşmanın önəminə toxunub.

Telefon söhbəti zamanı bu ilin mayında Tiranada "Avropa Siyasi Birliyi"nin Zirvə toplantısı çərçivəsində Azərbaycan Prezidentinin Avropa İttifaqı Şurasının Prezidenti Antonio Koşta və Avropa Komissiyasının Prezidenti Ursula Fon der Lyayen ilə görüşü, aparılmış müzakirələr məmnunluqla xatırlanıb.

Dövlətimizin başçısı və Antonio Koşta Azərbaycan–Avropa İttifaqı əlaqələrinin perspektivlərinə dair fikir mübadiləsi aparıb, qarşılıqlı maraq doğuran digər məsələləri müzakirə ediblər.

***Prezidentin Mətbuat Xidməti***

# Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

**Zati-aliləri!**

Mən böyük sevinclə və dərin ehtiramla Gürcüstanın Yevangelist Baptist Kilsəsinin Sülh Kafedralı adından Azərbaycan və Ermənistan hökumətlərinə və nəcib xalqlarına otuz ildən artıqdır davam edən münaqişənin və itkilərin sona çatmasına səbəb olan tarixi sülh bəyannaməsinin imzalanması münasibətilə ürəkdən təbriklərimi çatdırıram.

Bu mühüm razılaşma bütün Cənubi Qafqaz üçün ümid çırağı kimi dayanır. Sovet dövrünün imperiya və müstəmləkəçilik siyasətinin mürəkkəb və bölücü irsinin qismən yaratdığı mübahisənin tarixi çox uzun müddətdir ki, qonşu xalqlar arasında kədər, köçkünlük və inamsızlığa səbəb olub. Sizin bu ağrılı tarixi geridə qoymaq, onilliklərin incikliyini dəf etmək və ortaq gələcəyə sadiq olmaq barədə cəsarətli qərarınız ən yüksək səviyyəli dövlətçilik aktıdır. Bu, təkcə öz xalqlarınızı deyil, həm də bütün dünya xalqlarının daha geniş ailəsini ruhlandıracaqdır.

Gürcüstan xalqı sevimli Qafqazımızda davamlı sülh və bütün millətlərin və etnik icmaların dinc birgəyaşayışa doğru həlledici addımını görərək bu yeni şəfəqdə sizinlə birlikdə sevinir. Bu əlamətdar hadisə bizi əmin edir ki, keçmişin yüklərinin öhdəsindən gəlinə bilər və regionumuzda harmoniyaya mane olan müstəmləkəçilik irsi həqiqətən etibar, uzlaşma və qarşılıqlı hörmət üzərində qurulmuş gələcək naminə dağıdıla bilər.

Biz, həmçinin Amerika Birləşmiş Ştatlarının siyasi rəhbərliyinə və diplomatik ictimaiyyətinə bu yaxınlaşmanın asanlaşdırılmasında əvəzsiz roluna görə səmimi təşəkkürümüzü bildiririk. Onların dialoqa davamlı sadiqliyi və sülhə nail olmaq naminə konstruktiv iştirakı ən yüksək tərifə layiqdir.

Qoy bu sənəd təkcə hərbi əməliyyatların dayandırılmasını deyil, həm də barışığın çiçəkləndiyi, əməkdaşlığın inkişaf etdiyi və qarşılıqlı hörmətin bütün münasibətlərin əsasına çevrildiyi yeni bir dövrün yaranmasını müjdələsin! Həmçinin firavanlığı bəsləsin, insan ləyaqətini qorusun və yaraları ilə deyil, ortaq insanlığı ilə seçilən bölgə ilə gələcək nəsillərə xeyir-dua versin!

Cənubi Qafqazın üç dövlətinin - Azərbaycan, Ermənistan və Gürcüstanın birlikdə sülh, ədalət və demokratiyanın müdafiəçiləri olacağına, daha geniş dünyamızın sabitliyinə və rifahına töhfə verəcəklərinə böyük ümid bəsləyirik.

Sülh Kafedralı bu səyahəti dua, dostluq, mədəniyyətlərarası, dinlərarası tərəfdaşlıq və xalqlarımız arasında xoşməramlılıq bağlarını gücləndirməyə kömək edə biləcək hər cür təvazökar xidmətlə müşayiət etməyə hazırdır.

Zati-aliləri, ən yüksək ehtiramımı və xalqınızın həyatında bu tarixi yeni səhifənin uğuru üçün Sülh Kafedralının ən xoş arzularını qəbul etməyinizi xahiş edirəm.

Ən dərin hörmət və təbriklərlə,

***Malxaz SONGULAŞVILI,***
***Gürcüstanın Yevangelist Baptist Kilsəsinin Yepiskopu,***
***Tbilisi Mitropoliti***

# A.B.Səfərovanın "Şərəf" ordeni ilə təltif edilməsi haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan mədəniyyətinin inkişafında böyük xidmətlərinə görə Afaq Bəşir qızı Səfərova "Şərəf" ordeni ilə təltif edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***
**Bakı şəhəri, 14 avqust 2025-ci il**

# Azərbaycan Respublikası Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətinin rəsmi emblemi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. "Azərbaycan Respublikası Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətinin rəsmi emblemi haqqında Əsasnamə" təsdiq edilsin (əlavə olunur).

2. "Azərbaycan Respublikası Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətinin rəsmi embleminin təsviri" təsdiq edilsin (əlavə olunur).

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***
**Bakı şəhəri, 14 avqust 2025-ci il**

*Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 14 avqust tarixli Fərmanı ilə təsdiq edilmişdir*

# Azərbaycan Respublikası Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətinin rəsmi emblemi haqqında əsasnamə

1. Azərbaycan Respublikası Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətinin (bundan sonra – Xidmət) rəsmi emblemi Xidmətin rəmzidir. Rəsmi emblem Xidmətin hər bir əməkdaşına Xidmətin fəaliyyət istiqamətlərinə uyğun məsələlər üzrə öz xidməti vəzifələrini vicdanla və layiqincə yerinə yetirmək borcunu xatırladır.

2. Xidmətin rəsmi emblemi Xidmət əməkdaşlarının, həmçinin silah, xüsusi vasitə, texnika və digər əmlakın Xidmətə mənsubiyyətini bildirən nişandır.

3. Xidmətin rəsmi emblemi Xidmətin hərbi qulluqçularının geyim formasında və fərqlənmə nişanlarında yerləşdirilir. Xidmətin rəsmi emblemi onun blanklarında, inzibati binalarının Xidmətin adı göstərilən lövhələrində yerləşdirilə bilər.

4. Xidmətin rəsmi embleminin təsvirindən aşağıdakılarda istifadəyə yol verilir:

4.1. Xidmətin çap məhsullarında, kino, video, fotomateriallarında;

4.2. Xidmətin sifarişi ilə hazırlanan reklam-informasiya məhsullarında (bukletlər, təqvimlər, nişanlar, vımpellər, saatlar, medalyonlar, dəftərxana ləvazimatı, suvenirlər və digər məhsullar).

*Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 14 avqust tarixli Fərmanı ilə təsdiq edilmişdir*

# Azərbaycan Respublikası Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətinin rəsmi embleminin təsviri

Azərbaycan Respublikası Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətinin rəsmi emblemi kənarı boyunca ensiz qızılı haşiyə olan dairə formasındadır. Dairənin kənarı boyunca ensiz qızılı haşiyədən sonra ağ qövs, ağ qövsdən sonra isə ensiz qızılı haşiyə yerləşir. Həmin ağ qövs boyunca tünd mavi hərflərlə yuxarıda "AZƏRBAYCAN RESPUBLİKASI", aşağıda "XÜSUSİ RABİTƏ VƏ İNFORMASİYA TƏHLÜKƏSİZLİYİ DÖVLƏT XİDMƏTİ" sözləri yazılmışdır. "AZƏRBAYCAN" sözündən əvvəl və "RESPUBLİKASI" sözündən sonra qızılı rəngli kiçik səkkizguşəli ulduz təsvir edilmişdir.

Dairənin daxilində kənarı boyunca ikinci ensiz qızılı haşiyəyə bitişik tünd mavi rəngli dairə, həmin dairənin daxilində mərkəzi xəttindən sol tərəfi qızılı, sağ tərəfi ağ rəngdə olan 8 ədəd rombşəkilli xüsusi ornament və 3 paralel istiqamətdə hər paralel üzrə 4 ədəd olmaqla üzü sağa tərəf hərəkət görüntülü, qızılı rəngli 12 ədəd şüa təsviri verilmişdir. Tünd mavi rəngli dairədə yerləşdirilən rombşəkilli xüsusi ornamentlər düzülüş əsasında dairənin mərkəzində səkkizguşəli ulduz təsviri yaradır. Dairənin mərkəzində üzü yuxarı baxan qızılı rəngli aypara və 5 kənar nöqtəsi həmin ayparanın təsvirinə toxunan, tərəfləri ağ və qızılı rəngdə olan səkkizguşəli ulduz əks olunmuşdur (rəsmi emblemin şəkli əlavə olunur).

"Azərbaycan Respublikası Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətinin rəsmi embleminin təsviri"nə əlavə



# Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

**Möhtərəm cənab Prezident!**

Sizi böyük sülh qələbəsi münasibətilə ürəkdən təbrik edirəm.

Siz müstəqil Azərbaycanın tarixinə növbəti parlaq səhifə yazdınız. Bu sülh qələbəsinin kökündə Sizin dərin siyasətiniz, yüksək təhsiliniz və intellektiniz, incə diplomatiyanız, uzaqgörənliyiniz, Azərbaycana və onun mənəvi dəyərlərinə olan məhəbbətiniz dayanır.

Hələ 2003-cü ildə Siz Azərbaycanın Prezidenti seçilərkən demişdiniz ki, Azərbaycanın bir qarış torpağı belə müzakirə predmeti ola bilməz. İllər göstərdi ki, Siz verdiyiniz sözlərə hər zaman sadiq qalırsınız və ona görə də bu gün dünyada praqmatik, öz sözünə sadiq qalan Lider kimi qəbul olunursunuz.

Sizin rəhbərliyiniz altında müzəffər Ordumuz 44 günlük İkinci Qarabağ müharibəsində qalib gəldi və ölkəmizin ərazi bütövlüyü təmin olundu.

Bu günlərdə Siz ABŞ-da sülh bəyannaməsini imzalayaraq 30 ildən çox davam edən münaqişəyə son qoydunuz. Bu gün hər bir Azərbaycan vətəndaşı müstəqilliyimiz və ərazi bütövlüyümüz uğrunda həyatlarını itirən oğul və qızlarımız qarşısında baş əyir.

ABŞ-ın Prezidenti Donald Trampın sülh bəyannaməsinin imzalanması mərasimində Sizin haqqınızda dediyi xoş sözlər hər bir azərbaycanlı üçün böyük şərəfdir. Bu, Sizin uzun illər apardığınız siyasətə verilən yüksək qiymətdir.

Sizin fəaliyyətiniz nəticəsində əldə olunan razılaşma sadəcə iki dövlət arasında sülhün təntənəsi deyil, bu, həm də regionumuz üçün böyük nailiyyətdir və bölgəyə inkişaf, firavanlıq gətirəcəkdir. Azərbaycan dünyanın siyasi xəritəsində kiçik dövlət olsa da, Sizin siyasətiniz nəticəsində ölkəmiz dünyanın siyasi xəritəsində xüsusi yerə malikdir. Siz həyata keçirdiyiniz siyasətlə dünyanın aparıcı siyasətçiləri sırasında özünəməxsus yer tutursunuz və hər bir azərbaycanlı bununla fəxr edir.

Sizi bir daha böyük qələbə münasibətilə ürəkdən təbrik edir, Zati-alinizə cansağlığı və fəaliyyətinizdə böyük uğurlar arzulayıram.

**Dərin hörmətlə,**

***Asəf HACIYEV,***
***Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının Parlament Məclisinin Baş katibi***

# Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının Parlament Məclisinin Baş katibi Asəf Hacıyevdən Azərbaycan Respublikasının Birinci vitse-prezidenti xanım Mehriban Əliyevaya təbrik

**Hörmətli Mehriban xanım!**

Sizi böyük sülh qələbəsi münasibətilə ürəkdən təbrik edirəm. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev sülh bəyannaməsini imzalayaraq müstəqil Azərbaycanın tarixinə növbəti parlaq səhifə yazdı.

Bu qələbənin kökündə dərin intellekt, düşünülmüş siyasət, uzaqgörənlik, incə diplomatiya və Azərbaycana olan məhəbbət dayanır. Hələ 2003-cü ildə cənab İlham Əliyev Azərbaycanın Prezidenti seçiləndə demişdi ki, ölkəmizin bir qarış torpağı müzakirə predmeti ola bilməz. İllər göstərdi ki, Prezidentimiz verdiyi sözlərə hər zaman sadiq qalır və dünyada praqmatik lider kimi qəbul olunur.

Azərbaycan və Ermənistan arasında sülh sadəcə iki ölkə üçün deyildir, bu sülh yaşadığımız böyük bölgəyə inkişaf gətirəcəkdir. Baxmayaraq ki, Azərbaycan dünyanın siyasi xəritəsində kiçik dövlətdir, aparılan uğurlu siyasət nəticəsində ölkəmiz dünyanın siyasi xəritəsində özünəməxsus yer tutur. Bu siyasətin həyata keçirilməsində sözsüz ki, Sizin böyük zəhmətiniz var. Sizin Azərbaycanın mənəvi və mədəni dəyərlərinin dünyada tanıdılmasında müstəsna xidmətləriniz var və bu gün də öz fəaliyyətinizi uğurla davam etdirirsiniz. Sizin fəaliyyətinizdə dərin intellekt, yüksək mədəniyyət və Azərbaycan xanımına məxsus olan incə duyğular özünü göstərməkdədir.

Sizi bir daha bu böyük qələbə münasibətilə ürəkdən təbrik edir, fəaliyyətinizdə yeni-yeni uğurlar, cansağlığı və ailə səadəti arzulayıram.

**Dərin hörmətlə,**

***Asəf HACIYEV,***
***Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının Parlament Məclisinin Baş katibi***

# Ceyhun Bayramovun qazaxıstanlı həmkarı ilə telefon dialoqu



**Dünən Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramovla Qazaxıstanın Baş nazirinin müavini, xarici işlər naziri Murat Nurtleu arasında telefon danışığı olub.**

Murat Nurtleu Azərbaycan Prezidentinin ABŞ-a səfəri zamanı Azərbaycanla ABŞ arasında əldə edilmiş razılıqlar, eləcə də Azərbaycan-Ermənistan normallaşma prosesində qazanılmış nailiyyətlər münasibətilə təbriklərini çatdırıb.

Nazirlər Azərbaycan-Qazaxıstan strateji tərəfdaşlıq münasibətlərinin səviyyəsindən məmnunluqlarını bildirib, ölkələrimiz arasında baş tutan ali və yüksəksəviyyəli təmas və səfərlərin əməkdaşlığın inkişafına xidmət etdiyini vurğulayıblar.

# Dövlət Gömrük Komitəsinin sədri Naxçıvanda vətəndaşlarla görüşüb

**Avqustun 14-də Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-leytenantı Şahin Bağırov Naxçıvan Baş Gömrük İdarəsinin inzibati binasında vətəndaşlarla görüşüb.**



Komitənin müvafiq strukturlarının rəhbərlərinin iştirakı ilə keçirilən görüşdə Naxçıvan şəhəri, Babək, Culfa, Kəngərli, Ordubad, Sədərək, Şahbuz və Şərur rayonlarının sakinlərinin müraciətləri dinlənilib. Müraciətlər əsasən işə qəbul, idxal-ixrac əməliyyatları və digər gömrük məsələləri ilə bağlı olub.

Görüş zamanı hər bir vətəndaşın müraciəti diqqətlə dinlənilib və qaldırılan məsələlərin bir qismi yerindəcə həllini tapıb, araşdırılması tələb olunan bəzi müraciətlərlə bağlı müvafiq tədbirlər görülməsi üçün aidiyyəti strukturların rəhbərlərinə tapşırıqlar verilib.

***XQ***

# Tovuz rayonunun Çatax kəndini Gədəbəy rayonunun Novosaratovka kəndi ilə birləşdirən Çatax–Çeşməli–Mollalar–Məşədivəlilər–Həsənli–Abbasqulular–Papaqçılar–Güvəndik–Lazılar–Novosaratovka avtomobil yolunun əsaslı təmiri ilə bağlı tədbirlər haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1** İyirmi bir min nəfər əhalinin yaşadığı 13 yaşayış məntəqəsini birləşdirən Çatax–Çeşməli–Mollalar–Məşədivəlilər–Həsənli–Abbasqulular–Papaqçılar–Güvəndik–Lazılar –Novosaratovka avtomobil yolunun əsaslı təmiri məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 10 yanvar tarixli 445 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının 2025-ci il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"nün 1.19.21-ci yarımbəndində göstərilmiş məbləğin ilkin olaraq 1,5 milyon (bir milyon beş yüz min) manatı Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ayrılsın.

**2** Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

**3** Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən avtomobil yolunun əsaslı təmirinin davam etdirilməsi üçün zəruri olan maliyyə vəsaitini Azərbaycan Respublikasının 2026-cı il dövlət büdcəsi layihəsində dövlət əsaslı vəsait qoyuluşu xərclərinin bölgüsündə nəzərdə tutsun.

**4** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 14 avqust 2025-ci il**

# Bolqarıstan mediası Vaşinqton razılaşmasını təqdir edir




**Bolqarıstan mətbuatında Azərbaycan, Ermənistan və ABŞ liderləri tərəfindən Vaşinqton şəhərində imzalanmış birgə bəyannamənin, habelə xarici işləri nazirləri tərəfindən paraflanmış sülh müqaviləsinin beynəlxalq siyasi əhəmiyyəti ilə bağlı məqalələr dərc olunub.**

Müxtəlif janrlı yazılarda Azərbaycan və Ermənistan liderlərinin onilliklər davam edən münaqişəyə son qoyulması üzrə yekun sülh sazişinin təsdiq etməsi və bunun regional və qlobal təhlükəsizliyə və inkişafa əhəmiyyətli dərəcədə töhfə verməsi yüksək təqdir olunur.

Əldə olunmuş razılaşmanın Asiya ilə Avropanı birləşdirən beynəlxalq bağlantıların təmin olunması və regional kommunikasiyaların açılması baxımından önəmli əhəmiyyət daşıdığı vurğulanır.

Dost ölkənin media yayımlarında Azərbaycanın əsas hissəsi ilə onun Naxçıvan Muxtar Respublikası arasında Ermənistan ərazisindən maneəsiz gediş-gəlişin təmin olunması, eyni zamanda, Ermənistanın da Azərbaycan ərazisi vasitəsilə ticarət və nəqliyyat əlaqələrindən faydalanacağı xüsusi olaraq qeyd olunur. Razılaşmanın dövlətlərin suverenliyinə, ərazi bütövlüyünə və yurisdiksiyasına hörmət əsasında və mehriban qonşuluq prinsipləri üzərində tərtib olunduğu bildirilir.

Bolqar mediası qeyd edir ki, iki ölkə arasında gələcək münasibətlərin və əməkdaşlığın əsas prinsiplərini və istiqamətlərini müəyyən edən əsas çərçivə sənədi olan Sülh Sazişi Azərbaycan və Ermənistanın dövlət sərhədlərini dünya birliyi tərəfindən tanınan beynəlxalq sərhədlər kimi təsdiq edir, hər iki ölkənin suverenliyini, ərazi bütövlüyünü, beynəlxalq sərhədlərinin toxunulmazlığını və siyasi müstəqilliyini tanıyır, separatizmi qəti şəkildə rədd edir.

***XQ***

# YAP-da Çin səfiri ilə görüş

**Azərbaycan ilə Çin arasında strateji tərəfdaşlıq və partiyalararası əməkdaşlıq məsələləri müzakirə olunub**



Dünən Yeni Azərbaycan Partiyasının (YAP) Mərkəzi Aparatında YAP Sədrinin müavini – Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov ilə Çinin ölkəmizdəki səfiri Lu Mey arasında görüş keçirilib.

Söhbət zamanı Azərbaycan Respublikasının Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyev ilə Çin Xalq Respublikasının Sədri, Çin Kommunist Partiyasının Baş katibi Si Cinpinin birgə fəaliyyəti sayəsində iki ölkə arasında əlaqələrin yüksək inkişaf səviyyəsinə çatdığı qeyd olunub. Prezident İlham Əliyevin cari ilin aprel ayında bu ölkəyə dövlət səfəri çərçivəsində Pekində "Azərbaycan Respublikası ilə Çin Xalq Respublikası arasında hərtərəfli strateji tərəfdaşlıq əlaqələrinin qurulması haqqında Birgə Bəyanat"ın imzalanmasının əlamətdar hadisə olduğu və gələcək əməkdaşlıq üçün geniş imkanlar yaratdığı xüsusi vurğulanıb.

İki ölkənin həm ikitərəfli qaydada, həm də beynəlxalq müstəvidə uğurlu əməkdaşlığının təsdiqi olaraq Çinin "Bir kəmər, bir yol" təşəbbüsünü dəstəkləmiş ilk ölkələrdən biri olan Azərbaycanın tranzit imkanlarının Orta Dəhlizin inkişafına töhfə verdiyi, eləcə də Azərbaycanın Şanxay Əməkdaşlıq Təşkilatı ilə əlaqələrinin genişləndirilməsinin rəsmi Pekin tərəfindən dəstəkləndiyi diqqətə çatdırılıb.

Görüşə Yeni Azərbaycan Partiyası ilə Çin Kommunist Partiyası arasında əlaqələrin sürətli inkişafından, fəal siyasi dialoq və təcrübə mübadiləsinə önəmli töhfə verən qarşılıqlı səfərlərin intensiv xarakter almasından məmnunluq ifadə olunub, ötən ilin noyabrında YAP nümayəndə heyətinin Çinə səfəri zamanı iki partiya arasında imzalanmış əməkdaşlıq memorandumundan irəli gələn vəzifələrin uğurla icra edildiyi bildirilib.

Səfir Lu Mey ilə görüşdə cari ildə nəzərdə tutulan tədbirlər və qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi də aparılıb.

***XQ***

# Bakıda Pakistanın Müstəqillik Günü





**Avqustun 14-də Bakıda Pakistanın Müstəqillik Gününə həsr olunmuş rəsmi tədbir keçirilib.**

Əvvəlcə Pakistanın dövlət himninin sədaları altında dövlət bayrağı qaldırılıb. "Qurani-Kərim"dən ayələr oxunub.

Sonra Pakistan Prezidenti Asif Əli Zərdari və Baş nazir Məhəmməd Şahbaz Şərifin ölkə xalqına ünvanladıqları, bu əlamətdar günün əhəmiyyətini vurğulayan müraciətləri səsləndirilib.

Pakistanın Azərbaycandakı səfiri Qasım Mouhiddin çıxış edərək günün tarixi əhəmiyyəti və mahiyyəti barədə danışıb. O, Azərbaycanla Pakistan arasında möhkəm dostluq əlaqələrini məmnunluqla qeyd edib, mayın 28-də Laçında Türkiyə, Azərbaycan və Pakistan liderlərinin üçtərəfli görüşünü xatırladıb. Səfir, həmçinin Qarabağ Zəfərinə toxunaraq, bu Qələbəni hərb tarixi üçün nümunəvi hadisə kimi qiymətləndirib.

***XQ***

**İranın Cənubi Qafqaz siyasətində ən həssas mövzulardan biri Zəngəzur dəhlizi ("Tramp marşrutu" – TRİPP) məsələsidir. Rəsmi Tehran regionun bütün ölkələri və əslində, elə İranın özü üçün də sərfəli olan bu layihəni, nədənsə, regionda geosiyasi balansı dəyişdirəcək, öz tranzit imkanlarını zəiflədəcək faktor kimi qiymətləndirir. Xüsusilə mühafizəkar qanadı təmsil edən İran rəsmiləri 2020-ci il noyabrın 10-dan sonra dəfələrlə bəyan ediblər ki, "tarixi sərhədlərin dəyişdirilməsi"nə qarşıdırlar və dəhlizin açılmasını milli təhlükəsizlik üçün risk sayırlar. Əslində, burada iqtisadi maraqlardan çox geosiyasi və strateji motivlər ön plana çıxır. Bu səbəbdən İranın mövqeyi həm regiondakı güclərin maraqları ilə toqquşur, həm də Azərbaycan və Ermənistanın kommunikasiyaları açmaq istəyinə ciddi maneə yaradır.**

# İranın Zəngəzur strategiyası: Geosiyasət, yoxsa iqtisadi maraqlar?

İran rəsmiləri bu istiqamətdə tez-tez açıqlamalar verir, hər dəfə də eyni sözləri təkrarlayırlar. Avqustun 8-də Vaşinqtonda Azərbaycan, Ermənistan və ABŞ liderlərinin imzaladıqları Birgə Bəyannamədən sonra Tehranın açıqlamalarının sayı daha da artıb. İslam respublikasının bu istiqamətdəki mövqeyini sonuncu dəfə ali rəhbər Seyid Əli Xameneyinin baş müşaviri Əli Əkbər Vilayəti Ermənistan xarici işlər nazirinin müavini Vaan Kostanyanla görüşdə təkrarlayıb. O, İranın öz təhlükəsizliyinə qarşı yönələn heç bir addıma dözməyəcəyini vurğulayıb. "Mehr" xəbər agentliyinin yaydığı məlumata görə, ali rəhbərin beynəlxalq məsələlər üzrə müşaviri avqustun 13-də Tehranda İranla ikitərəfli əlaqələri koordinasiya edən nazir müavini V.Kostanyanla sonuncunun xahişi ilə görüşüb. İran mediası yazır ki, Kostanyan görüşün əvvəlində bölgədəki son hadisələr və Vaşinqtonda aparılan danışıqlar barədə məlumat verib və iki ölkə arasında tarixi münasibətlərin və mehriban qonşuluq münasibətlərinin qorunub saxlanılmasının vacibliyini vurğulayıb. "Biz İranla dostluq əlaqələrinə dərindən sadiqik və bu tarixi münasibətləri yüksək qiymətləndiririk", – deyə o bildirib.

Vilayəti isə öz növbəsində, ikitərəfli əməkdaşlığın genişlənməsini alqışlayaraq deyib: "İran İslam Respublikası həmişə qonşuları arasında dayanıqlı sülh və əmin-amanlığa can atıb və Azərbaycan və Ermənistan arasında sülhün bərqərar olmasına hər hansı ölkədən daha çox önəm verir. İran Sovet İttifaqının dağılmasından və region ölkələrinin müstəqillik əldə etməsindən sonra Azərbaycan və Ermənistan arasında sülhün bərqərar olması üçün addımlar atan ilk ölkə olub və mən xarici işlər naziri işlədiyim müddətdə (Vilayəti 1981-ci ildə ovaxtkı prezident Əli Xameneyinin kabinetində xarici işlər naziri təyin olunub və Xameneyini əvəz edən Haşimi Rəfsəncaninin prezidentliyi də daxil olmaqla 1997-ci ilə qədər bu postda çalışıb–S.H.) bu istiqamətdə bütün səylərimi göstərmişəm".

İran liderinin müşaviri sülhə nail olmaq üçün İranın əməli tədbirləri barədə danışarkən deyib: "Biz hətta bu yolda qurbanlar vermişik. Mən Birinci Qarabağ müharibəsi zamanı iranlı diplomatların ailə üzvlərini Moskvadan Tehrana gətirən təyyarənin raketlə vurulması nəticəsində onların həlak olmasını nəzərdə tuturam. Bu hesabat İran İslam Respublikasının sülhün bərqərar olması istiqamətində qərarlı olduğunu göstərir". O, İranın xarici siyasətinin prinsiplərini izah etməyə davam edərək vurğulayıb ki, bölgənin taleyini yalnız region ölkələri özləri həll etməlidirlər.



*

Girişdə qeyd etdiyimiz kimi, İranın Zəngəzur dəhlizinə münasibəti son illər Cənubi Qafqaz siyasətində ən çox müzakirə edilən mövzulardan birinə çevrilib. Tehranın rəsmi dairələrinin bəyanatları, xüsusilə, Vaşinqtonda Azərbaycan, Ermənistan və ABŞ arasında imzalanan Birgə Bəyannamədən sonra daha da intensivləşib. Əli Əkbər Vilayəti–Vaan Kostanyan görüşü də bu xəttin davamıdır. Vilayəti bir daha açıq şəkildə bildirir ki, İran öz təhlükəsizliyinə qarşı yönələn istənilən addıma sərt reaksiya verəcək və regiondakı proseslərdə passiv müşahidəçi rolunu qəbul etməyəcək.

Əslində, bir daha vurğulamaq istərdik ki, İranın Zəngəzur dəhlizinə qarşı çıxması strateji baxımdan səhv addımdır. Tehran bu dəhlizi yalnız öz tranzit imkanlarına zərbə vuracaq layihə kimi təqdim edir, amma əslində yeni kommunikasiya xətləri onun üçün də iqtisadi faydalar yarada bilər. Dəhliz açılarsa, İran Türkiyə və Azərbaycan üzərindən Avropaya daha asan çıxış qazanacaq, həm də Orta Asiya bazarlarına yönələn ticarət yollarına qoşulmaq imkanı əldə edəcək. Yəni Tehran bu layihədən kənarda qalmaqla özünü təcrid edir, halbuki iştirak etməklə regionda daha geniş iqtisadi inteqrasiyadan faydalana bilər.

İran rəsmilərinin "sərhədlərin dəyişdirilməsi" və "təhlükəsizlik riski" kimi arqumentləri isə əsasən siyasi bəhanələrdir. Dəhliz qlobal əhəmiyyət daşıyan layihədir və bütövlükdə regionda sabitliyə xidmət edəcək. Bu sabitlikdən ən çox qazananlardan biri də məhz İran ola bilər. Çünki iqtisadi əməkdaşlıq artdıqca sərhəd bölgələrindəki gərginlik azalacaq, yeni layihələr İranın da payını böyüdəcək. Tehran əslində, regionun iqtisadi mərkəzinə çevrilmək istəyirsə, yeni reallıqlara uyğun davranmalı, köhnə düşüncə tərzindən imtina etməlidir.

Vilayətinin SSRİ dağılandan sonra İranın Azərbaycan və Ermənistan arasında vasitəçilik edən ilk ölkələrdən biri olduğunu, Tehranın təşəbbüsü ilə bir sıra danışıqların baş tutduğunu, hətta iranlı diplomatların ailə üzvlərinin faciəli şəkildə həlak olmasını bu prosesin ağır nəticələrindən biri kimi xatırlaması təsadüfi deyil. Amma bütün bu iddialara baxmayaraq, İranın vasitəçilik səyləri real nəticə verməyib və münaqişənin gedişində tarazlıq saxlamaq siyasəti daha çox nəzərə çarpıb. Əslində, Tehran Ermənistanla "tarixi dostluq" amilini qorumaqla yanaşı, Azərbaycana qarşı təzyiq rıçaqları da əldə etməyə çalışıb. Maraqlıdır ki, İran rəsmiləri dəfələrlə sülh tərəfdarı olduqlarını desələr də, real siyasət onların daha çox balansı öz xeyirlərinə saxlamaq niyyətini ortaya qoyur.

Vaşinqton görüşündən sonra İran rəsmilərinin açıqlamalarının sayının artması təsadüfi deyil. ABŞ-ın təşəbbüsü ilə imzalanan sənəd regionda yeni siyasi reallıqların formalaşmasına işarə edir. İranın bu prosesdən kənarda qalması onun təsir imkanlarının zəifləməsi ilə nəticələnə bilər. Ona görə də Tehran ritorikasını sərtləşdirir və Ermənistana "dostluq" mesajlarını gücləndirir. Kostanyanın Tehrana səfəri və "tarixi münasibətlər"i qabartması da bu fonun bir hissəsidir. Ermənistan ABŞ və Avropa ilə yaxınlaşarkən İranı itirmək istəmir, İran isə öz növbəsində bu əlaqələrdən Azərbaycana qarşı əks-təsir vasitəsi kimi istifadə etməyə çalışır.

Bu istiqamətdə Ermənistan baş naziri Nikol Paşinyanın bugünlərdə "Fox News"a müsahibəsində səsləndirdiyi fikirlər də maraqlıdır. "Düşünürəm ki, Vaşinqtonda imzalanmış saziş İran və Rusiya üçün əhəmiyyətli faydalar təmin edəcək", – deyən Paşinyan əlavə edib ki, sənəd icra edildikdən sonra İran Fars körfəzindən Qara dənizə qədər dəmir yolu ilə çıxış əldə edəcək. Onun sözlərinə görə, layihə işə düşdükdən sonra Rusiya və İran arasında birbaşa dəmir yolu əlaqəsi mümkün olacaq: "Hazırda Cənubi Qafqazdan İranı Rusiya ilə birləşdirən dəmir yolu xətti mövcud deyil. Bəyanata əsasən, layihə təkcə Ermənistan, Azərbaycan, ABŞ və Türkiyə üçün deyil, həm də Rusiya və İran üçün mühüm və faktiki olaraq misilsiz iqtisadi imkanlar yaradacaq. Bu, beynəlxalq sabitlik və təhlükəsizliyə də töhfə verəcək".

Bütün bunlar göstərir ki, İranın kommunikasiyaların açılması ilə bağlı narahatlığı yalnız təhlükəsizlik arqumenti ilə izah oluna bilməz. Burada həm də iqtisadi rəqabət, geosiyasi mövqelərin qorunması, regiondakı təsir dairəsinin zəifləməməsi məsələsi var. Azərbaycan və Türkiyə bu layihəni reallaşdırmaqda qərarlıdır, Qərb isə prosesi dəstəkləyir. Belə bir şəraitdə İranın təkrar bəyanatlarla prosesə mane olmaq istəyi uzunmüddətli nəticə verməyə bilər. Tehran ya yeni regional reallıqlara uyğunlaşmalı, ya da özünü təcrid vəziyyətində qoymalıdır.

**Dövlət İdarəçilik Akademiyasının müşaviri, politoloq Zaur Məmmədov** XQ-yə açıqlamasında bildirdi ki, İranın bu məsələdə mövqeyi strateji baxımdan yanlış qiymətləndirilə bilər. Onun sözlərinə görə,



Tehran bu layihəni yalnız öz tranzit imkanlarına təhlükə kimi təqdim edir, halbuki kommunikasiyaların açılması regionun bütün ölkələri, o cümlədən İran üçün də əlavə iqtisadi imkanlar yarada bilər: "Əgər dəhliz fəaliyyətə başlasa, İran Türkiyə və Azərbaycan vasitəsilə Avropa bazarlarına daha sürətli çıxış əldə edəcək, eyni zamanda, Mərkəzi Asiya ilə ticarət əlaqələrini genişləndirə biləcək. Bununla yanaşı, regionda nəqliyyat xətlərinin artması iqtisadi inteqrasiyanı gücləndirəcək və sərhəd bölgələrində gərginliyi azaldacaq".

Z.Məmmədov qeyd etdi ki, İran rəsmilərinin "sərhədlərin dəyişdirilməsi" və "təhlükəsizlik riski" arqumentləri də reallığa uyğun deyil. Politoloq bildirdi ki, Zəngəzur dəhlizi (TRİPP) beynəlxalq hüquq çərçivəsində formalaşır və heç bir dövlətin suverenliyinə, ərzi bütövlüyünə zərbə vurmur. Əksinə, regionda sabitliyin təmin edilməsi Tehranın da maraqlarına uyğundur, çünki sabitlik daha çox investisiya, daha çox əməkdaşlıq deməkdir.

***Səxavət HƏMİD***
***XQ***

---

# Nə oldu bəs, ağayi Araqçı?

## *Azərbaycanın "3+3" təklifini "bəyənib" niyə qulaqardına vururdunuz...*

**Hamının gözünün qabağında olan faktlardır. Prezident İlham Əliyev 44 günlük İkinci Qarabağ müharibəsi bitəndən dərhal sonra bəyan etmişdi ki, rəsmi Bakı "Qafqaz evi"ni qurmaq və möhkəmləndirmək üçün əməkdaşlıqda 3+3 formatını təklif edir. Yəni Cənubi Qafqaza daxil olan Azərbaycan, Gürcüstan və Ermənistan dövlətlərinin istənilən problemini regiona dolayısı ilə dəxli olan Türkiyə, Rusiya və İranın iştirakı ilə həll etmək istəyirdik.**






O zaman Ermənistan bu layihəni yaxına buraxmaq istəmədi. Daha doğrusu, Avropadakı bəzi "ermənistansevərlər" İrəvanı bu təklifə qoşulmağa qoymadılar. Çünki həmin təklifin reallaşdırılması "Avropa missiyası"nın Ermənistana gəlməsini əngəlləyə bilərdi. Gürcüstan bu təklifi bəyənsə də, 2008-ci il hadisələrinə görə Rusiya ilə eyni platformada dayanmaq istəmədi. Rusiya və İran isə Prezident İlham Əliyevin həmin təklifini "bəyəndilər" və bükük qoydular bir tərəfə. Yəni açıq-açığına qulaqardına vurdular. Qaldı, Azərbaycanla Türkiyə.

Bəs sonra nə oldu?

Rusiya xarici işlər nazirinin Azərbaycan – Ermənistan münasibətlərinin normallaşdırılması üzrə xüsusi nümayəndəsi İqor Xovayev dünən Tehranda İran İslam Respublikasının xarici işlər naziri Seyid Abbas Araqçı ilə görüşüb. Bildirilir ki, görüşdə "regionda baş verən son proseslər" müzakirə edilib. Nədir həmin "son proseslər"? Təbii ki, Ermənistanın öz ərazisində (qədim Azərbaycan torpaqları olan Zəngəzur artıq yüz ildir ki, Ermənistan ərazisi kimi tanınır və rəsmi Bakının həmin əraziyə heç bir iddiası yoxdur) "Tramp yolu"nun çəkilməsinə razılıq verməsi, bununla da Azərbaycanın əsas ərazilərindən Naxçıvana gediş-gəliş yolunun açılması.

Bu fakt Tehranda və Moskvada çox ciddi narahatlıq yaradıb. İran özü üçün elan etdiyi "qırmızı xətt"in pozulduğunu bildirir, Rusiya isə bu yolun məhz 2020-ci ilin noyabrında imzalanmış sənədə əsasən açılmasını tələb edir. Üstəlik, hər iki paytaxt – Moskva və Tehran Qafqaz regionunda "sabitliyin bərpası və əməkdaşlığın möhkəmləndirilməsi üçün birgə səylərin göstərilməsinə" çağırır.

İndi sual yaranır: Azərbaycanın mülki təyyarəsinə bilavasitə ordu rəhbərləri tərəfindən verilən əmrlə atəş açılması, zədələnmiş təyyarənin Rusiya hava limanlarından hansınasa eniş etməsinə icazə verilməməsi, hamıya məlum olan bu fakta görə üzr istənilməməsi, əksinə, azərbaycanlı deputatın Rusiya ərazisinə buraxılmaması, həmin ölkədəki Azərbaycan diasporu fəallarına amansızlıqla divan tutulması, öldürülməsi, Kremlə yaxın qüvvələrin xalqımızın və dövlətimizin ünvanına təhdidlər səsləndirilməsi regionda "sabitliyin bərpası və əməkdaşlığın möhkəmləndirilməsi üçün birgə səylərin göstərilməsinə" xidmət edirmi?

Yaxud, 2020-ci ilin noyabrında imzalanmış üçtərəfli Bəyanatdan sonra Azərbaycan ərazilərinə gətirilmiş Rusiya "sülhməramlılarının" işğalçı qüvvələrə kömək etməsi, separatçılara İran ərazisindən yanacaq, silah və digər yüklərin daşınmasına göz yumması regionda sabitliyə çağırış idimi? İran diplomatları həmin günlərdə Bakıda Prezident İlham Əliyevin "3+3" təklifini ikiəlli alqışlayır, Tehran rəsmiləri isə Azərbaycan ərazisində hələ də qalan separatçılara dördəlli yardım edirdilər. Bu idimi əməkdaşlığın genişləndirilməsinə xidmət etmək?

Dünən cənab Abbas Araqçı növbəti dəfə bəyan edib ki, biz moskvalı həmkarlarımızla birlikdə "3+3" əməkdaşlıq formatının icrasına səmimiyyətlə razıyıq. Mən – heç bir dövlət qurumunun və ya rəsmi təşkilatın nümayəndəsi olmayan sıravi azərbaycanlı cənab Araqçıya xatırladıram ki, İranın Azərbaycandakı səfiri Seyid Abbas Musəvi iki il əvvəl Şuşada keçirilən beynəlxalq tədbirdə demişdi ki, Azərbaycan Prezidenti İlham Əliyevin təklif etdiyi "3+3" əməkdaşlıq formatı region ölkələri üçün təşəbbüsləri əlaqəli şəkildə həyata keçirmək və addımları razılaşdırmaq baxımından əla imkandır.

İranın Zəngəzur dəhlizinin ("Tramp yolu") açılmasına qarşı olması haqqında fikirləri şərh edən səfir bunun məntiqli olmadığını və İranın bu məsələyə mane olmadığını bildirmişdi. Cənab səfirin həmin çıxışından beş-altı gün sonra isə Tehrandan rəsmi şəkildə xəbər gəlmişdi ki, Zəngəzur dəhlizi İranın qırmızı xəttidir və biz onun açılmasına imkan verməyəcəyik: "Azərbaycanın Naxçıvanla nəqliyyat əlaqələrinə ehtiyac olduğuna görə biz onlara İran ərazisindən keçməkli yol vermişik".

Sonuncu suallar. Əvvəla, İran rəsmiləri eyni məsələ haqqında həftədə bir fikir səsləndirirsə, yəni dövlət mənsublarına xas sabitqədəmlik yoxdursa, biz – sözü imzası qədər qiymətli, dəyərli olan Azərbaycan onlarla eyni platformada necə fəaliyyət göstərə bilərik?

İkinci, Rusiya rəhbərliyi 2020-ci ilin noyabrında imzalanmış üçtərəfli sənədin müddəalarını unutdusa, həmin bəyannamənin qüvvədən düşməsinə eyham vurulduşa, onda Azərbaycanın irəli sürdüyü "3+3" formatı barədə təklif də "qüvvədən düşmüş" ola bilməzmi?

Üçüncü: Əgər bu cənfəşanlıq regiona başqa dövlətlərin və ya siyasi qüvvələrin gəlməsinə etiraz əlamətidirsə, onda nə üçün "Avropa İttifaqının missiyası" Ermənistanda at oynadanda Tehran ağzına su alıb dayanırdı? Yaxud, regionda ABŞ şirkətinin fəaliyyətindən narazısınızsa, bilməlisiniz ki, bunu Azərbaycan yox, sizin İrəvandakı qardaşlarınız ediblər. ABŞ şirkətinin Zəngəzurda fəaliyyət göstərməsi ilə bağlı sənəd İrəvanla Vaşinqton arasında imzalanıb. Bunun səbəbini gedin qardaşlarınızdan soruşun.

Azərbaycanın mövqeyinə gəlincə isə bildirməliyik ki, bizə regionda sülh, sabitlik, əmin-amanlıq və ölkəmizin ayrılmaz hissəsi olan Naxçıvana rahat, maneəsiz gediş-gəliş lazım idi. Biz bunlara Rusiyanın köməyi ilə nail ola bilərdik, amma Moskva kömək etmədi. Biz öz məqsədlərimizə İranın dəstəyi ilə də nail ola bilərdik, fəqət Tehran nəinki dəstək vermədi, hətta badalaq gəldi. Amma unutdular ki, heç bir badalaq müasir dünyanın ən uzaqgörən siyasətçilərindən olan İlham Əliyevi öz yolundan döndərə bilməz. Necə ki, döndərə bilmədi.

Azərbaycan Prezidentinin əzmini, qətiyyətini və ədalətsevərliyini incə detallarınadək dəqiqliklə izləyən Vaşinqton məsələnin həm Azərbaycanla Ermənistanın, həm də özünün maraqlarına cavab verən şəkildə həllinə nail oldu.

Yenə xub, siz də gedin fikirləşin!

***İttifaq MİRZƏBƏYLİ,***
***Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Cəmiyyətləri Federasiyasının "Humanizm carçısı" mükafatı laureatı***

# Azərbaycanın diplomatik uğuru, millətçi lobbiliyin məğlubiyyəti

**Vaşinqtonda imzalanan Birgə Bəyannamə və paraflanan sülh sazişi Cənubi Qafqazda dayanıqlı sülhün təmin olunması, Azərbaycanla Ermənistan arasında qarşılıqlı münasibətlərin normallaşması üçün hüquqi və siyasi zəmin yaradır.**



Bu tarixi addımlar müxtəlif reaksiyalar doğurub. ABŞ-da fəaliyyət göstərən erməni lobbi təşkilatları sülh prosesinə açıq şəkildə qarşı çıxırlar. Əslində, bunda təəccüblü heç nə yoxdur. Çünki hay lobbi təşkilatları, o cümlədən Armenian National Committee of America (ANCA) və Armenian Assembly of America (AAA) kimi qurumlar uzun illər ABŞ Senatı, Konqresi, digər siyasi platformalarda Qarabağ məsələsini Ermənistanın mövqeyinə uyğun şəkildə, təhrif edilmiş formada təqdimatına çalışıblar. Onlar bununla Azərbaycanın Qarabağ üzərində suverenliyini tanımamaq və bu bölgənin Ermənistanla əlaqəli olduğunu dünya ictimaiyyətinə qəbul etdirmək məqsədini güdüblər. Erməni diasporası, lobbi təşkilatları müxtəlif siyasi kampaniyalar, maliyyə toplama tədbirləri və ictimai rəyi manipulyasiya vasitəsilə ardıcıl olaraq təsir güclərini artırmağa çalışıblar. Bu fəaliyyət nəticəsində uzun illər ABŞ-ın xarici siyasətində, xüsusən də Qarabağ məsələsində erməni tərəfinin mövqeyi daha çox ön plana çıxıb, nəticədə Azərbaycan təcrid olunmuş vəziyyətə düşüb.

Amma 2020-ci ilin 44 günlük Vətən müharibəsi və 2023-cü ildə Azərbaycanın Qarabağda həyata keçirdiyi lokal antiterror əməliyyatları bu təzyiqləri ciddi şəkildə zəiflətdi. Nəticədə Azərbaycan ərazisinin tam suverenliyi bərpa olundu, separatçı silahlı birləşmələr bölgədən çıxarıldı və qondarma rejim ləğv olundu. Bu hadisə həm də Qarabağ məsələsinin siyasi və hüquqi status-kvonu tamamilə dəyişdi. Vaşinqtonda imzalanan Birgə Bəyannamə və paraflanan sülh sazişi Azərbaycanın suverenliyinin və ərazi bütövlüyünün beynəlxalq səviyyədə qəbul edildiyinin təsdiqi oldu. Bu sənədlər erməni lobbi təşkilatlarının təzyiq kampaniyalarının uğursuz olduğunu göstərdi, onların strategiyalarının artıq keçərsizliyini bir daha ortaya qoydu. Bu, həm də ermənilərin ABŞ siyasətinə lobbi təsirinin zəifləməsi deməkdir. Bunu "Azadlığı müdafiə Aktı"na 907-ci düzəlişin dayandırılması ilə bağlı Donald Trampın imzaladığı sərəncam da təsdiqləyir.

Bəli, müstəqilliyinin yenicə bərpa olunduğu o çətin şəraitdə bu məhdudiyyətlər Azərbaycan üçün ciddi maneələr yaratdı. O dövrdə Azərbaycanın iqtisadiyyatı zəif idi, qaçqınların sayı çox idi və dövlət müstəqilliyini qorumaq üçün ciddi çətinliklərlə üzləşirdi. 33 il sonra ABŞ Prezidenti Donald Trampın imzaladığı qərarla bu məhdudiyyət aradan qaldırıldı. Bu, Azərbaycan üçün ədalətin bərpası və beynəlxalq arenada müstəqilliyinin tanınmasının rəmzi oldu.

Prezident İlham Əliyev bu qərarı "ədalətin bərpası" kimi qiymətləndirdi. Prezidentin sözlərinə görə, 907-ci düzəlişin ləğv edilməsi yalnız siyasi deyil, həm də rəmzi olaraq Azərbaycanın müstəqilliyinin və beynəlxalq mövqeyinin qəbul edilməsinin bir simvoludur. Bu həm də Cənubi Qafqazda sülhün bərpası üçün daha geniş bir yanaşmanın tətbiqinə yol açmış oldu.

*

Onu da qeyd edək ki, Donald Trampın imzaladığı sərəncam yalnız ABŞ ilə Azərbaycan arasındakı əlaqələri gücləndirmək məqsədi daşımır, həm də erməni lobbi qruplarının ABŞ-dakı təsirini ciddi şəkildə zəifləməsi deməkdir. Erməni lobbisinin Qarabağ ermənilərinin geri qayıtması məsələsinin danışıqlardan kənarda qalmasına etirazı da əsassızdır. İndiki mərhələdə bu məsələ Azərbaycan və Ermənistan arasında aparılan sülh danışıqlarının mövzusu deyil. Çünki Qarabağda yaşayan erməni əhalisi könüllü şəkildə Ermənistan ərazisinə köçüb. Azərbaycan hökuməti bu köç prosesində hərbi və inzibati zor tətbiq etməyib, əksinə, mülki əhalinin təhlükəsiz və sərbəst şəkildə bölgəni tərk etməsinə imkan yaradıb. Bu faktlar BMT müşahidəçiləri və təşkilatlar tərəfindən də təsdiqlənib.

Hazırda Ermənistan rəhbərliyinin bu məsələdə mövqeyi əhəmiyyətli dərəcədə dəyişib. Baş nazir Nikol Paşinyan açıq şəkildə bəyan edib ki, Ermənistan Qarabağın Azərbaycanın tərkib hissəsi olduğunu qəbul edir və sülh danışıqlarında bu mövzu müzakirə predmeti deyil. Bu, uzun illər münaqişənin ən mürəkkəb və həssas məsələlərindən biri olmuş Qarabağ ermənilərinin statusunun artıq əsas müzakirə mövzusu olmaması deməkdir. Beynəlxalq təşkilatlar, o cümlədən Avropa İttifaqı və Birləşmiş Millətlər Təşkilatı zaman-zaman Qarabağdan köçmüş ermənilərin fərdi qayda geri dönüş hüququ ilə bağlı ümumi çağırışlar etsələr də, bu çağırışlar hüquqi baxımdan məcburi xarakter daşımır və gələcək sülh sazişinin tərkib hissəsi kimi nəzərdə tutulmur. Bu məsələlər daha çox insan hüquqları və humanitar aspektlər səviyyəsində gündəmə gətirilə bilər. O da Ermənistandakı yurdlarından qovulmuş soydaşlarımızın Qərbi Azərbaycana qayıdışının təmin olunacağı təqdirdə.

Bu real vəziyyət regional balansın qorunması və gələcəkdə sülh müqaviləsinin uğurla imzalanması baxımından böyük əhəmiyyətə malikdir. Göründüyü kimi, erməni lobbi təşkilatlarının bu məsələdə yaratdıqları səs-küy və təzyiqlərin heç bir əsası yoxdur və onların mövqeyi artıq beynəlxalq və regional siyasətdə dəstəklənmir. Bu isə sülh və stabilliyin bərpası üçün əlverişli şərait yaradır.

*

**Mövzu ilə bağlı politoloq Yeganə Hacıyeva XQ-yə dedi ki,** Vaşinqtonda imzalanmış birgə Bəyannamə və paraflanmış sülh sazişi Cənubi Qafqazda sülhə gedən yolun əsasını qoyur və erməni lobbi qruplarının destruktiv fəaliyyətlərinə baxmayaraq, regionda sabitliyin bərpası üçün geniş imkanlar açır: "Azərbaycanın ərazi bütövlüyünün tanınması və Ermənistanla normallaşan münasibətlər bu sənədlərin əsas prinsipləridir və gələcəkdə davamlı sülhün təmin olunmasına xidmət edir".

Yeganə Hacıyeva daha sonra Ter-Petrosyanın ABŞ-ın vasitəçiliyi ilə bağlanmış Azərbaycan–Ermənistan sülh bəyannaməsinə münasibət bildirməkdən çəkinməsinə də toxundu: "Ermənistanın sabiq prezidenti Levon Ter-Petrosyanın Vaşinqtonda



imzalanmış sənədlərə münasibət bildirməkdən çəkinməsi siyasi motivlər və strategiya ilə əlaqədardır. Bu yanaşma, sadəcə, Ermənistanın razılığa gəldiyi məsələlərlə ölkə konstitusiyası arasında ziddiyyətlər olduğunu vurğulamağa yönəlib. Lakin bu, əslində, yalnız görüntü yaratmağa xidmət edən məqsədli bir addımdır.

Ter-Petrosyanın sərgilədiyi mövqeyin əsas məqsədi erməni lobbi qruplarının maraqlarını müdafiə etməkdir. Bu yanaşma müəyyən bir ideoloji nüvəni itirmiş lobbi üçün yeni əsaslar formalaşdırmağa, gələcəkdə siyasi manipulyasiya etməyə yönəlib. Bu cür strategiyanın Ter-Petrosyanın əvvəlki mövqeyini və Ermənistan hakimiyyətindəki erməni lobbisinin təmsilçisi statusunu nəzərə alsaq, məsələ daha aydın olar.

907-ci düzəlişin aradan qaldırılmasına gəldikdə isə, bu, yalnız Azərbaycan diplomatiyasının uğuru deyil, həm də erməni lobbi qruplarına vurulan sarsıdıcı zərbədir".

Beləliklə, Vaşinqtonda imzalanan Birgə Bəyannamə və paraflanan sülh sazişi Azərbaycan–Ermənistan münasibətlərində yeni bir dövrün başlanğıcını qoydu. Bu prosesdə Azərbaycanın ərazi bütövlüyü və suverenliyi beynəlxalq hüquq çərçivəsində təsbit olunub. Qalır İrəvanın konstitusiyasından ölkəmizə qarşı ərazi iddialarını ehtiva edən müddəanın aradan qaldırılması və yekun sülh sazişinin imzalanması.

***Punhan ƏFƏNDİYEV***
***XQ***

# Qərb mövqeyini dəyişməyə məhkumdur

**(əvvəli 1-ci səhifədə)**




"Məcburi diplomatiya", yəni güc və təzyiq vasitəsi yalnız qarşı tərəfin siyasi iradəsi zəif olduqda effektiv olur. Azərbaycan isə qətiyyətini göstərərək beynəlxalq təzyiqin səmərəsiz olduğunu ortaya qoydu. Bu addım, sadəcə, daxili siyasətdə möhkəm durmaq deyil, həm də beynəlxalq arenada hüquqa əsaslanan mövqeyi qorumaq və strateji muxtariyyatını nümayiş etdirmək deməkdir. Prezident İlham Əliyevin geri çəkilməyən və prinsipial xətti burada kritik rol oynadı. Onun strategiyası "şərtlərin rasional paketləşdirilməsi" prinsipinə əsaslanır: sərhədlərin tanınması, konstitusional iddiaların aradan qaldırılması və qarşılıqlı suverenliyin təsdiqi kimi elementlər bir-biri ilə əlaqələndirilərək bütünlükdə diplomatik üstünlük yaratdı. Prezidentin bu strategiyası beynəlxalq aktorları yalnız normativ ritorikaya əsaslanan təzyiq modelindən faktlara və reallığa söykənən vasitəçilik modelinə keçməyə məcbur etdi.

Buradan belə nəticə çıxarmaq olar ki, diplomatiyada qətiyyət, hüquqi legitimlik və strateji resursların birgə istifadəsi təzyiq və manipulyasiyaya qarşı davamlı müdafiə mexanizmi yaradır. Azərbaycan nümunəsində görünür ki, yalnız güc nümayişi yox, həm də hüquqi əsaslı, ardıcıl və rasional siyasət təzyiqin səmərəsini neytrallaşdırır və beynəlxalq münasibətlərdə mövqeyi gücləndirir.

Burada açıq suret xətti görünür: təzyiqdən reallığın qəbuluna keçid. Dünən Bakıya "şərt dili" ilə yanaşanlar bu gün faktlarla danışmağa məcburdur. Belə bir nəticə isə həm Prezident İlham Əliyevin qətiyyətinin, həm də Azərbaycan diplomatiyasının ardıcıl strategiyasının uğurudur.

Bəs niyə prosesin kilidini açan məhz Ermənistan konstitusiyasıdır? Cavab aydındır: sülhün üç dayağı – güc balansı, hüquqi legitimlik və qarşılıqlı tanınma – bir-birilə sıx bağlıdır. Ermənistan Konstitusiyasında Azərbaycanın ərazi bütövlüyünə zidd müddəaların qalması sülhün legitimlik sütununu dağıdır və danışıqları kağız üzərində saxlayır. Konstitusiya düzəlişi yalnız formal hüquqi prosedur deyil, həm də Ermənistanın daxili siyasi iradəsinin və cəmiyyətin sülhə hazır olmasının testidir. Politoloji nəzəriyyədə bu, "iki səviyyəli oyun" adlanır: hökumət eyni vaxtda həm beynəlxalq masada, həm də daxildə auditoriya xərclərini idarə etməlidir.

Güc balansı və qətiyyət məsələsi də mühümdür. 2020-ci il tarixi Zəfərdən sonrakı mərhələdə Azərbaycan təhlükəsizlik arxitekturasını yenilədi, sərhəd idarəçiliyini gücləndirdi, reinteqrasiya və suveren nəzarəti möhkəmləndirdi. Qələbə həm daxildə, həm də beynəlxalq səviyyədə Azərbaycanın "qətiyyət" siqnalı oldu və xarici vasitəçiləri normativ təzyiq modelindən fakt-mərkəzli vasitəçilik modelinə keçməyə vadar etdi.

Normativ çərçivə də rolunu göstərir. BMT Nizamnaməsi və Helsinki Yekun Aktı kontekstində ərazi bütövlüyü məsələsi heç bir şəkildə pozulmasına icazə verilməyən ümumbəşəri hüquqi prinsipləri ifadə edir. İrəvanın daxili sənədindəki ziddiyyət beynəlxalq səviyyədə reputasiya və hüquqi uyğunsuzluq yaradır. Beləliklə, sülh yalnız Ermənistan Azərbaycanın ərazi bütövlüyünə zidd müddəalardan imtina etdikdə hüquqi legitimlik qazanır.

Prosesi daha dərindən açsaq, görünür ki, Qərbin "təzyiqin işləməməsi" təkcə diplomatik iradənin yoxluğundan deyil, həm də reallıq balansının dəyişməsindən qaynaqlanır. Strateji asılılıq yaratmaq üçün xarici aktorlar qarşı tərəfi müəyyən resurs və imkanlar üzərində asılı vəziyyətə gətirməlidirlər. Lakin enerji təhlükəsizliyi böhranı fonunda Avropanın qaz tədarükünü diversifikasiya etməsi Azərbaycanı birbaşa alternativ təchizatçı mövqeyinə çıxardı. Eyni zamanda, Orta Dəhliz infrastrukturu Azərbaycanı regional nəqliyyat və ticarət qovşağına çevirdi.

Belə bir şəraitdə Azərbaycan yalnız "təzyiq altında qalan tərəf" deyil, həm də "regional qaydaların müəyyənləşdiricisi" rolunu qazandı. Bu status diplomatik və iqtisadi müstəvidə digər aktorların normativ şərtlərdən çox, faktlara müəyyən edilmiş reallıqları – sərhəd mövqelərini, nəqliyyat və enerji axınlarını, geoiqtisadi balansı – qiymətləndirməsinə səbəb oldu. Başqa sözlə, təzyiq vasitəsi səmərəsiz oldu, çünki qlobal aktorlar üçün daha dəyərli olan şey artıq "sabit tərəfdaşlıq və real imkanlar" idi, kağız üzərindəki normativ çağırışlar yox.

Mövcud vəziyyət həm də Azərbaycan diplomatiyasının "praktik realizm" strategiyasının nə qədər effektiv olduğunu göstərir: diplomatik diskursda təzyiqə cavab vermək əvəzinə, faktik mövqeyini möhkəmləndirməklə qlobal aktorların davranışını yönləndirdi.

Vaşinqton görüşündən sonra diplomatik qaydalar aydın şəkildə dəyişdi. Təzyiq və normativ preskriptivlik modeli fakt-mərkəzli fasilitasiyaya çevrildi. Sadə dildə desək, preskriptivlik modeli tərəflərə "belə etməlisiniz" deyən, qaydalar və təzyiq üzərində qurulmuş diplomatiyadır, fakt-mərkəzli fasilitasiya isə mövcud vəziyyətə, reallıqlara və tərəflərin maraqlarına baxaraq, onları dialoqa yönəldən, neytral və praktik vasitəçilikdir.

Mövcud vəziyyət ABŞ və Avropa üçün reputasiya risklərini azaldır, eyni zamanda prosesin sahibliyini tərəflərə qaytarır. İrəvan üçün bu, "ev tapşırığı" deməkdir: Konstitusiya düzəlişlərini zamanında, aydın mətnlə və daxili konsensusla həyata keçirmək. Əks təqdirdə iki risk ortaya çıxır: birincisi, beynəlxalq skeptisizm və etimad itkisi; ikincisi, danışıqlarda Bakının şərtləşdirilmiş gündəm üçün əlavə arqument qazanmasıdır.

Bakı üçün isə bu, strateji menecmentdir: qələbə narrativini inklüziv regional gündəmə bağlamaq, sərhədlərin delimi-



tasiyası, kommunikasiyaların açılması, iqtisadi-sosial layihələrin reallaşdırılması və humanitar etimad tədbirlərini təşviq etmək. Təbii ki, burada daxili müqavimət, hibrid informasiya riski və regional oyunçuların reaktivliyi kimi risklər mövcuddur, lakin şəffaf kommunikasiya, fakt-yönlü diplomatiya və paralel platformaların istifadəsi ilə idarə oluna bilər.

İmkan pəncərəsi də açıqdır. Enerji və nəqliyyat sinerjisi, məsələn, Cənub Qaz Dəhlizi və Orta Dəhliz Azərbaycanı regional "keçid qovşağı" mövqeyinə gətirir. Sərhədin hüquqiləşdirilməsi, delimitasiya və demarkasiya sülhün maddi zəmanətini təmin edir. Humanitar normallaşma isə etimad quruculuğu vasitəsilə sülhü cəmiyyətlərə "toxundurur". Bu mərhələdə ən kritik məqam isə konstitusiya dəyişikliyidir. Dəyişiklik sülh arxitekturasının daşıyıcı sütunudur.

Beləliklə, Vaşinqton görüşü göstərdi ki, təzyiqin dili bitəndə real siyasət başlayır. Uzun müddətli siyasi və diplomatik təzyiqlərə, beynəlxalq mediada qarayaxma kampaniyalarına, sanksiya hədələrinə baxmayaraq, Prezident İlham Əliyevin geri addım atmayan strategiyası təzyiqi praqmatizmlə əvəzləməyə məcbur etdi.

***Şəbnəm ZEYNALOVA,***
***XQ-nin siyasi analitiki,***
***siyasi elmlər üzrə fəlsəfə doktoru***

# Tarixi dəyişən sülh konsepsiyası Azərbaycanın dövlət siyasəti kimi



IV MƏQALƏ

## “Humanitar canfəşanlıq” və “durbin diplomatiyası”

Bu mövzuya aid III məqalədə Azərbaycanın sülh konsepsiyasına qarşı əsasən Qərb dövlətləri tərəfindən törədilən təxribatların iki qrupunu vurğulamışdıq. Onlar “rəsmi siyasi dairələrin süni davranışları” və “Azərbaycanın real sülh niyyətlərinə kölgə salmağa yönəlmiş saxta diplomatiya üsulu” kimi təsnif edilmişdir. Lakin məsələ bununla yekunlaşmırdı. ABŞ və Aİ-nin güclü dövlətləri daha geniş cəbhədə Azərbaycanın II Qarabağ müharibəsində əldə etdiyi zəfərin əsl mahiyyətini təhrif etməkdə idilər.

“Humanitar canfəşanlıq” və “durbin diplomatiyası” aparırdılar. Bununla yanaşı, ekoloji böhtanlar, saxta insan haqları bağırtıları, diplomatik təhriklər və hətta kiçik hərbi avantüralar sülhün qarşısına çıxarılan əngəllərdən idi.

Azərbaycan Qarabağda qanunsuz olaraq təbii resurslarımızdan istifadə edən xarici+erməni qruplaşmasını dinc aksiyalarla ifşa edəndə, Bakıya qarşı hansı böhtanları atmadılar? İndi məlum olur ki, hətta gizli servislər müəyyən adamları aksiyaçıların arasına yerləşdirərək siyasi, ideoloji təxribatlar təşkil etməyə çalışmışlar. Bu zaman onlar Qırmızı Xaç kimi təşkilatlar vasitəsi ilə də Laçın yolunda Azərbaycanı ittiham edən davranışlar etmişlər. Bir neçə konkret misal.

## Rusiya və İran

Laçın yolu ərazisində bir erməninin Azərbaycan sərhədçilərinə atdığı qumbara yaddan çıxmamışdır. Onu rus sülhməramlıları götürdülər. Bir neçə dəfə Azərbaycan tərəfi dəqiq videogörüntülərlə rus sülhməramlılarının Qarabağdakı erməni separatçı-terrorçu tör-töküntülərinə silah daşıdığını ifşa etdi.

Müsəlman İran tərəfdən hətta azərbaycanlı sürücüləri belə Azərbaycana qarşı müxtəlif təxribatlara məcbur etdilər. Onların hansı həyasızlıq və saymazlıqla Azərbaycan dövlətçiliyi haqqında sözlər dediyini unutmaq olarmı?

Açıq-aydın görünürdü ki, ruslar, ermənilər və İranın hakimiyyət dairələri Azərbaycan Respublikası dövlətinin suveren hüquqlarını tapdalamağa, hər fürsətdə işğalçıya dəstək verməyə çalışırdılar. Bəs beynəlxalq təşkilatlar bu prosesə necə reaksiya verdi? İndi özlərini “sülh mələkləri” kimi təqdim edən və Vaşinqton razılaşmasını “ürəkdən alqışlayan” həmin dairələr Azərbaycanın müstəqilliyi və suverenliyinin təmini baxımından o çətin və həlledici dövrdə özlərini necə apardılar? Bir neçə faktı yada salmaq kifayətdir.

## Fransa, Almaniya və ABŞ

Fransa bütün vasitələrlə Azərbaycanı günahkar çıxarmağa, insan haqlarını pozan dövlət olmasını “sübut” etməyə çalışırdı. Nümunələr o qədər çoxdur ki, hansını deməkdə çətinlik çəkirik. Jurnalistlərin dili ilə insan haqlarını (rəsmi Paris “insan” deyəndə yalnız erməniləri nəzərdə tutur) müdafiə üçün vay-şüvən qopardılar. Laçın yolunda ora-bura vurnuxub “haqları pozulan erməni” axtarmaqdan əldən-dildən düşdülər. Fransız rəsmiləri diplomatiyası, gizli servisi, “durbin müşahidəsi”, hərbi kompleksi yeni silahlar vermə üzrə “xarüqələr” yaratmaq işinə girişdilər. Bütün bunların Azərbaycan tərəfdən cavabı o dərəcədə ədalətli, hüquqi və birmənalı oldu ki, “Bakının müqavimət divarına” dəyib darmadağın oldular.

Almaniyanın xarici işlər naziri regiona səfəri zamanı bir dəfə də olsun “Qərbi Azərbaycandan deportasiya olunmuş azərbaycanlılar” cümləsini işlətmədi. Hətta C.Bayramov açıqca alman nazirin diqqətini bu məsələyə yönəltməyə çalışdı, lakin adam lal və kar oldu. Praktiki meydanda isə alman gizli servisinin təxribatçı zabitləri erməni tərəfdən Azərbaycanı durbinlə izləyir, hətta fransızlarla birgə bir neçə xırda təxribat belə təşkil edirdilər.

Biz həmin dövrdə Azərbaycan sərhədində baş verən bir sıra hadisələri əsla unutmamışıq! O cümlədən, Almaniyadan Avropa Parlamentində olan deputatın Azərbaycana qarşı hansı böhtanları atdığını və süni olaraq “erməni haqları”nın pozulduğunu dəfələrlə qaldırmasını da xatırlayırıq. Almaniyanın Prezidenti və Kansleri daxil heç kəs Azərbaycanın müqavimət sahəsini keçə bilmədi.

Amerika həmişə olduğu kimi açıq sahədə az görünürdü, lakin pərdəarxası dirijorluğuna şübhə yox idi. ABŞ həmin dönəmdə diplomatiyada Avropa İttifaqını irəli vermişdi. Şarl Mişelin bir neçə təşəbbüsünü vurğulamaq olar. Sözdə sülhdən, münasibətlərin normallaşmasından dəm vururdular, lakin hər imkanda anti-Azərbaycan addımı atırdılar. Məsələn, E.Makronun özünü danışıqlar formatına soxmağa çalışmasının adı nə idi? Azərbaycanın qətiyyətli etirazları nəticəsində bu siyasi-diplomatik təxribat da baş tutmadı. Bundan başqa, ABŞ-ın o dönəmdə Rusiya, Aİ və İran tərəfdən olan qəsdlərə “durun, haqsızlıq edirsiniz, beynəlxalq hüququ pozursunuz” dediyini eşidən var?

## Həqiqət anı

Reallıq ondan ibarətdir ki, Azərbaycan Respublikası müharibədən sonrakı o çətin və mürəkkəb dönəmdə praktiki sahədə təkbaşına savaş verirdi. Doğrudur, qardaş Türkiyə və Pakistanın dəstəyi həmişə olmuşdur, lakin praktiki sahədə Azərbaycanın yanında lideri, xalqı, qeyrəti və şücaəti idi! Bu Vətənin təhlükəsizliyini təmin etmək vəzifəsini yerinə yetirən minlərlə isimsiz qəhrəmanlarımız, peşəkar komandolarımız, hər bir vətənpərvər azərbaycanlı idi.

Onlar lideri tam dəstəkləyir və tam gücü ilə çalışırdıalr. Lakin hər kəsin qəlbində bir niyyət vardı: bütün bu qovğalar bitsin və Vətənə sülh gəlsin, regiona barış gəlsin, əməkdaşlıq olsun və hər bir xalq zənginlik içində dinc yaşasın! Hələ də anlamırlar ki, Azərbaycan dövlətinin sülh konsepsiyasının mənəvi motivasiyasının qaynağı xalq mənəviyyatı, müdrikliyi və azadlıqsevərliyidir! Azərbaycanın dövlət kimi sülh konsepsiyasının yenilməzliyinin kökü bu gerçəklikdədir! Prezident və lider İlham Əliyev bunları ən yaxşı duyan və bilən milli siyasi lider kimi, xalqı arxasınca yeni qələbəyə - sülhün zəfərinə apara bildi! Ən yüksək zirvədə sülh bayrağı başqasının yox, İlham Əliyevin əlindədir! Sülh üzrə Nobel mükafatının ən layiqlisi Azərbaycanın dövlət başçısıdır!

Qayıdaq postmüharibə mərhələsinin ilk illərində yuxarıda vurğuladığımz baş verənlərə “demokratik və sülhsevər dairələrin” sonrakı reaksiyasına.

## Müqavimətin qırılması

Aydın görünür ki, hərbi qələbəmiz Qərb, Rusiya, İran və hətta uzaq Hindistanı o dərəcədə qane etmirdi ki, artıq keçmiş olan işğalçıya hər dəstəyi verirdilər. Onu silahlandırır, ruhlandırır, bizi günahkar çıxartmaq üçün Ermənistana hücum edəcəyimiz uydurması tirajlayırdılar. Onlar bununla kifayətlənmədilər – sərhəddə bir neçə hərbi təxribat törətdilər. Nəticədə Azərbaycan konkret tədbir görmək məcburiyyətində qaldı və bir neçə yüksəkliyi də 100 illik işğaldan azad edərək Ermənistanın içərilərinə nəzarət imkanı qazandı. Və Azərbaycan təhlükəsizliyini təmin edəndən sonra dayandı. O aylarda avropalı rəsmilərin və diplomatların Ermənistana dalbadal səfərləri oldu. Onlara erməni hərbi rəhbərliyi real vəziyyəti göstərdilər. Belə nəticəyə gəldilər ki, Azərbaycana qarşı sahədə hərbi təxribatların nəticəsi yoxdur. Bu, Azərbaycanın ədalətli sülh konsepsiyasının postmüharibə mərhələsində ilk ciddi uğuru idi.

Lakin şər qüvvələrin müqavimətini qırmaq prosesi başa çatmamışdı. ABŞ, Avropa, Hindistan Ermənistanı silahlandırmağa, siyasi-diplomatik dəstək verməyə davam etdilər. Nəhayət, ABŞ də son zamanlar Ermənistan vasitəsi ilə regiona yerləşmyə başladı. İrəvandan Zəngəzura məhdud sayda Amerika hərbi kontingentinin getdiyi haqqında informasiyalar yayıldı. Bunların fonunda Azərbaycanı onların birmənalı dəstəkləməsi halını görmədik! Ancaq Azərbaycan bütün istiqamətlərdə - hərbi, siyasi, diplomatik, geosiyasi və informasiya aspektlərində sülhyaratmaq missiyasına olan əngəlləri aşmışdı!

Bu prosesdə Azərbaycan liderinin sülhü təmin etmədə atdığı çox möhtəşəm bir addımı vurğulamaq lazımdır.

## Yeni geosiyasi konfiqurasiya yaradan diplomatiya

Biz artıq vurğulamışıq ki, Azərbaycanın sülh konsepsiyasına gətirdiyi yeni anlam bu anlayışı - milli, regional və qlobal miqyasların vəhdətini təmin etməklə, geosiyasi kontekst səviyyəsinə proyeksiya etməsi ilə bağlıdır. Həmin hədəfə çatmanın bariz nümunəsi yeni regional və regionlararası geosiyasi konfiqurasiyanın yaradılmasıdır. Ona nail olmağın başlıca üsulu isə liderin məharətli və çoxgedişli diplomatiyasıdır.

Yeni geosiyasi konfiqurasiya yaratmaq həmişə və hər bir lider üçün çətin işdir. Burada liderin təşəbbüskarlığı və kreativliyi ilə reallığı adekvat görə bilməsi də çox vacibdir. Bunlarla yanaşı, liderin etibarlılığı və etimad sahibi olması olduqca vacib keyfiyyətlərdir. Çünki siyasilər etibar etdikləri liderlərlə səmimi əlaqələr qurmağa üstünlük verirlər. Prezident İlham Əliyev “çox daşları yerindən oynadan” Vətən müharibəsindən qısa müddət sonra yeni geosiyasi konfiqurasiyanı motivasiya edə bildi.

Bunun üçün Azərbaycan lideri regional reallıqlardan çıxış edərək Türk Dövlətləri Təşkilatı (TDT) və Qoşulmama Hərəkatı (QH) çərçivəsində fəaliyyətini daha da intensivləşdirdi. Paralel olaraq İlham Əliyev dünya miyqasında yeni müstəmləkəçiliyə və ksenofobiyaya qarşı qətiyyətli mübarizə apardı. QH-yə sədrliyi müddətində Azərbaycan Prezidenti ədalətli, yardımlaşma xarakterli və humanitar addımları ilə qlobal miqyasda böyük etibar və etimad qazandı. İndi dünyanın hər bir dövləti Azərbaycanın humanitar dəstəyini qəbul edir. Suriya bunun son nümunəsidir. Sakit Okeanın ada dövlətlərinin müstəmləkəçiliyə qarşı mübarizədə Azərbaycana üz tutmaları bunun əlamətlərindəndir. Türk dünyasının isə Prezident İlham Əliyevə sonsuz etibarı, inamı və etimadına söz ola bilməz. Şimali Kiprin rəhbərliyi və cəmiyyəti bu barədə geniş danışa bilərlər.

Vurğulanan faktlardan aydın olur ki, Azərbaycanın motivasiya etdiyi yeni geosiyasi konfiqurasiya birmənalı olaraq sülh, barış, ədalət, əməkdaşlıq mahiyyətlidir. Azərbaycan təcrübəsinin bu sahədə digərlərindən əsas fərqi də bundan ibarətdir. Azərbaycanın imza atdığı hər bir proqram və layihə yalnız sülhə, barışa, təhlükəsizliyə və qarşılıqlı faydalı əməkdaşlığa xidmət edir. Bununla kimsə mübahisə edə bilməz. COP29-un Bakı tədbirində minlərlə xarici diplomat bu barədə açıq fikir bildirmişlər.

Bütün bu məqamlardan Vaşinqton müzakirələri fonunda vacib bir sual alınır: Vaşinqton razılaşmaları “köhnə” yolun sonudur, yoxsa yeni yolun başlanğıcıdır? Bu görüş yekundurmu? Əvvəllər Azərbaycanı hər imkanda sıxışdırmağa, ona şər atmağa çalışanlar Vaşinqtonda Azərbaycan liderinə təriflər yağdırmaqda nə dərəcədə səmimidirlər?

Azərbaycanı hər şeydə günahkar kimi göstərməyə cəhdlər edən rəsmi Paris indi alqışlayırsa, səbəbi nədir? Berlin də yumşalıb, sülhə əl çalır. Hindistan susur. İran rəhbərliyi də mövqeyində yumşalan kimi görünür. D.Tramp isə sözün həqiqi mənasında “göylərdə uçur”. Dünya dəyişirmi? Bir sıra dairələr Vaşinqton sazişi ilə Azərbaycana qarşı 300 illik siyasətlərinin yanlış olduğunumu etiraf edirlər?

Doğrudan möhtəşəm hadisədir! Azərbaycan bütün geosiyasi layları elə tərpədib və ortaya elə yeni geosiyasi model qoyub ki, “qurdlar süfrəsi bir-birinə qarışıb”! İndi hamı Azərbaycanın sülhyaratma məntiqini və məkanını qəbul edir. Bəs bu prosesin sərhədləri haradan keçir?

**(ardı var)**

***Füzuli QURBANOV,***
***XQ-nin analitiki,***
***fəlsəfə elmləri doktoru***

**Avqustun 14-də Avropa İttifaqı Şurasının Prezidenti Antonio Koşta Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib. Prezidentin Mətbuat Xidmətinin yaydığı məlumatda qeyd edilib ki, Antonio Koşta Vaşinqtonda Azərbaycanla Ermənistan arasında ABŞ Prezidentinin şahidliyi ilə bəyannamənin imzalanması, sülh və dövlətlərarası münasibətlərin qurulması haqqında Sazişin paraflanması və regional nəqliyyat dəhlizi ilə əlaqədar əldə olunmuş nailiyyətlər münasibətilə dövlətimizin başçısını təbrik edib. A.Koşta bu nəticələrin regionda davamlı sülhün və sabitliyin təmin olunması baxımından önəmini vurğulayaraq, Aİ Şurasının əldə edilmiş razılaşmaların həyata keçirilməsi prosesinə dəstək verməyə hazır olduğunu bildirib.**

# ABŞ–Azərbaycan–Ermənistan paktının həmrəylik dalğası

*Avropanın nüfuzlu qurumları Vaşinqton bəyannamələrinin reallaşmasına dəstək verməyə hazırdırlar*



Təbriklərə görə minnətdarlığını ifadə edən Prezident İlham Əliyev Azərbaycanla Ermənistan arasında sülh gündəliyinin təşəbbüskarının və sülh müqaviləsinin mətninin müəllifinin məhz ölkəmiz olduğunu xatırladıb, Vaşinqtonda əldə olunmuş böyük uğurun əhəmiyyətini vurğulayıb, bu məsələdə ABŞ Prezidenti Donald Trampın xüsusi rolunu qeyd edib. İ.Əliyev Azərbaycanın əsas hissəsi ilə onun Naxçıvan regionu arasında maneəsiz nəqliyyat bağlantısı üzrə razılaşmanın önəminə toxunub. Telefon danışığı zamanı bu ilin mayında Tiranada Avropa Siyasi Birliyinin Zirvə toplantısı çərçivəsində Azərbaycan Prezidentinin Aİ Şurasının Prezidenti Antonio Koşta və Avropa Komissiyasının Prezidenti Ursula Fon der Lyayen ilə görüşü, aparılmış müzakirələr məmnunluqla xatırlanıb.

Bundan az öncə sosial şəbəkədə paylaşım edən Aİ Şurasının Prezidenti A.Koşta yazmışdı ki, “Azərbaycan və Ermənistan Vaşinqtonda imzalanmış sazişlər sayəsində regionda davamlı sülhə doğru mühüm addım atıblar”.

*

Nəzərə çatdırmağı zəruri sayırıq ki, Azərbaycan üçün Vaşinqton razılaşmalarına Aİ rəsmilərinin reaksiyaları çox mühümdür. Ən azı, ona görə ki, Azərbaycan–Ermənistan sülh prosesinə yanaşma təkcə iki ölkənin deyil, bütövlükdə regionun yaxın gələcəkdə “Qoca qitə”yə inteqrasiyasına ciddi istiqamət verəcək. Aİ Vaşinqton görüşünə qədər İrəvan və Bakı arasında balansı qoruyub saxlamaq, yaxud seçim etmək məcburiyyətində qalırdısa, artıq sülh prosesinin yekun mərhələsi bu tendensiyanı aradan qaldıra bilər. Ən önəmlisi, Aİ-nin Bakıdan enerji nəqlini artırmaq istəyinin, sadəcə, istək olaraq qalmayıb konkret və real dəstəyə çevriləcəyi şübhə doğurmur. Yəni, yaranmış durumu düzgün qiymətləndirən Brüsselin Cənubi Qafqazın yeni enerji layihələrinə xüsusi diqqət ayırması təbii qarşılanacaq.

*

Avropa Şurasının rəhbər strukturları da Vaşinqton sülh prosesinə müsbət yanaşdıqlarını nümayiş etdirdilər. Aİ-nin Baş katibi Alain Berset bunu “ortaq tarixdə yeni səhifə” kimi dəyərləndirdi və quruma üzv dövlətlərin indiki mərhələdə Azərbaycanın və Ermənistanın yanında durmağa hazır olduğunu bildirdi. Avropa Şurası Parlament Assambleyasının Prezidenti Teodoros Rusopulos isə Vaşinqtonda sülh sazişinin paraflanmasını parlament diplomatiyasının uğuru kimi təqdim edib və prosesin daha da möhkəmlənməsi üçün qarşılıqlı etimadın gücləndirilməsinin vacibliyini vurğulayıb. Yeri gəlmişkən, Avropa Şurasının bu tip bəyanatları xeyli müddətdir Bakı ilə soyumuş münasibətləri yenidən öz axarına qaytara bilər. Rəsmi Bakı Avropanın nüfuzlu siyasi institutları, eləcə də beynəlxalq təşkilatlarla əməkdaşlıqda həmişə maraqlı olub. Amma bir şərtlə ki, həmin təşkilatlar tərəflərə selektiv yanaşma ilə deyil, konstruktiv mövqe sərgiləsin.

*

Vaşinqton görüşünü diqqətlə izləyən əsas beynəlxalq qurumlardan biri də NATO olub. Alyansın sözçüsü Allison Hart Ermənistan və Azərbaycan arasında sülh istiqamətində əldə olunan uğurların bölgənin ümumi təhlükəsizliyinə töhfə verəcəyini vurğulayıb. Bu açıqlama NATO-nun Cənubi Qafqazda hərbi mövcudluğu olmadan belə siyasi dəstək mexanizmləri vasitəsilə təsirini artırmaq niyyətində olduğunu göstərir. Alyansın bəyanatında ABŞ rəhbərliyinin prosesdə oynadığı rola görə ona xüsusi təşəkkür ünvanlanıb. Bu isə Vaşinqtonun Ermənistan və Azərbaycan arasında vasitəçilik rolunun legitimləşdirilməsinə xidmət edən jestdir.



*

Türk Dövlətləri Təşkilatı imzalanan sənədi “tarixi inkişaf” kimi qiymətləndirməklə yanaşı, açıq şəkildə Minsk qrupunun bağlanmasını dəstəklədi. TDT-nin Baş katibi Kubanıçbek Omuraliyev bəyanatında Cənubi Qafqazda davamlı sülh, sabitlik və rifahın təmin olunması üçün Vaşinqton razılaşmasının mühüm mərhələ olduğuni vurğulayıb. Qeyd olundu ki, tərəflərin ATƏT-in Minsk qrupunun bağlanması barədə birgə müraciəti tarixi münaqişənin diplomatik formatda yekunlaşmasının rəsmi təsdiqidir. Bu mövqe həm də göstərir ki, TDT üzvü olan Azərbaycanın mövqeyini dəstəkləməklə yanaşı, regional sülhün qlobal diplomatik gündəlikdə qalmasına töhfə vermək niyyətindədir.

Vaşinqton görüşünün nəticələri daha çox TDT-nin gələcəyi baxımından vacib suallara aydınlıq gətirir. İstisna deyil ki, Vaşinqton TDT-nin regionda yeni bir gücə çevrilməsində, ən önəmlisi isə Türk NATO-su rolunu oynamasında maraqlıdır. Prinsipcə, TDT-nin daha da inkişaf etməsi və güclənməsi həm Mərkəzi Asiyanın Rusiya təsir dairəsindən çıxmasını sürətləndirəcək, həm də Yaxın Şərq ilə Rusiya arasında sədd rolunu oynayacaq.

*

Onu da qeyd edək ki, ATƏT-in Baş katibi Feridun H.Sinirlioğlu və ATƏT Parlament Assambleyasının rəhbərliyi də Vaşinqton bəyannamələrini tarixi nailiyyət kimi qiymətləndiriblər. Parlament Assambleyası rəhbərliyinin bəyanatında gələcəkdə Cənubi Qafqaz ölkələri ilə daha inklüziv və davamlı əməkdaşlıq mexanizmlərinin qurulmasının vacibliyi vurğulanıb.

***İ.HƏSƏNQALA***
***XQ***

# Rusiya itirmək istəyirsə…

(əvvəli 1-ci səhifədə)



Bəribaşdan bildirək ki, Fadeyevin dedikləri ifadə tərzi və diplomatik münasibət baxımından anlaşılmazdır. Amma ölkədə eşidilən bəzi çağırışlar var ki, onlara nəzərən Moskvanın əsl məramının nədən ibarət olduğunu söyləmək mümkündür və bu haqda sonda söz açacağıq. Hələlik isə deyək ki, cənab Fadeyevin fikirləri Vaşinqtonda yaşananlara, əldə edilmiş pozitiv razılaşmalara münasibət yox, yumşaq desək, cığallıq və qısqanclıqdır. Görünür, bu ampluanın ifadəsi nisbətən kiçik ranqlı məmura tapşırılıb. Nə bilmək olar, bəlkə Alekseyin dilə gətirdiyi biabırçılığı sonradan düzəltməyi hesablayanlar var. Ümid edək ki, var. Təxminən belə: uşaqdır, nə dediyini bilmir, danışanda sərxoş olub. Axı Rusiyada sərxoşluq adi haldır və görünür, siyasət müstəvisində də təzahürlərə malikdir.

*

Bəli, tam əminliklə demək olar ki, Fadeyevin timsalında Rusiyanın Azərbaycan–Ermənistan normallaşması müstəvisindəki proseslərə reaksiyası anlaqlı deyil. Məsələn, XİN rəsmisi deyib ki, təmsil etdiyi qurum Vaşinqton Bəyannaməsi ilə bağlı mövqeyini həmin sənədin təfərrüatları ictimaiyyətə açıqlanmayanadək bildirmir. Sən demə, mövqe təfərrüatlar açıqlandıqdan sonra bildiriləcəkmiş. Görəsən, aydın olmayan nədir? Bəyannamədə hər şey yazılıb. Digər tərəfdən, Rusiya hələlik rəsmən öz mövqeyini bəyan etmirsə, Fadeyev nə üçün danışır? Yoxsa, onun dilə gətirdikləri Mozambikin mövqeyidir?

Fadeyevin sözlərindən belə çıxır ki, Zəngəzur dəhlizi, yəni Naxçıvana yol açılarkən, Ermənistanın İranla sərhədində dayanmış Rusiya sərhədçiləri nəzərə alınmalıdır. Əlbəttə, rus hərbçiləri ordadırlarsa, hər bir halda, nəzərə alınacaqlar. Deyək ki, yol infrastrukturu ərsəyə gələrkən, toz-torpağa düşmənələri üçün şərait yaradılacaq. Rusiya sərhədçiləri ərazidə qalacaqları təqdirdə, onlara kolbasa-çörək, konfet, dönər, qamburger və süd vermək olar.

Amma Ermənistan öz ərazisində rus hərbi varlığını görmək istəməyə də bilər. Necə ki, İrəvanın Zvarnots hava limanında görmək istəmədi. Rəsmi İrəvan bəyan etdi ki, ötən illər ərzində Ermənistan hərbçiləri özləri təcrübə toplayıblar və artıq rus sərhədçilərinin köməyi olmadan da hava limanında xidmət apara bilərlər. Üstəlik, rəsmi İrəvan Ermənistan rəhbərliyi sərhədçilərinin İranla sərhəddə də dayana biləcəklərini xatırladıb. Yaxşı olar ki, cənab Fadeyev bunları düşünsün.

Bir sözlə, Zəngəzur (“Tramp yolu”) işə düşənədək ərazidə ruslar olmaya bilər və onların mövcudluqları üçün heç bir hüquqi tutacaq yeri yoxdur. Hərçənd, Fadeyev, öz aləmində, hüquq qondarmaq naminə nə isə tapır və deyir ki, regiondankənar qüvvələrin Cənubi Qafqaza cəlb edilmələri və sülh gündəmini irəli sürmələri yeni problemlər və bölücü xətlər yaratmamalıdır. Onun sözlərinə görə, Ermənistanın Avrasiya İqtisadi İttifaqına üzvlüyü və Rusiya sərhədçilərinin Sünik bölgəsindəki mövcudluqlarının nəzərə alınmasının vacibliyini rəsmi Moskva əvvəllər də bəyan edib. Fadeyev, həmçinin, dediklərini Naxçıvana yolun işlək fazasının təminatına dəstək baxımından əsaslandırmağa çalışıb. Qısaca, yəni, əgər bölgədə ruslar olmasa, yol da olmayacaq.

Birincisi, 44 günlük müharibədən sonra Türkiyə ilə birlikdə “Region region ölkələri üçündür” şüarını irəli sürüb “3+3” Regional Məşvərət Formatının yaradılmasına çalışan Azərbaycan olub və istəyinə çatıb. Amma qismən. O mənada ki, Rusiya Azərbaycan, İran, Türkiyə və Ermənistanla birlikdə həmin formatda təmsil olunsa da, ölkə mövcud təsisatı regionda problemlərin aradan qaldırılması kazusundan ayrı tutub. Həmişə elə təəssürat yaradıb ki, çətinlikləri yalnız özü həll etməlidir. Rəsmi Moskva münasibətlərinin normallaşmasını, sanki, inhisara götürmüş kimi davranıb. Normallaşmaya gəlincə isə Kreml daha çox qeyri-müəyyənliyin saxlanmasına çalışıb. Yada salaq ki, 44 günlük müharibədən sonra Rusiya rəsmilərinin Qarabağın statusu məsələsini sonraya saxlamaq kimi sayıqlamaları olmuşdu.

Bəli, Rusiya Qarabağ avantürasını qorumağa, bölgədəki separatçı rejimi saxlamağa və “Artsax” sərsəmliyi xüsusunda erməni müqəddəsliyini diri tutmağa cəhd göstərib. Cəhd göstərib ki, Ermənistan rəhbərliyi ona bunun üçün, necə deyərlər, elçi düşsün. Rəsmi İrəvan isə şirnikləndirici təkliflərdən imtina edib və Rusiyanın heç bir rıçağı qalmayıb. Nəticədə 10 noyabr 2020-ci il tarixli üçtərəfli bəyanata əsasən Qarabağda yerləşdirilmiş rus sülhməramlılarının bölgədəki ermənilərə uşaq bezləri və digər bu kimi şeylər daşımaları mənasızlaşıb. Sonra baş verənlər və Azərbaycanın öz ərazilərində hüquqi hakimiyyəti bərpa etməsi hamımızın yaxşı yadındadır və bununla əlaqədar təfərrüatlara varmaq istəməzdik.

İkinci məqam. Görəsən, Fadeyevin regiondan kənar qüvvələrin sülh gündəmini irəli sürmələrinin yeni problemlər və bölücü xətlər yaratmaları düşüncəsi nə deməkdir? Azərbaycan və Ermənistan razılığa gəlib. Razılıq ölkələrin ərazi bütövlüklərinə və suverenliklərinə hörmət prinsipi ilə təsdiqlənib. Hər iki ölkə lideri konkret sənədə imza atıb. Mövcud trayektoriyada Rusiyaya yer varmı? Əlbəttə ki, yoxdur. Amma ola bilərdi. Rəsmi Moskva şansını qaçırdı. Bunu Qarabağa status kimi köhnə klişelərə baş vurmaqla etdi, Azərbaycana qarşı yarıtmaz tərzdə davrandı. Vəziyyəti anlamaq çoxmu çətindir? Yaxşı, deyək ki, Fadeyevin gözləri zəifdir, yaxşı görə bilmir. Bəs, Rusiya XİN-də reallığı duyan bir başqası yoxdur? Yəqin yoxdur ki, departament rəsmisini qabağa veriblər, o da, loru dildə desək, danışdıqca batır.

Üçüncüsü. Fadeyev ona görə danışdıqca batır ki, Ermənistanın üzv olduğu, Rusiyanın hakim rol oynadığı Avrasiya İqtisadi İttifaqından söz açır. İndiki məqamda bu xatırlatma şantajdan başqa bir şey deyil. Axı Naxçıvana yol xüsusunda açılacaq marşrutun Ermənistan–AİI münasibətlərinə hansı mənfi təsiri ola bilər? Heç bir.

Deməli, Fadeyevin şantajı siyasi xarakterlidir. O, demək istəyir ki, Ermənistanın gəlirləri AİI müstəvisindəki əməkdaşlıqdandır və Rusiya istəsə, ölkənin mənfəətlərini minimallaşdıra və ya tamamilə heçə endirə bilər. Dolayısıyla, Moskva erməniləri çörəklə sınağa çəkəcəklərini vurğulayır. Tanış metoddur. Hazırda Rusiyadakı azərbaycanlılara münasibətdə də eyni davranış var. Məqsəd Bakıya təsir və təzyiq göstərməkdir. Amma alınmır. Ermənistana münasibətdə də alınmayacaq. Çünki Zəngəzur dəhlizi, yaxud Tramp marşrutu işə düşsə, İrəvanın əldə edəcəyi gəlir o qədər böyük olacaq ki, Moskvanın “səxavətinə” ehtiyac qalmayacaq.

Cənab Fadeyev açıqlamasında daha bir məqama toxunur. O, bilavasitə Azərbaycan, Rusiya və Ermənistan liderlərinin 2020-2022-ci illərdə imzaladıqları üçtərəfli bəyanatları xatırladır. Buna mövzuya çəpinə yanaşma da demək mümkündür. XİN rəsmisinin sözlərinə görə, ölkəsi həmin üçtərəfli bəyanatları aktual sayır, çünki tərəflərdən heç biri həmin sazişlərdən çıxdığını bəyan etməyib. Bu yerdə yada bir lətifə düşür. Lətifə belədir: ana dovşan onun balasını döymüş ayının yanına gedir və yırtıcıdan əməlini təkrarlamasını istəyir. Ayı pəncəsinə güc verdikcə, ana dovşan əl çəkmir. Üçüncü zərbədən sonra ayının bala dovşana yazığı gəlir və zərbə endirmir. Qayıdanbaş bala dovşan ayının yekun nəticədə onu yenə döydüyünü deyir və anasını heç bir tədbir görməməkdə günahlandırır. Ana dovşanın cavabı budur: ayının duxu var idi, dördüncü dəfə də səni vuraydı.

Ayı məsələsini xatırlatdıq və güman edirik, Fadeyev buna görə inciməz. Amma bir reallıq var ki, “ayılığa” öyrəşmiş Rusiya indi həmin dovşanın günündədir. Axı Ermənistan daha nə etməlidir ki, üçtərəfli bəyanatı saya salmadığını göstərsin? Bəlkə növbəti dəfə Rusiyaya şapalaq vursun? Yoxsa, Fadeyev Azərbaycanla Ermənistanın birgə açıqlama yayıb üçtərəfli bəyanatdan çıxdıqlarını bildirəcəyini gözləyir? Rusiya sənədin lakmus kağızına çevrildiyini görmür və yenə aşağılanmaq niyyətindədir? İki Cənubi Qafqaz ölkəsi Rusiyaya hörmətsizlik eləmək istəmir, Fadeyev isə faktiki olaraq, bunun üçün yalvarır. XİN rəsmisinin fikirlərini başqa cür qiymətləndirmək olmur.

Digər yandan, aydındır ki, Fadeyev Vaşinqtonda imzalanmış üçtərəfli bəyannamənin 2020-2022-ci illərin üçtərəfli bəyanat məntiqinə zidd mahiyyət daşıdığına dair subliminal mesaj verir. Amma gərək XİN rəsmisi mövqeyinə tutarlı izah versin. İzah yoxdur və ola da bilməz. Axı nə deyilsin? Rusiya Cənubi Qafqaza qoşunmu yeritsin, müharibəyəmi başlasın?

*

Müharibədən söz düşmüşkən, diplomatik davrandığını zənn edib mənasız fikirlər gündəmə gətirən Fadeyevdən fərqli olaraq, Rusiyadakı sərsəm kəsim daha konkretdir və ölkənin “niyyətini” ortaya qoyur. Söhbət işğalçılıq niyyətindən gedir. Axı “velikorus” xəstəliyinə düçar olmuş həmin kəsim üçün Sovet İttifaqı hələ dağılmayıb, çarizm də yaşayır, İvan Qroznu guruldamağından qalmır, Aleksandr Nevski monqolları diz çökdürür, I Pyotr İstanbul xəyalları qurur, ruslar Cənubi Qafqaza, guya mədəniyyət gətirir və sair.

Nə isə adını jurnalist qoyan, fəaliyyəti peşəyə həqarətdən başqa bir şey olmayan Vladimir Solovyovu, həmçinin Rusiyanın Dövlət Dumasında təmsil olunan şovinistləri yada salmağımızın məqsədi var. Solovyovdan başlayaraq, deyək ki, media təmsilçisi cildinə girmiş bu məxluq Azərbaycan əleyhinə hədyanlarını yeni müstəviyə daşıyıb.

Ümumən, Bakının Ukraynaya silah tədarükünə qoyduğu moratoriumun ləğv oluna biləcəyi ilə bağlı xəbərlər fonunda Solovyovun timsalında Rusiyanın dövlət təbliğatının ölkəmizə münasibətdə döyüşkən ritorikanı işə salması ikrah doğurur. Daha böyük ikrah doğuran məqam isə “zurnalistin” dedikləridir. O vurğulayıb ki, Cənubi Qafqazda, Ukraynada olduğunu kimi, xüsusi hərbi əməliyyat başlaya bilər. Çünki, guya, Xəzər dənizində NATO-nun hərbi bazaları yerləşdiriləcək.

Nə qədər murdar olasan ki, belə fikir səsləndirəsən? Ancaq murdar təkcə Solovyov deyil. Qeyd etdiyimiz kimi, Rusiyanın Dövlət Dumasında da belələrinə rast gəlinir. Onlardan biri – Dumanın komitə sədrinin müavini Konstantin Zatulindir. Amma hazırda sərsəmləyən başqası, daha doğrusu, Rusiya Dövlət Dumasının Regional siyasət komitəsinin üzvü Andrey Qurulevdir. O Qurulev ki, əvvəllər də bir sıra səs-küylü bəyanatlarla, o cümlədən ABŞ-a nüvə zərbəsi endirmək çağırışı ilə gündəmə gəlmişdi. İndi isə bu zəncantrop videomüraciət yayıb və Bakının Ukraynaya humanitar yardım göndərmək qərarı ilə bağlı xəbərə reaksiya verib. Qurulev bildirib ki, Rusiya Azərbaycan mallarının tədarükünə embarqo qoya bilər: “Ümumiyyətlə, Rusiya kimi böyük qonşu ilə münasibətləri korlamaq o qədər də ağıllı deyil. Əgər Rusiyada piştaxtalarda Azərbaycandan gələn mal yoxdursa, bizim üçün heç nə dəyişməyəcək, amma onlar üçün çox dəyişəcək”, - deyən parlamentari Rusiyadakı Azərbaycan diasporuna təzyiqlərin mümkünlüyünə eyham vurub, həmçinin, dolayısı ilə Solovyovun fikirlərini təkrarlayıb: “Bunu başqa cür də etmək olar. Xüsusi hərbi əməliyyat çevik anlayışdır. Rusiya Federasiyasının bütün sərhədi boyunca çevikdir”.

*

Sonda əvvəldə haqqında söz açacağımızı bildirdiyimiz məqama keçid edərək deyək ki, fayadeyevlərin, solovyovların, qurulevlərin açıqlamaları, səsləndirdikləri fikirlər Rusiyanın Azərbaycan–Ermənistan sülh prosesinə, yumşaq desək, qısqanc yanaşmasının bariz göstəriciləridir. Bu yanaşma Moskvanın Cənubi Qafqazdakı təsirlərini itirməsindən qaynaqlanır. Yəni, hay-küy salanlar belə düşünürlər. Halbuki, məsələnin qoyuluşu fərqlidir.

Rusiyanın regional inteqrasiyada sivil iştirak formaları var. Məsələ ondadır ki, ölkənin rəhbərliyi bununla razılaşmır, daha çoxuna iddia edir, imperialist təfəkkürdən, qeyri-bərabər münasibət ritorikasından əl çəkmir. Nəticə etibarilə, Kreml özünü regiondan məhrum duruma salır. Yaxşı olar ki, Rusiyada bu məqamı düşünsünlər. Düşünsünlər və anlasınlar ki, artıq hegemonluq dövrü deyil. Nə həmin dövrdür, nə də Rusiyanın əvvəlki gücü var.

Ümumən, Rusiya hərbə-zorbalıqla heç nə əldə etməyəcək. Onu da düşünmək lazımdır ki, nəyəsə güc yolu ilə nail olmağı təbliğ edən solovyovlar, zatulinlər, qurulevlər və başqaları keçmişin sərsəm təcrübəsini təkrarlamaq çağırışı səsləndirməklə, əslində, Rusiyanın düşdüyü girdab çuxurunu dərinləşdirirlər və belələrinin ölkəyə qazandırdıqları yalnız nifrətdir. Nifrət isə əslində, qazanc yox, böyük itkidir. Rusiya itirmək istəyirsə, buyursun, əlindən gələni ardına qoymasın.

***Ə.CAHANGİROĞLU***
***XQ***

# Manipulyasiyaların köhnə ustası – Zatulin



**Oğuz Arif,**
**hüquqşünas**



Rusiyanın siyasi səhnəsində uzun illərdir ermənipərəst və anti-Azərbaycan mövqeyi ilə tanınan Dövlət Dumasının deputatı Konstantin Zatulin yenə gündəmdədir. Bu dəfə o, yenidən köhnə, çoxdan iflasa uğramış ritorikasına qayıdaraq, keçmiş hadisələri təhrif etməklə özünü “haqlı tərəf” kimi təqdim etməyə çalışır.

Zatulin müxtəlif bəyanatlarında Rusiyanın, guya uzun illər ərzində Ermənistan və Azərbaycan arasında “ədalətli sülh” yaratmaq istədiyini iddia edir. Lakin bölgəni yaxından izləyən hər kəs yaxşı bilir ki, Moskvanın “ədalət” anlayışı həmişə öz maraqlarına xidmət edib. Qarabağ məsələsində də Kremlin siyasəti, əslində, tərəflər arasında sabit sülhün deyil, idarəolunan gərginliyin qorunmasına yönəlib.

Onun açıqlamalarında özünə sərf edən tarix versiyasını qabartması, faktları dəyişdirməsi və günahı başqalarının üzərinə yıxması artıq yeni deyil. Bu yanaşma, xüsusilə müharibə və postmüharibə dövründə, Rusiyanın bölgədəki real məqsədlərini açıq göstərdi.

Zatulin, Ermənistanın “tarixi yaddaşı”, “dəyərləri” və “milli faciələri” barədə danışarkən, guya bu mövzuları “satışa çıxarmadığını” iddia edir. Amma reallıq başqadır: Moskva bu “tarixi həqiqət”i dəfələrlə siyasi və iqtisadi maraqlarına uyğun şəkildə alver mövzusuna çevirib. Ermənistandan istifadə edərək həm regiondakı geosiyasi təsirini qoruyub, həm də Qərb və Türkiyə ilə münasibətlərdə özünü “vazkeçilməz vasitəçi” kimi təqdim edib.

Zatulin və onun kimi siyasətçilər illərlə Ermənistanın zəifliyindən və Qarabağ kartından istifadə edərək regionda balansı öz xeyirlərinə qurmağa çalışıblar. Bu siyasət həm Azərbaycanın ərazi bütövlüyünə qarşı açıq təhdid, həm də sülh prosesinə əngəl olub.

Bu gün isə, dəyişən reallıqlar qarşısında Zatulin köhnə ritorikasını diriltməyə çalışır, amma onun manipulyasiyaları nə Ermənistanı əvvəlki kimi idarə edə, nə də Azərbaycanın mövqeyini sarsıda bilir.

Zatulin artıq uzun illərin köhnəlmiş siyasi texnologiyalarına güvənir. Amma bölgədə yeni reallıqlar formalaşıb: Azərbaycan qalib dövlət kimi söz sahibidir, Ermənistan isə Moskvanın himayəsinə kor-koranə güvənməyin nəticələrini yaşayır. Bu şəraitdə Zatulin kimilərin manipulyasiyaları yalnız tarixi fiasko kimi yadda qalacaq.

# Pakistanda hərbçilərimizi Azərbaycan dilində salamladılar



**Azərbaycan hərbçiləri Pakistanın paytaxtı İslamabadda ilk dəfə keçirilən “Müstəqillik günü” və “Haqqın qələbəsi”nə həsr edilmiş hərbi paradda iştirak ediblər.**

Hərbçilərimizin paradda keçidi maraqlı anlarla yadda qalıb. Belə ki, keçid zamanı tədbirin şərhçiləri komandolarımızı “Pakistana xoş gəlmisiniz” və “Yaşasın Pakistan–Azərbaycan birliyi və qardaşlığı” şüarları ilə salamlayıb.

Hərbçilərimizin ana dilimizdə qarşılanması anının görüntüləri maraqla qarşılanıb.

***XQ***

# Dövlət borcu ÜDM-in 19,6 faizi səviyyəsindədir



**(əvvəli 1-ci səhifədə)**

Ümumi dövlət borcunun strukturuna nəzər saldıqda, borcun əsas hissəsi – 17 milyard 177,4 milyon manat və ya 66,8 faiz – daxili borcun payına düşür. Bu, dövlətin maliyyələşmədə daha çox daxili resurslardan istifadə etdiyini göstərir. Belə yanaşma valyuta risklərini minimuma endirir, borcun milli valyutada formalaşmasını gerçəkləşdirir və xarici bazarlardan asılılığı azaldır. Xarici dövlət borcu isə 5 milyard 10,7 milyon dollar (manat ekvivalentində ümumi borcun 33,2 faizi) təşkil edir.

Xarici borcun həcminin nisbətən az olması ölkənin beynəlxalq maliyyə bazarlarında yüksək riskə məruz qalmamasını reallaşdırır. Bununla belə, xarici borc valyuta məzənnəsi dalğalanmalarına həssasdır və xidmət xərcləri beynəlxalq iqtisadi vəziyyətdən asılıdır. Qeyd edək ki, hesabat dövründə dövlət borcuna xidmət üçün büdcədən 1 milyard 27,5 milyon manat vəsait yönəldilib. Bu məbləğin 328,7 milyon manatı daxili dövlət borcu üzrə faiz ödənişlərinə, 698,8 milyon manatı isə xarici dövlət borcunun xidmətinə sərf olunub. Xarici borca xidmətin tərkibində əsas borcun ödənişi 498,5 milyon manat, faiz ödənişləri isə 200,3 milyon manat təşkil edib.

Bu rəqəmlər göstərir ki, borc xidmətinin büdcə yükü nəzarət altında olsa da, xarici borc üzrə ödənişlər daxili borca nisbətən daha yüksəkdir. Bunun səbəbləri arasında xarici kreditlərin daha uzunmüddətli və valyuta əsasında götürülməsi, faiz dərəcələrinin beynəlxalq maliyyə bazarlarına uyğun dəyişməsi mühüm rol oynayır. Bir çox inkişaf etməkdə olan ölkələrdə dövlət borcunun ÜDM-ə nisbəti 50 faizdən yuxarıdır. Məsələn, bölgədə bəzi ölkələr bu göstəricini 60-70 faiz səviyyəsində qoruyur ki, bu da maliyyə sabitliyi üçün riskli hesab olunur. Azərbaycanın 20 faizə yaxın göstəricisi isə fiskal intizamın, ehtiyatlı borclanma siyasətinin və neft-qaz gəlirlərindən məqsədyönlü istifadənin nəticəsidir.

Mövcud vəziyyət göstərir ki, Azərbaycan borc idarəçiliyində 3 əsas istiqamətə diqqət yetirməlidir:

– daxili borc bazarının inkişafı – yerli istiqraz bazarının genişləndirilməsi, uzunmüddətli maliyyə vasitələrinin tətbiqi daxili resurslardan daha səmərəli istifadəyə imkan verəcək;

– xarici borcun optimallaşdırılması – valyuta risklərini azaltmaq üçün daha çox milli valyutada və ya valyuta gəlirlərinə uyğun şərtlərlə borclanma siyasəti həyata keçirilməlidir;

– borc yükünün iqtisadi artımla balanslaşdırılması – dövlət borcunun ÜDM-ə nisbətinin aşağı saxlanılması üçün qeyri-neft sektorunun inkişafı prioritet olmalıdır.

Bu məqamda onu da qeyd edək ki, son illərdə ölkədə istər daxili, istərsə də xarici borcun qarşılanması üçün makroiqtisadi sabitliyin qorunması, qiymətlərin aşağı və sabit olması məqsədilə bir sıra layihələr həyata keçirilib. Bu sahədə idarəetmənin institusional çərçivəsi təkmilləşdirilib və maliyyə bazarlarının səmərəli fəaliyyəti təmin edilib. Belə bir şəraitdə isə iqtisadi proqnozlar özünü doğruldub, ən başlıcası isə əhalinin yığımları dəyərsizləşmədən xilas olunub və investisiya artımı reallaşıb.

Ölkədə daxili və xarici borcların qarşılanmasından bəhs edərkən, bir məsələni də xatırlatmaq istərdik. Belə ki, son illər respublikamızın daxili və xarici dövlət borcunun idarə edilməsi istiqamətində ölkə başçısının rəhbərliyi ilə davamlı tədbirlər həyata keçirilib. “Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası” və “Azərbaycan Respublikasında dövlət borcunun idarə edilməsinə dair orta və uzun müddət üçün Strategiya”da qarşıya qoyulan vəzifələr uğurla reallaşdırılıb.

Beləliklə, yuxarıda qeyd edilənlər deməyə əsas verir ki, Azərbaycanın dövlət borcunun hazırkı səviyyəsi beynəlxalq standartlara görə təhlükəsizdir. Lakin qlobal maliyyə bazarlarındakı dəyişkənlik, neft qiymətlərinin dalğalanması və geosiyasi risklər nəzərə alınaraq, ehtiyatlı və çevik borc idarəçiliyi gələcək illərdə də davam etdirilməlidir. Bu, həm makroiqtisadi sabitliyin qorunmasına, həm də iqtisadi artım üçün maliyyə dayanıqlığının təmin olunmasına xidmət edəcək.

# 7 aylıq ÜDM – 72,4 milyard manat!




**Dövlət Statistika Komitəsinin məlumatına görə, 2025-ci ilin 7 ayında ölkədə 72 milyard 430 milyon manatlıq və ya əvvəlki ilin eyni dövrü ilə müqayisədə 0,9 faiz çox ümumi daxili məhsul (ÜDM) istehsal olunub. İqtisadiyyatın neft-qaz sektorunda əlavə dəyər 3,3 faiz azalıb, qeyri-neft-qaz sektorunda 3,1 faiz çoxalıb. Əhalinin hər nəfərinə düşən ÜDM isə 7 min 80 manata bərabər olub.**

ÜDM istehsalının 35 faizi sənaye, 10,1 faizi ticarət, 7 faizi nəqliyyat, 6,3 faizi kənd təsərrüfatı, 6 faizi tikinti, 2,8 faizi turistlərin yerləşdirilməsi, 1,8 faizi informasiya və rabitə sahələrinin, 21,1 faizi digər sahələrin payına düşüb, məhsula və idxala xalis vergilər isə ÜDM-in 9,9 faizini təşkil edib.

Qeyd edək ki, hazırda ÜDM-in artımına qeyri-neft-qaz sektorunun inkişafı müsbət təsir göstərir. Başqa sözlə, respublikada artımın əsas mənbəyini bu sektor təşkil edir. 2025-ci ilin birinci yarımilində ölkənin neft-qaz sektoru üzrə daxilolmaların 9 milyard 527 milyon manata yüksəlməsi də (proqnozdan 248 milyon manat çox) bunun bariz ifadəsidir.

Dövlət Neft Fondundan transfert 7 milyard 241 milyon manat, vergi orqanlarının xətti ilə daxilolmalar 2 milyard 286 milyon manat olub. “Şahdəniz” yatağı üzrə mənfəət vergisi 1 milyard 204 milyon manata, Dövlət Neft Şirkətinin ödədiyi müvafiq vergilər 898 milyon manata, Azərbaycan Beynəlxalq Əməliyyat Şirkətinin mənfəət vergisi isə 185 milyon manata yqksəlib.

Şübhəsiz ki, qeyri-neft-qaz sektorunun inkişafında xarici investisiyaların, qabaqcıl texnologiyaların və idarəetmə təcrübəsinin də rolu mühüm önəm daşıyıb. Ölkədə bərqərar olan siyasi və makroiqtisadi sabitlik, investorların hüquqlarının etibarlı qorunması, əlverişli coğrafi mövqe, zəngin təbii ehtiyatlar, yüksək ixtisaslı işçi qüvvəsi Azərbaycanı xarici sərmayələr üçün ən cəlbedici ölkələrdən birinə çevirib.

Yeri gəlmişkən, “S&P Global” Beynəlxalq Reytinq Agentliyinin bildirdiyinə görə, bu il respublikada ÜDM-in nominal həcmi 74,98 milyard dollar (127,466 milyard manat) təşkil edəcək və gələn il 77,86 milyard dollara (132,362 milyard manat) qədər artacaq.

Agentlik, eyni zamanda, 2026-cı ilin sonunadək ölkədə ÜDM-in real artımını 2 faiz səviyyəsində proqnozlaşdırıb, əhalinin hər nəfərinə düşən ÜDM-in 2025-ci ildə 7 min 277 dollara çatacağını, 2026-cı ildə isə 7 min 511 dollara yüksələcəyini bildirib.

# Səngəçal terminalının enerji sistemi yeniləşdirilir

## *“Şəfəq” günəş layihəsi hesabına obyekt emissiyasız işləyəcək*

**Xəbər verildiyi kimi, bu il iyunun ilk günlərində keçirilən Bakı Enerji Həftəsi çərçivəsində investorlar Səngəçal terminalının elektrikləşdirilməsi layihəsini (STEL) təsdiqləyiblər. Layihəyə əsasən, dünyanın ən iri neft-qaz ixracı mərkəzlərindən sayılan Səngəçal terminalının elektrik təsərrüfatı yenidən qurulacaq. Aparılacaq işlər terminalın “AzərEnerji” ASC-nin idarə etdiyi dövlət elektrik şəbəkəsinə qoşulmasını təmin edəcək. Bunun üçün terminal ərazisinin həm daxilində, həm də kənarda yeni obyektlər, o cümlədən yeni 220/110 kilovoltluq elektrik yarımstansiyası inşa ediləcək.**

Qeyd edək ki, STEL layihəsi Cəbrayıl rayonunda 240 meqavatlıq günəş elektrik stansiyasının tikintisini nəzərdə tutan “Şəfəq” günəş layihəsi ilə “virtual enerji ötürmə mexanizmi” adlanan yeni kommersiya modeli vasitəsilə sıx əlaqəlidir. Bu mexanizmə əsasən, “Şəfəq” stansiyasında istehsal ediləcək təmiz elektrik enerjisi Cəbrayıl rayonunun ərazisində “AzərEnerji” ASC-yə təhvil veriləcək. “AzərEnerji” isə sonra eyni həcmdə elektrik enerjisini Bakı yaxınlığında yerləşən Səngəçal terminalına ötürəcək. Hazırkı proqnozlara və planlara əsasən, “Şəfəq” və STEL layihələri birlikdə Səngəçal terminalının gələcək istismar dövründə terminal əməliyyatlarından yaranan emissiyaların, təxminən, 50 faiz azaldılmasına imkan yaradacaq.



Səngəçal terminalının elektrikləşdirilməsinin müfəssəl mühəndis-layihələndirmə və təchizat xidmətlərini nəzərdə tutan müqavilə BP şirkəti ilə SOCAR-KBR birgə müəssisəsi arasında imzalanıb. Müqavilə elektrik şəbəkəsindən enerjinin ötürülməsi və fasiləsiz enerji təminatı üçün qoruma mexanizmini təmin etmək məqsədilə Səngəçal terminalı ərazisində bir sıra yeni avadanlıqlar və mövcud obyektlərdə aparılacaq dəyişikliklər üçün mühəndis-layihələndirmə və təchizat üzrə dəstək xidmətlərini əhatə edir. STEL-in icrası üçün mühüm bir mərhələ sayılan bu müqavilə 7 milyon funt sterlinq dəyərindədir.

Ümumilikdə, 230 milyon dollar dəyərində olan STEL layihəsi artıq tikinti mərhələsinə qədəm qoyub. İki mərhələdə həyata keçiriləcək işlərin isə 2028-ci ildə başa çatdırılacağı planlaşdırılır. STEL layihəsi Səngəçal terminalının operatoru olan BP şirkəti tərəfindən həyata keçiriləcək və idarə ediləcək. Layihə terminalın dövlət elektrik şəbəkəsinə qoşulmasını təmin edəcək. Bunun üçün terminal ərazisinin həm daxilində, həm də ondan kənarda yeni obyektlər, o cümlədən yeni 220/110 kV-luq elektrik yarımstansiyası inşa ediləcək. Hazırda terminalın elektrik enerjisinə olan tələbatı ödəmək üçün 7 qaz turbinindən istifadə edilir. Elektrikləşdirilmədən sonra turbinlər mərhələli şəkildə demontaj olunacaq ki, bu da istifadə edilməyən yanacaq qaz həcmlərinin ixraca yönəldilməsi ilə yanaşı, BP-nin Azərbaycanda idarə etdiyi ən böyük obyekt sayılan terminalın əməliyyatlarından yaranan emissiyaların azaldılmasına imkan verəcək.

Yeri gəlmişkən, ümumilli lider Heydər Əliyevin müəllifi olduğu yeni neft strategiyasının təntənəsi olan Səngəçal terminalı 28 ilə yaxındır ki, Azərbaycanın neft sənayesinə xidmət göstərir. Xəzərin Azərbaycan sektorunda quraşdırılmış nəhəng qurğuların, ən müasir texnologiyaların imkanları və fədakar neftçilərin gərgin əməyi sayəsində hasil edilən karbohidrogenlər sualtı boru kəmərləri vasitəsilə məhz bura nəql olunur.

Səngəçal terminalı “Əsrin müqaviləsi” çərçivəsində inşa olunmuş ilk mühüm infrastruktur obyektlərindəndir. İntensiv tikinti-quraşdırma işləri nəticəsində terminal “Çıraq” yatağında hasilatın başlanması ilə eyni vaxtda istismara hazır vəziyyətə gətirilib. 1997-ci il noyabr ayının 12-də ulu öndər Heydər Əliyevin iştirakı ilə Səngəçal terminalının təntənəli açılış mərasimi keçirilib. Bununla da, Azərbaycan neftinin Bakı–Novorossiysk ixrac boru kəməri ilə Şimal istiqamətinə ixracına başlanılıb.

Ötən illərdə Səngəçal terminalı bir çox əlamətdar hadisələrə şahidlik edib. Belə ki, 2002-ci il sentyabrın 18-də ulu öndər Heydər Əliyevin, eləcə də Türkiyə və Gürcüstanın dövlət başçılarının iştirakı ilə burada üçüncü minilliyin nəhəng mühəndis qurğusu olan BTC-nin təməli qoyulub. 2005-ci ilin mayın 25-də isə Azərbaycan Prezidenti İlham Əliyevin, həmçinin Gürcüstan və Türkiyənin dövlət başçılarının iştirakı ilə terminaldan xam neftin BTC-yə vurulmasına başlanılıb. Xəzərin Azərbaycan sahilindən başlayaraq Avropanın dərinliklərinədək uzanan 3500 kilometrlik Cənub Qaz Dəhlizinin də təməli 2014-cü il sentyabrın 20-də məhz Səngəçal terminalında qoyulub. 2018-ci il mayın 29-da isə terminal bu nəhəng layihənin rəsmi açılış mərasiminə ev sahibliyi edib. Hər iki tədbirdə Azərbaycan Prezidenti İlham Əliyev və Avropanın energetika sahəsinə rəhbərlik edən şəxslər iştirak ediblər.

Müasir sənaye şəhərciyini xatırladan Səngəçal terminalında xam neftin qəbulu üçün nəhəng çənlər, baş nasos stansiyası, separatorlar, emal qurğuları və idarəetmə məntəqəsi fəaliyyət göstərir. Eyni zamanda, bura fiber-optik rabitə kabelləri, sahildən 187 kilometr məsafədə yerləşən dəniz yataqlarından neft və qaz kəmərləri çəkilib. Ümumilikdə, dənizdəki qurğulardan terminala 8 müxtəlif boru kəməri daxil olur və buradan da eyni sayda xətt çıxır. Onlar müxtəlif marşrutlara istiqamətlənməklə Azərbaycanın yüksək keyfiyyətli xam neftini və qazını dünya bazarlarına nəql edir.

# OPEC illik hasilatı sabit saxlayıb

**Neft İxrac Edən Ölkələr Təşkilatı (OPEC) 2025-ci ildə qlobal neft tələbatını ötən ay səviyyəsində – gündə 1,3 milyon barel (b/g) həcmində saxlayıb. Mütləq ifadə ilə cari ildə bu göstərici 105 milyon b/g-yə çatacaq. Bu barədə məlumat təşkilatın aylıq hesabatında yer alıb.**

Hesabatda qeyd olunur ki, 2026-cı ildə bu göstərici artaraq 1,4 milyon b/g-yə çatacaq. Neftin istehlakı isə ötən ayın proqnozu ilə müqayisədə sutkada 100 min barel artacaq. Düzəliş Avropa, Amerika, Yaxın Şərq və Afrika ölkələrində iqtisadi artım




gözləntilərinin yaxşılaşması ilə əlaqədardır. Tələbatın əsas artımı isə Hindistanla bağlı olacaq. Mütləq ifadə ilə yanacağa tələbat gələn il sutkada 107 milyon barel təşkil edəcək.

OPEC 2025-ci ilin iyul ayında Azərbaycanda gündəlik neft hasilatı üzrə göstəriciləri də açıqlayıb. Bildirilib ki, ötən ay ölkəmizdə sutkada orta hesabla 462 min barel neft hasil olunub ki, bu da iyun ayının göstəricisi ilə müqayisədə 1000 barel azdır. Qurumun hesabatına əsasən, bu ilin ikinci rübündə Azərbaycanda gündəlik neft hasilatı orta hesabla 462 min barel səviyyəsində olub. Bu da birinci rübün göstəricisi (467 min barel) ilə müqaisədə 5 min barel azdır.

Sənəddə qeyd olunub ki, ötən il Azərbaycanda gündəlik neft hasilatı orta hesabla 482 min barel səviyyəsində olub. Bu isə 2023-cü ilin göstəricisi (504 min barel) ilə müqayisədə 22 min barel azdır.

Xatırladaq ki, “OPEC plyus” (OPEC və təşkilata daxil olmayan ölkələri əhatə edən neft istehsalının azaltması üzrə təşəbbüs) ölkələri nazirlərinin gəldiyi razılaşmaya əsasən, 2026-cı ilin sonunadək Azərbaycanın hasilat kvotası gündəlik 551 min barel təşkil edəcək. Beləliklə, ölkəmiz bu ilin iyul ayında “OPEC plyus” çərçivəsində kvotadan 89 min barel geridə qalıb.

***Səhifəni hazırladılar:***
***Vaqif BAYRAMOV,***
***Mirbağır YAQUBZADƏ***
***XQ***

# Azərbaycana qlobal dəstək qazandıran Vaşinqton görüşləri

**Avqustun 8-də beynəlxalq aləm dünyanın 1 nömrəli ofisi sayılan Ağ evdə ABŞ Prezidentinin dilindən Azərbaycan Prezidentinə müraciətlə eşitdi: "Siz böyük lidersiniz!", "Siz gözəl danışıq aparırsınız", "Xalqınız böyük xalqdır", "Siz möcüzəyə imza atdınız", "Mənim Sizin üçün hədiyyəm var... Sizə daha bir hədiyyəm var. Bu, Ağ evin rəmzi açarıdır. Mən bunu nadir hallarda təqdim edirəm". Bu səmimi və heyranedici sözlər bir anda bütün dünyaya yayılıb xalqımız və onun lideri barədə təsəvvürlərə yeni miqyas və mötəbər məzmun gətirdi. Əlbəttə, dostlar sevindi, düşmənlər məyus oldu.**



Dünyanın ən qüdrətli dövlətinin rəhbəri, ABŞ-ın 47-ci Prezidenti Donald Trampın ilk dəfə görüşdüyü və qısa müddətdə apardığı dialoq çərçivəsində xarizması, diplomatik gedişləri, dərin və məzmunlu fikirləri ilə onu heyran edən Prezident İlham Əliyevi dünyanın böyük lideri kimi təqdim etməsi Azərbaycana, onun müdrik rəhbərinə verilən ən yüksək dəyər və ehtiram idi. Donald Trampın özünün də dediyi kimi, yalnız nadir hallarda təqdim edilən Ağ evin rəmzi açarının dövlətimizin başçısı İlham Əliyevə hədiyyə edilməsi göstərdi ki, Azərbaycan Prezidenti ABŞ liderinin ən dəyərli qonaqlarından biridir.

Ağ ev rəhbərinin dünyanın siyasi xəritəsində kiçik bir məkan kimi görünən Cənubi Qafqaz ölkəsinin lideri barədə səsləndirdiyi yüksək fikirlər İlham Əliyevin dünyaşöhrətli siyasətçi, vədinə sadiq lider, etibarlı tərəfdaş, sözü imzası qədər keçərli Prezident olduğunu bir daha təsdiqlədi. Ümumiyyətlə, Prezident İlham Əliyevin ABŞ lideri Donald Trampın dəvəti ilə bu ölkəyə işgüzar səfəri Bakı–Vaşinqton münasibətlərinin inkişafında çox önəmli addım, mühüm tarixi hadisə oldu. Gerçək olan budur: ikitərəfli münasibətlərdə artıq yeni əməkdaşlıq və strateji tərəfdaşlıq səhifəsi açılır.

Səfər çərçivəsində iki ölkə arasında imzalanan mühüm sənəd də tariximizə yeni abzasdan yazılmış oldu. Çünki Strateji Tərəfdaşlıq Xartiyasının hazırlanması üçün Strateji İşçi Qrupunun yaradılmasına dair memorandumun imzalanması, həqiqətən, böyük gələcəyə qapı açdı. Həmin sənəddə təsbit edilən yeni əməkdaşlıq istiqamətləri (qarşılıqlı sərmayə qoyuluşu, energetika, nəqliyyat, bağlantılar, tranzit, təhlükəsizlik, süni intellekt, hərbi sahə) ölkəmizin qarşısında nə qədər böyük imkanlar açıldığını göstərir. Münasibətlərin bu geniş spektri Azərbaycan üçün olduqca önəmli dividentlər vəd edir.

Etiraf edək ki, Azərbaycan hər zaman ABŞ ilə uğurlu diplomatik münasibətlər qurmaqda maraqlı olub. İki dövlət arasında tərəfdaşlığın 33 ildən artıq tarixi var. Bu illər ərzində ölkələrimiz arasında bərabərlik, qarşılıqlı hörmət və enerji təhlükəsizliyi, sülhməramlı əməliyyatlar, terrorla mübarizə və digər sahələr daxil olmaqla uğurlu əməkdaşlıq ənənələri formalaşıb. İki ölkə arasında, ilk növbədə, siyasi əlaqələr dinamik olaraq inkişaf edir. ABŞ Azərbaycanın müstəqilliyini 25 dekabr 1991-ci ildə tanıyıb, diplomatik münasibətlər isə 28 fevral 1992-ci ildə qurulub. Azərbaycanın Vaşinqtonda səfirliyi 6 mart 1992-ci ildən, bu dövlətin isə Bakıda səfirliyi 16 mart 1992-ci ildən fəaliyyət göstərir.

İndiki Vaşinqton görüşünədək Azərbaycan Respublikası ilə Amerika Birləşmiş Ştatları arasında 90-a yaxın sənəd imzalanmış və genişmiqyaslı əməkdaşlıq üçün müvafiq normativ-hüquqi baza yaradılmışdı. Lakin bundan öncəki Bayden–Blinken administrasiyası dönəmində, sanki, bu irəliləyiş dondurulmuşdu. Əksinə, ABŞ rəhbərliyi Ermənistanın və bu ölkədəki erməni lobbi-diasporunun bədxah yalanlarına uyaraq işğalçı ölkəyə dəstəyini nümayiş etdirir, Azərbaycana qarşı ikili standartlar siyasətini yürüdürdü. Bayden administrasiyasının məqsədi, sanki, məhz Azərbaycanı qaralamaq, gözdən salmaq idi.

Lakin Azərbaycan bütün bu təzyiqlərin qarşısında sınmadı, ləyaqətini itirmədi, milli maraqlarından bir addım da geri çəkilmədi. Elə buna görə də Prezident İlham Əliyev Vaşinqton görüşündən sonra yerli televiziya kanallarımıza verdiyi müsahibədə bu soyuq münasibətə toxunaraq əvvəlki administrasiya dövründəki 4 ili "itirilmiş zaman" kimi qiymətləndirdi.

ABŞ səfərində Prezident İlham Əliyevin tarixi uğurlarından biri də 32 illik bədnam "Azadlığı Müdafiə Aktı"na 907 saylı düzəlişin icrasını dayandıran sənədin imzalanması oldu. Xatırladaq ki, torpaqlarımızın Ermənistan tərəfindən işğalının davam etdiyi bir dövrdə ABŞ Konqresi 1992-ci ildə Azərbaycanın, guya, Ermənistana "blokada" tətbiq etməsini bəhanə gətirərək, ölkəmizə dövlət yardımı göstərilməsini qadağan edən qanun qəbul etmişdir. Bayden–Blinken administrasiyası Əfqanıstan əməliyyatları başa çatan kimi nankorcasına 907 saylı düzəlişə yenidən can vermiş, bu qadağadan Azərbaycana qarşı təzyiq vasitəsi kimi istifadə etməyə çalışmışdır.

Düzdür, hazırda Azərbaycan nəinki yardıma möhtacdır, özü ehtiyacı olan ölkələr əl tutur. Yəni iqtisadi cəhətdən qüdrətli donor ölkəyə çevrilən Azərbaycanın xarici dəstəyə, yardıma ehtiyacı yoxdur. Ona görə də Prezident Trampın bu qərarı təkanverici xarakter daşımaqla yanaşı, ədalətin bərpası, ABŞ liderinin Azərbaycana dostluq münasibətinin ifadəsidir.

Vaşinqton görüşünün ən mühüm nəticələrindən biri də Azərbaycan – Ermənistan sülh gündəliyi ilə bağlı Birgə Bəyannamənin imzalanması oldu. ABŞ Prezidenti Donald Trampın iştirakı ilə Prezident İlham Əliyev və baş nazir Nikol Paşinyan arasında Vaşinqton görüşünün yekunu olaraq imzalanan razılaşma sənədində Cənubi Qafqazda sülh və sabitliyin bərpası ilə bağlı mühüm məsələlər yer aldı.

Bəyannamədə ATƏT-in Baş katibinə Minsk qrupunun ləğvinə dair birgə müraciət edilməsi təsdiqlənir. Eyni zamanda, Azərbaycan və Ermənistan arasında dövlətlərarası münasibətlərin və sülhün qurulmasına dair sazişin mətni paraflanandan sonra imzalanma və ratifikasiyaya nail olmaq üçün növbəti addımların zəruriliyi bildirilir. Yəni yekun sülh sazişinin imzalanması üçün əsas tələblərdən biri – Ermənistan Konstitusiyasının dəyişdirilməsinin zəruriliyi təsdiq olunur.

Vətən müharibəsindən sonra Prezident İlham Əliyev dəfələrlə bəyan etmişdi ki, Azərbaycanın əsas hissəsinin Naxçıvana quru yolla maneəsiz keçidi təmin edilməlidir. Dövlət başçısının bu tələbi də Ermənistan tərəfindən qəbul edildi. Belə ki, imzalanmış Birgə Bəyannamədə ölkəmizin əsas hissəsi ilə Naxçıvan arasında maneəsiz gediş-gəliş təsdiq olundu. Beləliklə, Zəngəzur dəhlizi ("Tramp yolu") də reallaşır.

Ümumiyyətlə, Prezident İlham Əliyevin ABŞ-a səfəri siyasi və diplomatik sahədə bir neçə tarixi dönüş nöqtəsini özündə birləşdirir. Bunlar qarşılıqlı münasibətlərin strateji çərçivəyə yüksəldilməsi, barış və sülhün mümkünlüyü üçün Qafqazda yeni reallıqların yaranması, Azərbaycanın tranzit və enerji imkanlarının genişlənməsi perspektivləri, regionda geosiyasi təsirin diversifikasiyasıdır. Əlbəttə ki, bu addımlar həm Azərbaycan, həm də region üçün təhlükəsiz, sabit, inkişafyönümlü bir gələcək deməkdir.

Bütün bunlar, təbii ki, Prezident İlham Əliyevin tarixi uğuru kimi qiymətləndirilməlidir. Çünki Azərbaycan müdrik, müstəqil siyasət yürüdən Prezidentinin qlobal liderliyi ilə bütün hədəflərinə nail olur. 2020-ci il Vətən müharibəsi nəticəsində Azərbaycan öz torpaqlarını azad etdi və Ermənistan kapitulyasiya aktı imzalamağa məcbur oldu. Bundan sonra Azərbaycan qələbənin möhkəmləndirilməsi yönündə, "Qisas əməliyyatı" da daxil olmaqla, bir neçə lokal xarakterli əməliyyat keçirərək Ermənistan ordusunun qalıqlarını, qeyri-qanuni erməni silahlı dəstələrini nəzarətə aldı, Laçında sərhəd keçid məntəqəsinin qurulmasına nail oldu. 2023-cü ildə Müzəffər Ali Baş Komandan İlham Əliyevin əmri ilə ordumuz 24 saatlıq antiterror tədbirləri ilə Azərbaycanın tam suverenliyini bərpa etdi.

Onu da deyə bilərik ki, son 80 ildə dünyada Azərbaycan kimi tam, mütləq qələbə qazanan ölkə olmayıb. Bir sözlə, müharibənin qalibi olmaqla yanaşı, sülh gündəliyinin müəllifi məhz Prezident İlham Əliyevdir. 2022-ci ilin əvvəlində sülh müqaviləsinin əsasını təşkil edən Azərbaycan 5 prinsipi Ermənistana təqdim etdi. Son 22 ilə Azərbaycanı tarixinin ən qüdrətli dövlətinə çevirən, 30 illik müharibəni 44 günə, 200 illik münaqişəni cəmi 5 ilə qədər zaman kəsiyində həll etmiş Prezident İlham Əliyev hər bir azərbaycanlının qəlbində əbədi heykəlini ucaldıb.

Avqustun 8-də ABŞ-da yaşanan tarixi gerçəkliklər həm də Prezident İlham Əliyevin bir zamanlar ulu öndər Heydər Əliyevin başlatdığı prosesi zəfərlə yekunlaşdırdığının təsdiqi oldu. Bu proses Cənubi Qafqaz üçün çox önəmli tarixi məsələdir. Ağ Evdə paraflanan sülh sazişi artıq bölgəyə sülh gətirir. Prezident İlham Əliyevin müəllifi olduğu bu sülh sazişi bölgədə yeni reallıqlar yaradacaq.

İlk növbədə Avropa İttifaqının xüsusi missiyası bölgəni tərk edəcək. Naxçıvanla quru yolumuz bərpa ediləcək. 40 kilometrlik dəmir yolu çəkiləcək. Bununla da Azərbaycanın iki hissəsinin birləşdirilməsi prosesi reallaşacaq. Bu da dövlət başçısı İlham Əliyevin siyasi hakimiyyəti dövründə reallaşacaq tarixi nailiyyətlər sırasına yazılacaq. Zəngəzur dəhlizinin açılması ilə Azərbaycan türk dünyasına növbəti töhfəsini vermiş olacaq.

İqtisadi maraqların mövcud olduğu ərazidə təbii ki, təhlükəsizlik ən önəmli məsələ olacaq. Bu da açıq-aydın göstərir ki, Cənubi Qafqaz, ümumilikdə, sabitlik adasına çevriləcək. Bütün bunlar Prezident İlham Əliyevin siyasətinin hər zaman prioriteti olub. Nəyi nə zaman edəcəyini hər kəsdən yaxşı bilən, dediyi sözü, verdiyi vədi mütləq şəkildə gerçəkləşdirən cənab İlham Əliyev adını regionun ümumi tarixinə qızıl hərflərlə yazdırmış olacaq.

Bu gün İlham Əliyev şəxsiyyətinə, liderliyinə geosiyasi, geoiqtisadi miqyasda nəzər yetirsək görərik ki, o, təkcə Azərbaycanın, Qafqazın alternativsiz lideri deyil, o, ümumiyyətlə, dünya miqyasında tanınan qlobal liderliyi etiraf olunan siyasətçidir. Elə bir beynəlxalq və mötəbər toplantı yoxdur ki, Azərbaycan Prezidenti həmin tədbirlərə dəvət edilməsin və orada müasir dövrün çağırışları, mövcud problemlərini həlli yolları barədə fikirlər səsləndirməsin, təkliflərini irəli sürməsin.

Yəni İlham Əliyev təkcə bütün regional məsələlərdə deyil, mahiyyətindən asılı olmayaraq, dünya miqyasında baş verən qlobal hadisələr zamanı qətiyyətli mövqe nümayiş etdirir. Bir sözlə, əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuş və hər kəslə öz milli maraqlarına əsaslanan münasibət qurmağa yönəlmiş çoxtərəfli xarici siyasət kursu ilə Azərbaycanın nüfuzunu getdikcə yüksəldən dünya şöhrətli lider İlham Əliyevin Vaşinqtonda Prezident Donald Tramp tərəfindən ən əziz qonaq kimi qəbul edilməsi, böyük lider adlandırılması, nadir hədiyyəyə layiq görülməsi onun rəhbərlik qabiliyyətinin, siyasi nüfuzunun və qlobal miqyaslı rolunun qürurverici göstəricisidir. Bu, ABŞ superdövlətinin Azərbaycana, onun Prezidentinə göstərdiyi sayğı, etimad və dəstəyinin ifadəsi olaraq qlobal önəm daşıyır.

*Elçin BABAYEV,*
*Bakı Dövlət Universitetinin rektoru*

**Xuntaçıların məhkəməsi**

# Qarabağın faciə qurbanları erməni hərbçilərini ittiham edirlər



**Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü nəticəsində sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, o cümlədən təcavüzkar müharibənin hazırlanması və aparılması, soyqırımı, müharibə qanunlarını və qaydalarını pozma və digər çoxsaylı cinayətlər törətməkdə təqsirləndirilən Ermənistan Respublikasının vətəndaşları Arayik Harutyunyan, Arkadi Qukasyan, Bako Saakyan, Davit İşxanyan, David Babayan, Levon Mnatsakanyan və digərlərinin barəsində olan cinayət işləri üzrə açıq məhkəmə prosesinin baxış iclası dünən davam etdirilib.**

Bakı Hərbi Məhkəməsində hakimlər Zeynal Ağayevin sədrliyi ilə, Camal Ramazanovdan və Anar Rzayevdən ibarət tərkibdə (ehtiyat hakim Günel Səmədova) keçirilən məhkəmə zərərçəkmiş şəxs Səadət Qarayeva 16 yaşında doğmKəlbəcər rayonundan məcburi köçkün düşdüyünü deyib. Həmin vaxt doğmaları şəhid olub. Zərərçəkmiş şəxs ifadəsində təqsirləndirilən şəxslərdən şikayətçi olduğunu deyib. Zərərçəkmiş Ürüzə Vəliyeva 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Xocalı soyqırımı zamanı özünün, həyat yoldaşının və digər doğmalarının girov götürüldüyünü bildirib. Həmin vaxt baldızı Vəliyeva Sürəyya Cavad qızı itkin düşüb, hələ də tapılmayıb. 1992-ci il fevralın 16-dan 17-nə keçən gecə Xocavənd rayonunun Qaradağlı kəndində iki qardaşı girov götürülüb. 14 yaşlı qardaşının taleyindən hələ də xəbər yoxdur.

Rəşad İsmayılov 1993-cü il oktyabrın 23-də 16 yaşında olarkən Cəbrayıl rayonunun Mehdili kəndində Ermənistan silahlı qüvvələri tərəfindən girov götürüldüyünü deyib. Yaşar Abbasov 1992-ci il sentyabrın 2-də Ağdərə istiqamətində döyüşlər zamanı qarşı tərəfdən açılan atəş nəticəsində sağ ayağından yaralandığını bildirib. Balay Nəsibov 1994-cü ilin yanvar ayında Murovdağda yaralandığını bildirib. Təqsirləndirilən şəxs Davit İşxanyan deyib ki, həmin vaxt Monte Melkonyanın tabeçiliyində tabor komandiri olub.

Yasin Abbasov bildirib ki, əmisi oğlu Kəlbəcərdə şəhid olub. Natik Alıyev 1993-cü il martın 27-də Kəlbəcərdən məcburi köçkün düşdüyünü deyib. Qismət Allahverdiyev düşmənin Kəlbəcərə hücumu zamanı orada 80-100 yaş arasında 4 nəfəri girov götürdüklərini, onların sonrakı taleyindən indiyədək xəbər olmadığını bildirib. Səyavuş Bəndəliyev 1993-cü ildə yaralandığını bildirib. Firuz Dadaşov Laçın rayonunun Narışlar kəndi istiqamətində mina partlaması nəticəsində yaralandığını deyib.

Natiq Əhmədov 1993-cü ilin martında Ağdamın Xıdırlı kəndində qəlpə yarası aldığını söyləyib. Asif İbrahimov 1991-ci ildə Tərtərdən Ağdərə istiqamətinə gedən avtomobilin atəşə tutulması nəticəsində 5 güllə və 6 qəlpə yarası aldığını bildirib. Mikayıl Rzayev bildirib ki, Kəlbəcərin işğalı zamanı anası həlak olub. Qalib Məmmədov 1992-ci il aprelin 8-də Ağdaban faciəsi zamanı gördüklərini təsvir edib: "Əvvəlcə Əbdül kişinin meyitini gördük. Bəkir Qocayev, Zeynəb Qocayeva və başqaları, ümumilikdə 32 nəfər vəhşicəsinə qətlə yetirilmişdi. 16 yaşlı qardaşımı da öldürmüşdülər, elə günə qoymuşdular ki, paltarından tanıdım". O özü isə iki dəfə yaralanıb.

Vüqar İsayev, Zöhrab Kərimov, Bakir Ələsgərov, Nazim Rzayev, Qoşqar Tağıyev, İlqar Vəliyev, Aslan Xəlilov, Şəmiddin Xəlilov, Adil Hüseynov və Rafiq Əkbərov Ermənistan silahlı qüvvələrinin hücumları nəticəsində Kəlbəcər rayonundan məcburi köçkün düşdüklərini, müxtəlif zərərlər çəkdiklərini bildiriblər.

Nadir Əkbərov, Pərviz Əliyev, Ramiz Əliyev, Qorxmaz Əsədov, Dadaş Hacıyev, Habil İbrahimov, Xaliq İbrahimov, Habil İmaməliyev, Hikmət Mayılov, Səyyaf Muxtarov, Habil Quliyev, Akif Kərimov, Elşən Zamanov, Famil Yusibov, Mail Adilov, Rasim Adilov, Malik Əliyev, Furuz Məmmədov, Radim Mamedov, Niyazi Nazarov Ermənistan silahlı qüvvələrinə qarşı müxtəlif istiqamətlərdə döyüşdüklərini, yaralandıqlarını bildiriblər. Onlardan bəziləri iki, hətta üç dəfə yaralanıb, sonra yenidən döyüşlərdə iştirak ediblər.



Ruslan Mirzəliyev 2020-ci ildə baş vermiş 44 günlük Vətən müharibəsində yaralandığını bildirib. Onun atası Vahidcan Mirzəliyev isə 1992-ci il oktyabrın 2-də Xocavənd rayonunda şəhid olub.

Qardaşxan Adıgözəlov, Rasim Ələkbərov, Fuad Həsənov, Ağalar Əsədov, Mahir Ramazanov, Röyal Əhmədov ifadələrində 2020-ci ildə baş vermiş Vətən müharibəsi zamanı Ermənistan silahlı qüvvələrinin təxribatları nəticəsində yaralandıqlarını bildiriblər.

Taleh Qasımov, İlyas Əhmədov, Arzu İbrahimov, Həmid Musayev, Emin Sərdarov, Cavad Mahmudov, Sarvan Məmmədov müxtəlif tarixlərdə Ermənistan silahlı qüvvələrinin təxribatları, hücumları nəticəsində zərər çəkdiklərini deyiblər. Əfqan Səfərəliyev 1997-ci ildə əsir götürüldüyünü, 2 il ona dəhşətli işgəncələr verildiyini deyib.

Elnur Həsənov bildirib ki, 2022-ci il aprelin 9-da Tərtər rayonunun Həsənqaya kəndində qoyun otararkən Ermənistan silahlı qüvvələrinin basdırdığı minanın partlaması nəticəsində xəsarətlər alıb.

Mədət Mənaflı 2021-ci il noyabrın 16-da Laçında Ermənistan silahlı qüvvələrinin təxribatının qarşısını alarkən yaralandığını deyib.

Şirin İsmayılov 3 il əsirlikdə olarkən ağır işgəncələrə, qeyri-insani rəftara məruz qalıb. Cavanşir Sarıyev isə 1 il sirlikdə pis rəftara, dəhşətli işgəncələrə məruz qalıb. Kamil Allahverdiyev də 5 əsirlikdə dəhşətli işgəncələrə məruz qalıb. Zərərçəkmiş atasının da şəhid olduğunu söyləyib. Hikmət Quluyev deyib ki, 1993-cü ildə Kəlbəcərdə "Tunel" adlandırılan ərazidə girov götürülüb.

Zərərçəkmişlər, həmçinin təqsirləndirilən şəxslərin, o cümlədən David Manukyanın, David Babayanın, təqsirləndirilənlərin müdafiəçilərinin və özlərinin nümayəndələrinin suallarını da cavablandırıblar.

Məhkəmə prosesi avqustun 15-də davam etdiriləcək.

***XQ***

*Bəxtiyar Vahabzadə – 100*

# Vətən sevdalı, vətəndaş şair

**Türkiyənin Adana şəhərində Cümhuriyyət Günü “Kitab anımı”nı ehtiva edən bir abidə ucaldılıb. Abidənin postamentində Mustafa Kamal Atatürkün məşhur bir kəlamı həkk olunub: “Mən uşaq ikən fəqir idim. İki quruş əlimə düşüncə, onun bir quruşunu kitaba verirdim. Əgər belə etməsəydim, istədiklərimin heç birini edə bilməzdim”. Abidədə məhz kitaba səcdə ilə və özlərinin dəyərli kitabları ilə dahilik qazanmış XX əsrin böyük şəxsiyyətlərinin adları var. 100 yaşını qeyd etdiyimiz “İstiqlal” ordenli Xalq şairimiz Bəxtiyar Vahabzadənin adı bu abidədə ön sıradadır.**



Azərbaycan poeziya məbədinin ucaldılmasında danılmaz rolu olan, dünya ədəbiyyatının xəzinəsinə töhfə verən istiqlal şairi Bəxtiyar Vahabzadə cəsarətli qələm və kəlam sahibi kimi ən uca zirvələrə layiqdir. Lirikasının mövzu genişliyi və rəngarəngliyi onun böyük mütaliəsindən, İlahi fəhmindən xəbər verir. O, hansı mövzuda yazırsa-yazsın, orada vətəndaşlıq və vətənpərvərlik, millilik, türkçülük və turançılıq, böyük şairin ölçüsüz istedadının təcəllası, müdrik yaradıcılığının ehtişamı var.

Bəxtiyarın yaradıcılığı ilə tanış olan oxucu özünü rahat hiss edir, ürəkdən gələn fəlsəfi sətirlərdə öz dünyasını tapa, həyəcanına sahib çıxa bilir. Qırğızıstan Respublikasının həmişəyaşar ədibi Çingiz Aytmatov Bəxtiyar Vahabzadənin poetik fikirlərinə yaxşı bələd olduğu üçün demişdi: “Bəxtiyar poeziyasında lirizmlə vətəndaşlğın vəhdəti ayrılmaz qoşa simlərdir”. Bəli, bu qoşa simlər səsləndikcə haray qoparır, onun erudisiyalı dünyagörüşünə şəhadət verir. Bəxtiyar Vahabzadə lirikasının vurğunu, sonralar İslam dinini qəbul edən Ahmed Şmide (Hanspeter Şmide) şairin “Ana dili” şeirinin alman dilinə tərcüməsini oxuyandan sonra onu Vətən və ana dilinin mücahidi kimi rəğbətləndirib: “Mən, vətənə və dilimə olan məhəbbətimi Bəxtiyarın “Ana dili” şeirini oxuyandan sonra anladım!” Həqiqətən də, bu canlı abidə Bəxtiyar yaradıcılığının unikal lirikasıdır.

**Dil açanda ilk dəfə, ana söyləyirik biz,**
**Ana dili adlanır bizim ilk dərsliyimiz.**
**İlk mahnımız laylanı anamız öz südüylə**
**İçirir ruhumuza bu dildə gilə-gilə.**
**Bu dil bizim ruhumuz, eşqimiz, canımızdır,**
**Bu dil bir-birimizlə əhdi-peymanımızdır…**

1967-ci ildə Kasablankada qələmə aldığı “Latın dili” şeiri də dilin həssas məsələtək göz bəbəyi kimi qorunmasını hamıya tövsiyə edir. Yox olan vətənin, xalqın bu dildə “ana”, “vətən”, “torpaq” deyəni olmasa da, dil yenə yaşayır. Şair bu dili sovet vaxtı sıxışdırılan Azərbaycan dili ilə müqayisə edir. “Vətən ola-ola dilimiz niyə korlanıb ?” – deyir.

**…İndi söylə,**
**Hansı dilə ölü deyək:**
**Vətən varkən, Millət varkən,**
**Kiçik, yoxsul komalarda**
**Dustaq olan bir diləmi?..**
**Yoxsa uzun əsrlərdən**
**keçib gələn, xalqı ölən,**
**özü qalan bir diləmi?**

Sovet dönəmi prizmasından ədəbi davranışla bir araya sığmayan belə ifadələri yalnız Bəxtiyar Vahabzadə kimi mübariz şairlər yaza bilərdi. Bəxtiyar Vahabzadə coğrafiyası geniş lirikası ilə həmişə oxucularının nəbzini tuta bilib. Əslində, bu bacarıq və qabiliyyət şairin liderliyə xas böyük xarizmasından xəbər verir. Müasir alman ədəbiyyatının ən görkəmli nümayəndələrindən biri Günter Qrass özünün Nobel nitqində belə bir sitat gətirib: “Zati-Aliləri! Osvensimdən (Polşada alman nasistlərinin yaratdığı və 600 min adama amansızcasına zülm etdikləri əsir düşərgəsi olan kiçik şəhər) sonra şeir yazmaq barbarlıqdır. Bu həm də, onu deməyə əsas verir ki, şeir yazmaq bu gün çox çətindir”.

Qənaətimə görə, Bəxtiyarin dövründə yaşayıb-yaradan nəslin yaradıcılığında bir güc varıydı, partlayışa və şimşəyə bənzər bir güc. Zamanın böyüdücü şüşəsi altında o güc salnamədə Nobel mükafatının bünövrəsini qoyan dinamitin kəşfinə bənzəyən qədər böyük görünür… Səməd Vurğun, Süleyman Rüstəm, Bəxtiyar Vahabzadə, Rəsul Rza, Əli Kərim, Nəriman Həsənzadə, Məmməd İsmayıl, Sabir Rüstəmxanlı, Zəlimxan Yaqub, Məmməd Araz, Vahid Əziz və başqaları o səhnədə şəfəqli simada görünürlər. İndi zamanın defisiti sayılan və ictimai ruhu oxşayacaq yaradıcılıq nümunələri azdır. İndi zövq də dəyişib. Zamanın zövqü oxşayacaq ədəbiyyatı geri qaytarmağa gücü yetərincə deyil! Yaradıcılıq fəhmli davamçılar bədii meydandan çox, internet məkanına – virtual meydançalara üz tuturlar.

Bəxtiyar Vahabzadə və onun səviyyəsində olan həməsrləri isə yaradıcılığına görə dünya yazarlarının ponaptikumunda (Qədimdə mumdan hazırlanmış heykəllər və əntiq əşyalar muzeyi) özünə məxsus fəaliyyəti artıq əbədiləşmişdir.

Çingiz Aytmatovun fikrinə hörmətlə yanaşaraq – “Keçmişə və ötüb keçənlərə görə əzab çəkib, ona bu günün gözüylə baxmaq Bəxtiyar Vahabzadənin mövzu dairəsinin genişliyindən, fəlsəfəsindən və bir az da mürəkkəbliyindən xəbər verir.” Bir sitat gətirək:

**Şeytanlar milləti qorxuda bildi,**
**Doğru danışanı asdılar dardan.**
**Qızıl saraylarda fərman verildi,**
**Tarix gəlib keçdi ac komalardan…**
**(“Topqapı sarayı”)**

Həmişə haqlı danışan şair Bəxtiyar Vahabzadə bu günün gözüylə qosqoca tarixi poetik dili ilə mühakimə edir. Oxucunu inandırır ki, bu günün taleyi ibrətdən asılıdır…

Kitab rəfimdə ulu şairin seçilmiş əsərləri var. 1999-cu ildə çapdan çıxmış “İstiqlal” əsəri şairin öz dəsti-xətti ilə mənə ərməğan edilib. “Qeyrət, təmizlik, təvazökarlıq nümunəsi, əzizim Şəmsəddin üçün. B.Vahabzadə. 26.03.2003”. Ruhuna Aləmlərin Rəbbi məlhəm çiləsin!

Ulu şair üçün “Azadlıq” bir rəngdə olmayıb. O, “Azadlıq var özgəsinə yamaq kimidir, azadlıq da var, qollarda qandala bənzər” – deyir. Şair azadlığı ali dəyərlər sırasında görür. Fikrincə, insan azadlığı olmayan məmləkətlərdə fəlakətlər baş verər, beyinlər kütləşər, həqiqət riyakar olar, ədalət boyaya çevrilər!

**Azadlıq!**
**Azadlıq əldən getdimi…**
**Gedər ağızlardan dad da, ləzzət də.**
**Ağıl da, ürək də gülər arzuya**
**Azadlıq olmayan bir məmləkətdə.**
**Həqiqət bir riya, ədalət boya…**
**Azadlıq olmayan bir məmləkətdə**
**Düz əyri adlanar, əyri düz olar….**

“Azadlıq alınar, yaddan umulmaz” – deyir şair. Bu sətirləri yazdıqca 1989-cu ilin mitinqləri kino pərdəsi kimi gözlərimin önündə canlanır. Mən onda polis sıralarında xidmətdə idim. Hökumət evinin qarşısındakı meydana toplaşan milyonlarla vətənsevərlərin əllərində Bəxtiyar Vahabzadə meydana gətirilirdi… Biz, bu unudulmaz mənzərəni seyr etdikcə qürrələnirdik ki, millətimizin belə bir oğlu var.

**Şərəfdir ölmək də azadlıq üçün,**
**Bu məslək dəyməzmi bütün dinlərə?**
**Deyirəm eşq olsun dünən və bu gün**
**Azadlıq yolunda can verənlərə!..**

Ruhu bir daha şad olsun. Şair bundan artıq sözünü necə ifadə etməliydi? Heç kimin şübhəsi yoxdur ki, yaşasaydı, 44 günlük Zəfərlə bağlı daşı dəlib keçən poetik sətirlərinin də şahidi olardıq.

Rusiyanın tanınmış şairi K.Simonov Bəxtiyarı “Müstəsna istedada malik və qeyri-adi şair”, Türkiyənin nüfuzlu şairi Yavuz Bülənd “Azərbaycanın dərdlərini hayqıran şairi” adlandırmışlar.

**…İnsan, insan olur öz hünəriylə,**
**Millət, millət olur xeyri, şəriylə.**
**Torpağın bağrına cəsədləriylə**
**Azadlıq toxumu əkdi şəhidlər…**

Bəxtiyar Vahabzadənin yaradıcılığı təkrarolunmaz “hadisələr”lə zəngindir. Onun poetik meydanında ardıcıllıq olduğundan oxucunun ekstsessi baş vermir, yəni oxucu mütaliə niyyətindən – qarşısında olan kitabı oxumadan kənara çəkilə bilmir.

Məşhur İngilis yazıçısı və dramaturqu, Nobel mükafatına layiq görülən Con Qolsiorsi zamanında dini ehkamlara qarşı barışmaz mövqedə olduğuna görə keşişlər onu qəbul etmirdi. 1933-cü ildə laureat dünyasını dəyişəndən sonra keşişlərin əlinə fürsət düşdü. İngiltərə yazıçılar cəmiyyəti Qolsiorsinin Vestminster qəbristanlığında dəfn olunması ilə bağlı müvafiq qərar versə də, keşiş bu təklifi rədd etdi. Nə yaxşı ki, şairin “Mənim külümü səpin…” şeiri varıymış. Gediş-gəlişli yoldan kənar bir təpədən şairin külünü ətrafa səpib vəsiyyətinə əməl edirlər. Onun qəbri yer üzündə qalmasa da, qəlbə hopan əsərləri və əməlləri yaşayır və yaşayacaq…

Taleyə baxın! Yazıçının uzaqgörənliyinə heyrətlənməmək olmur. Onun nə vaxtsa yazdığı “Alma çiçəkləri” povestində sevgilisinin aldatdığı qızın özünü çaya atıb intihar etməsi şairə nəcib bir mövzu bəxş etmişdi və ”Mənim külümü səpin…” adlı canlı bir əsər ərsəyə gəlmişdi. Kilsə həmin nakam xanımı da qəbristanlıqda dəfn etməyə icazə vermədiyindən yandırıb külünü ətrafa səpmişdilər…

Yəni, məsələ təkcə kimin harada dəfn edilməsindən, başdaşının qoyulmasından və yaxud qoyulmamasından getmir. İnsanı yaşadan unudulmayan əməlləridir. Abidə insanların ürəyində ucaldılmalı, yaddaşlarda və xatirələrdə dəfn olunmalıdır. İnsanların ürəyində dəfn olunub, abidələri ucaldılanlar həmişəyaşar və pakdırlar, onlar müqəddəs qələm sahibləridir. Xoş hallarına. Belə, uca zirvələrdə uyuyan sənətkarlar heç nəyə, hətta Nobel mükafatına belə möhtac olmazlar.

Zamanın qatmaqarışıq siyasi burulğanlarından şərəflə və üzüağ çıxan Xalq şairi – xalqın şairi Bəxtiyar Vahabzadə ürəklərdə möhtəşəm abidəsi ucalan belə böyük sənətkarlardandır.

***Şəmsəddin ƏLİYEV,***
***hüquqşünas-publisist***

*Afaq Bəşirqızı – 70*

# Bəşir Səfəroğlu gülüşünün doğma sənət balası

**Onun adı gələndə çöhrələrə təbəssüm qonur. Bu, Azərbaycanın ünlü teatr və kino sənətçisi, Xalq artisti Afaq Bəşirqızıdır. Tibb işçiləri Mədəniyyət evinin dram dərnəyində atdığı ilk kövrək sənət addımları tezliklə mətinləşib və onu milyonların sevimlisinə çevirib. Artıq yarım əsrdən çoxdur ki, gülüş ustası Afaq xanım səhnədə və ekranda yaddaqalan obrazlar yaradır.**



Soyadı Səfərova olan Afaq Bəşir qızı 15 avqust 1955-ci ildə Bakıda dünyaya göz açıb. Buradakı 20 saylı orta məktəbi bitirib. Sənədlərini BDU-nun Şərqşünaslıq fakültəsinə verib, lakin müsabiqədən keçmədiyi üçün qəbul olunmayıb və atasının yolu ilə getməyi qərara alıb.1974–1979-cu illərdə İncəsənət Universitetinin Mədəni maarif fakültəsində təhsil alıb. Aktyorluq fəaliyyətinə 1973-cü ildə Lənkəran Dövlət Dram Teartında başlayıb. İki il sonra Sumqayıt Dövlət Dram Teatrında çalışmağa başlayıb, 1989-cu ildə isə atası Bəşir Səfəroğlunun ruhunun daim pərvaz elədiyi Musiqili Komediya Teatrına dəvət alıb. Harada çalışmasından asılı olmayaraq, Afaq Bəşirqızı oynadığı tamaşaların əsas uğur dağarcığı olub. Hazırda Azərbaycan Mədəniyyət və İncəsənət Universitetində aktyorluq kursunda dərs deyir, professordur.

Afaq xanım Lənkəran səhnəsində Sərvinaz, Dürdanə, Fəxrəndə, Pəri xanım, Pakizə kimi ad qoyub. Sumqayıt teatrında Humay, Klava, Xəbərçi Xədicə, Ziba, Gülbadam, Sənəm, Şənbə xanım olub, amma “Bəxt üzüyü”nün Söylüsü onların hamısını qanadının altına yığıb. “Muzkomediya”da Ofelya xanım, Qızbacı, Sənəm, Güldəstə, Zalxa, Xanuma, Kimyagər, Minnət xanım, Qəmzə, Roza... olaraq qəlbləri fəth edib. Bu obrazların hamısı bir istedad düyünündə birləşib və bir adın – Afaq Bəşirqızının sənətkar kimi şöhrətlənməsinə layiqli xidmət göstərib.

Sumqayıt teatrının 80-ci illərdə baş rejissoru olan Yusif Əkbərovun tamaşaya qoyduğu “Bəxt üzüyü” (Vaqif Səmədoğlu) komediyasını indi də xatırlayanda könlümüzü xoş duyğular sarır. Premyerası çox uğurla keçən bu əsər inanılmaz şöhrət qazandı, uzun müddət repertuarda yaşadı və az qala hər tamaşası anşlaqla keçdi. Afaq Bəşirqızı (Söylü), Valeh Kərimov (Moşu), Vaqif Əliyev (Müstəntiq), Məzahir Süleymanov (Tanrıbəy), Sabir Məmmədov (Hüseyn) və başqalarının sanballı aktyor ansamblı onlara çox böyük tamaşaçı məhəbbəti qazandırdı. Komik ifalar – “Fatma cijisindən” sitatlar gətirən Söylünün Moşu Göyəzənli və Seda ilə, “xoşbəxtlik” sözünə qafiyə tapa bilməyən şairin bəxt üzüyü itən qonşusu Sara və Kefli İsgəndərin “xələf”i – alkaş Hüseynlə, onunsa Tanrıbəy dayı ilə real həyata uyğun, təbii koloritli dialoqları, ekspromt replikaları, improvizələri dillər əzbəri oldu.

Bir sumqayıtlı kimi şahidiyəm ki, təkcə Bakıdan deyil, bütün bölgələrdən, hətta Gürcüstandan da dolu avtobuslarla adamlar bu tamaşaya baxmaq üçün şəhərimizə axın edirdilər. Sonra tamaşanın ekran inikası olan eyni adlı film də çəkildi. Bu şöhrətin baş səbəbkarlarından biri məhz Afaq xanım idi.

Yeri gəlmişkən, o vaxt bir “Qaraqaya”Assosiasiyası vardı və qurumun rəhbərliyi Afaq xanımın sənətinin əsl pərəstişkarı idi. Ondan nə istədiyini soruşanda “Bəxt üzüyü”nün ekranlaşdırılmasını arzu etdiyini deyib və beləliklə gözəl tamaşa kimi, sevimli film də meydana gəlib. Afaq xanımın kinoda “hindiski film”lər haqqında dediyi “Qabağı ağlamalıdı, dalı hırıldamalı” fikrini kiçik interpretasiya ilə “Bəxt üzüyünə də şamil etmək olar: üzdən gülməlidir, dərin qatlarında isə ağlamalı. Bu ekran əsərində çəkilən uşaqlardan biri də Afaq xanımın oğlu Səmraldır.

Onu da deyim ki, Səmralın atası Əhməd Təhməzovu da lap gənclik illərindən tanıyıram. Mən universitetin jurnalistika fakültəsinin qiyabiçi tələbəsi ikən çoxtirajlı “Kimyaçı” qəzetində çalışırdım. Əhməd Təhməzov isə redaksiyamızın yaxınlığındakı zavodun sexlərindən birində sahə ustası idi. Səhv etmirəmsə, Ceyranbatanda yaşayırdı və yaxın olduğuna görə, gəlib Sumqayıt teatrının bütün tamaşalarına baxırdı. Onunla görüşlərimizdə vurğunu olduğu səhnə sənəti barədə söhbətlər edirdik. Sən demə, teatrın parlaq ulduzu Afaq Bəşirqızının sənəti kimi, özünə də aşiq olubmuş. Bir də eşitdim ki, ailə qurublar. İlk fürsətdəcə Əhməd müəllimi ürəkdən təbrik elədim.

2013-cü ildə “Şöhrət” ordeninə, 2015-ci ildə isə Prezidentin fərdi təqaüdünə layiq görülmüş Afaq Bəşirqızı sənət sevgisi ilə bir örnəkdir. O, Bəşir adlı elə bir çağlar bulağın şəffaf, şaqraq suyudur ki, cilvələrinə çoxları həsəd aparır. Teatrdakı peşəkarlığı ilə səhnənin ruhunu dəyişməsi bir yana, kinodakı oyunları ilə film kadrların işığının daha da artmasına, seyrçilərin qeyri-iradi olaraq gözlərini ekrana zilləməsinə səbəb olub. Afaq xanımın filmoqrafiyasını Darçınbəyim (“Evləri köndələn yar”), Zəhra (“Yaşıl eynəkli adam”), Bağça müəlliməsi (“777 nömrəli iş”), Suğra (“Bala – başa bəla”), Ayka (“Yarımştat”), Gülya (“Nekroloq”), Satıcı qadın (“Girov”), Ağanaz (“Qaynanamız” serialı), Fatma xala (“Həddən artıq uyğunluq”) və sair obrazlar bəzəyir.

Həmişə gülüb-güldürən Afaq Bəşirqızının ağlamadığı günlərin olmadığını demək də düzgün olmaz. Bir dəfə hələ məktəbli ikən onu atasının silləsi ağladıb. Özü danışır ki, 20 qəpik verib sinif yoldaşından sapand alıbmış. Atası onun gündəliyinə baxmaq üçün çantasını açanda sapandı görüb. Tərs kimi həmin gün ona dərsindən də “5” yox, azca aşağı qiymət veriblərmiş. Buna görə ata silləsini “dadıb”.

Bir dəfə də komik rollar ifaçısının ağlamasına şəxsən özüm şahid olmuşam. Təxminən 40 il əvvəl dövlət televiziyasında müxbirlik etdiyim vaxtlar idi. Afaq xanım xətrini çox istədiyi sevimli rejissorumuz – unudulmaz Xalq artisti Barat Şəkinskayanın qızı, ilk qadın telerejissorumuz Solmaz Həmzəyevanın yanına gəlmişdi. Otağa girəndə gördüm ki, Solmaz xanımla söhbət edə-edə ağlayır. Tez geri qayıtdım. Sonra Solmaz xanım mənə dedi ki, Bəşir Səfəroğludan danışırdıq, Afaq birdən kövrəlib göz yaşlarına hakim ola bilmədi...

O, eyni zamanda, dostcanlı, təəssübkeş bir xanımdır. Sözünü cəsarətlə deyə bilir. 2019-cu ildə Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban Əliyeva ilə görüşdə Afaq Bəşirqızı bir çoxları kimi, özünün deyil, digər aktyorların və Teatr Xadimləri İttifaqının problemlərini dilə gətirməsi ilə də yadda qalıb. Bu, sənətə sıx bağlılıq, teatra böyük sevgi nümunəsidir.

Bu il martın 11-də Afaq xanımın atası Bəşir Səfəroğlunun 100 yaşı tamam olub. İndi isə ailə estafetinin daşıyıcısının 70 yaşını qeyd edirik. Özündən 30 yaş böyük olan atasının üzünü cəmi 14 il görə bilib. Dəcəl uşaqlığı da elə onun ölümü ilə sona yetib... Mart ayında Bəşir Səfəroğlunun 100 illiyi münasibətilə ata yurdu Qubadakı Mədəniyyət Mərkəzində Azərbaycan Dövlət Akademik Musiqili Teatrı Afaq Bəşirqızının iştirakı ilə “Toya bir gün qalmış” tamaşasını böyük uğurla təqdim edib. Afaq xanım 56 ildən bəri həyatda olmayan atasının ruhuna üz tutaraq deyib ki, gördüyüm, duyduğum qədərincə, sənin yoxluğunla heç bir azərbaycanlı sənətsevər barışmayıb, həmişə rəhmət qazanmısan. Əlavə edək ki, Bəşir Səfəroğlu ölməz sənəti ilə bərabər, Azərbaycan incəsənətinə Afaq Bəşirqızı kimi bir sənətkar övlad bəxş etdiyi üçün də rəhmət qazanıb.

Dünən bu yazını çapa hazırlayarkən xoş bir xəbər aldıq: Prezident İlham Əliyevin imzaladığı sərəncama əsasən, Xalq artisti Afaq Bəşirqızı “Şərəf” ordeninə layiq görülüb. Sevimli aktrisamız bu təltifə münasibət bildirərkən deyib: Var olsun Prezidentimiz! “Var olsun xalqımız! Cənab Prezidentimizə mədəniyyətə, incəsənətə olan qayğısına görə təşəkkür edirəm! Daim medallar və ordenlərlə təltif olunmuşam. Tamaşaçılarımın diqqəti həmişə üzərimdə olub, ali rəhbərlik tərəfindən də qiymətləndirilmişəm”. O, həmçinin bütün incəsənət xadimlərinə çağırış edib: “Hamıya demək istərdim ki, mədəniyyəti qorumaq və Prezidentin qarşısında alnıaçıq olmaq üçün işləmək, sənəti yüksək səviyyəyə qaldırmaq lazımdır”.



***Əli NƏCƏFXANLI***
***XQ***

*Aranlı-dağlı ellər*

# Köç yolu...

**Qədim köç yolu kənddəki ata evimizin yaxınlığından – Çal dağından başlayıb, Yırğançaydan keçib Ballı bulağa qədər uzanırdı. Uşaqlıq illərimdə kəndimizdə el yaylağa gedəndə köç karvanına tamaşa etməkdən yorulmurdum. O dolaylı-düzənli köç yolunu ilin yaz fəslində bir dəfə başdan ayağadək keçəndə sehirli təbiətin rəngarəng mənzərələrini görmüşdüm. Kəndimizin yaşlı kişiləri, əli ağac tutandan beli bükülənədək ömrünün çox payını köç yolunda keçirmişdi. Ağgünlü kəndinin camaatı ta qədimdən qoyunçuluqla şöhrət tapmışdı. Ona görə də arandan yaylağa, yaylaqdan qışlağa köç edirdilər.**





...Aranda çobanların yataq yerində qoyun-quzunun mələşməsi ilə qarğı tütəyin həzin səsi bir-birinə qarışmışdı. Çoban əmi təbiətin öz əli ilə yonulmuş Haça Qaya heykəlinin üstündə oturub çöllərin seyrinə dalmışdı. Bir də baxıb gördü kü, sürü taxıl zəmisinə sarı axışıb gedir. Ayağa qalxıb toppuzlu zoğal çomağını göydə fırladıb sürü tərəfə atdı. Çomağı elə dəqiq nöqtəyə atdı ki, qoyun-quzuya dəymədi. Sürünün qabağını çəkib gedən erkəc təkə dərhal geri döndü. Sürü taxıl zəmisindən uzaqlaşdı.

– Hara gedirsiniz, ay bərəkətinizə qurban olum? Görmürsünüz, sünbüllər dən bağlayıb?! - deyən çoban əminin üzü gülürdü. Qarşıdan gələn ayda köç yolu ilə yaylağa üz tutacaqdı. Qayanın başından aşağı üzünü mənə tərəf çevirib səsləndi:

– Ayə, qardaşoğlu, bizim tərəflərə xoş gəlmisən, - dedi. Görüşüb hal-əhval tutduq. Sürünün ətəyi yatağa doğru sallananda döl arxacına gedib çıxdıq.

Körpə quzular saxlanan arakəsməyə baş çəkdik. Qarınları belləri ilə bərabər, doğar qoyunların yelinləri qıçlarının arasına güclə sığırdı. Duruşları, baxışları nazlı, xumar gözlü quzuların mələrtisi elə xoşuma gəlirdi ki... Elə bilirdim mənim gəlişimdən xəbər tutub, səs-səsə veriblər. O səs o vaxtdan yaddaşıma yazılıb.

Qoyunlar arxacda yatıb kövşək vururdu. Çoban əmi qumral qoyuna sığal çəkib dedi:

**Nənəm, a narış qoyun,**
**Yunu bir qarış qoyun.**
**Çoban səndən küsübdü,**
**Əkiz doğ, barış, qoyun.**

... Başkeçid yaylaqlarında kəndimizin yurd yerləri hər nəslin öz adı ilə bağlıdır. Çobanlar yazın burnu qanayandan payızın son ayına kimi sürünün dalısınca gəzərdi. Dəfələrlə Qəmər atının tərkində babam məni də yaylaqlara aparmışdı. Yuxum gələndə məni atın tərkindən götürərdi. Qucağına alar, qolunun üstündə yatırardı. Özüm babam yaşında olsam da, onun mehrindən və meylindən ötrü indi də darıxıram. Deyirəm kaş ki, ömrümün sonunadək babamla üzü dağlara yol gedəydim...

Çobanların yaylaq həyatı, babamla at belində keçən günlərim yaddaşımda elə dərin izlər buraxıb ki... Atdan düşəndə babamın yerişindəki vüqar, baxışındakı nur qəlbimi inamla, istəklə doldururdu. Elə bilirdim babamın Qəmər atına minib düşəndə, mən də onun kimi görünəcəm. O çağlarda arzular qoynunda böyüyürdüm. Ürəyimdən bir arzu da keçirdi. Deyirdim görəsən, nəvaxtsa mən də babam kimi belə nurlu qocalaram?...

Yox, mən babam kimi qocala bilmədim. Onun ömrü köç yolunda, yaylaqların qoynunda keçmişdi. Kəl arabaları beşiyi, dəyələr evi-eşiyi olmuşdu. Güclü və sağlam adam idi. Çox məharətlə at sürməyi vardı. Cıdırlarda həmişə birincilik qazanıb nəmər alardı. Mahir ovçu kimi quşu dimdiyindən vurardı. O, ilin hər fəslində gecələr çardaqda, quş tükü kimi yumşaq ot döşəyinin üstündə yatardı. Yuxusuna biçilmiş ot ətri dolardı. Onun sağlamlığıi nəvələrinə də sirayət etmişdi. İndi babamın böyük qız nəvəsinin 90-dan, kiçik oğul nəvəsinin isə 70-dən çox yaşı var.

Yaylaqlara doğru uzanan köç yolu elimizin aran yolu, dağ yoludur. Kəndimizin tarixi taleyində köç yolunun əhəmiyyəti ölçüyəgəlməz dərəcədə böyükdür. Mal-heyvan sürülərini yayın odundan, istisindən qurtarmaq üçün arandan dağa köç karvanı başlayırdı. Tanrının mərhəmətilə köç yolunda günlü yağışlar yağırdı. Vaxtsız yağan yağışlar zamanı göy qurşağı təbiətin gözəlliklərinə naxış vururdu. Yolun tozunu, torpağını yatırdıqdan sonra yağış kəsirdi. Sürü yoluna davam edirdi.

Köç yolu ilə sürünü yaylağa yetirmə vaxtı, yaylaq mövsümünü başa vurduqdan sonra da dağdan arana gətirmə vaxtı elə dəqiq hesablanmışdı ki... Allah eləməmiş, dağdan arana köçün vaxtını ötürsəydin, göy kişnər, bulud ağlardı. Dağları duman bürüyərdi, payızın qara yelləri əsərdi, sürülər borana-qara düşərdi. Ona görə də dağ adamlarının köç karvanı saat kimi işləyirdi.

...Köç yolunun qəlbi-qəlbi dağlar aşıb zirvəyə dirənən yerinə çatanda adam qartal olub uçmaq istəyir. Bilir ki, ucalığın ziyarətinə gəlib. Zirvə unudulmaz və mənim sevdiyim ünvandır.

Yurd yerlərində qalın keçələrdən dəyələr qurulmuşdu. At arabalarından barxanaları düşürüb yerbəyer etdilər. Kimi çırağı yandırır, kimi ocağa od salır, kimi də samovarı qaynadıb dağ çiçəklərindən çay dəmləyirdi. Sacda çörək bişirən kim, ocaq daşının üstündə yemək hazırlayan kim... Hərə öz işi ilə məşğul idi. Arandan gələn köç karvanı elat bayramını xatırladırdı.

Samovardan süzülən kəklikotu çayının qoxusu ətrafa yayılırdı. Dağ havasını ciyərlərinə çəkdikcə, kəklikotu çayından içdikcə köç yolunun yorğunluğu arandan gələn qonaqların canından çıxırdı.

Yaylaq mövsümü davam edirdi. Hərə öz işinin başındaydı. Atalar qoyunları, oğullar quzuları otarmağa getmişdi. Analar ağartıdan qışın azuqəsini hazırlayırdılar. Ağgünlü kəndinin yağlı motal və saçaxlı pendirini, çeçilini, süzmə qurudunu, nəhrə yağını el dağdan köçəndə Borçalının aran kəndlərində əl-əl axtarırdılar.

... Çobanın oğlu quzuları dağların kəklikotu qoxuyan güneyinə yayıb göy otun üstünə uzanmışdı. Bulaq başına gedən qızlar bulağın ayna sularında güzgülənirdilər. Oğlan qarğı tütəyini dodaqlarına yaxınlaşdırdı. Tütək dağlara, dərələrə səs saldı. Tütəyin səsi qızların şaqraq gülüşlərinə, bulaqların təranəsinə qarışmışdı. Çobanın oğlunun əlləri tütəkdə, ürəyi tətikdə, gözləri bulaq başına gedən qızların arasında sədrin qızını axtarırdı.

Sədrin qızı dağ döşündə kəklikotudan, zərif dağ çiçəklərindən dərib dəstə bağlayırdı. Çobanın oğlu göy otun üstü ilə sürüşə – sürüşə, tütəyini sədrin qızının iki addımlığında çalırdı. Çobanın oğlunun ürəyi tütəkdə yanırdı. Elə şirin, elə yanğılı çalırdı ki, sanki o səs qeybdən gəlirdi. İki sevən gəncin bəxt ulduzu göydə pıçıldaşırdı. Onların ömrünün ən xoşbəxt dəqiqələri idi.

... El dağdan arana köçməyə üz qoymuşdu, köç yolunun nə əvvəli, nə axırı idi. Amma Ağgünlü kəndinə ildırım sürətiylə bir şad xəbər yayılmışdı:

–Bəs, kolxoz sədrinin qızı ilə çobanın oğlu bir könüldən-min könülə bir-birinə aşiq olub...

***Həzi HƏSƏNLİ,***
***şair-publisist***

*Beynəlxalq həyat*

# Alyaska görüşü Avropaya sülh gətirəcəkmi?

**(əvvəli 1-ci səhifədə)**

Donald Trampın təklifi bir çox Avropa liderləri üçün həm ümid, həm də narahatlıq mənbəyidir. Qərb mediasının məlumatına görə, ABŞ prezidenti bildirib ki, Avropa və Ukrayna liderlərinə təhlükəsizlik zəmanəti verə bilər, amma bu zəmanət NATO çərçivəsində deyil, yalnız ikitərəfli və ya regional razılaşmalar vasitəsilə həyata keçiriləcək.

"Politico"nun məlumatına görə, Prezident Tramp virtual konfransda açıqlayıb ki, ABŞ Kiyevə yalnız atəşkəs əldə edildiyi halda və NATO strukturlarından kənar dəstək verəcək. Diplomatik mənbələr qeyd edir ki, konkret mexanizmlər hələ müəyyənləşməyib və bu qeyri-müəyyənlik həm müttəfiqlər, həm də rəqiblər arasında gərginliyi artırır. Britaniyalı rəsmi isə Donald Trampın yekun razılaşmada mühüm rol oynayacağına inandığını bildirib.



Tramp açıq şəkildə bəyan edib ki, ABŞ Ukraynaya birbaşa silah və ya qoşun göndərməyəcək. Bunun əvəzinə Avropaya silah satışı yolu ilə Kiyevin ehtiyaclarını dolayısı ilə qarşılamaq niyyətindədir. Bu isə bəzi Ukrayna tərəfdarları üçün yetərli deyil və gözləntiləri tam qarşılamır.

The Wall Street Journal yazır ki, Tramp görüşdə ərazi məsələlərinə toxunmağı planlaşdırmır; Əsas məqsəd Rusiya–Ukrayna müharibəsində atəşkəsə nail olmaqdır. Lakin The Telegraph iddia edir ki, Tramp sülh müqabilində Putinə Alyaska və Donbass resurslarını təklif edə bilər – bu isə beynəlxalq hüququn prinsiplərini birbaşa sınağa çəkir.

Daha bir maraq doğuran məqam Ukrayna Prezidenti Volodimir Zelenskinin Alyaska görüşündə iştirak edib-etməyəcəyi barədə idi. Ancaq Prezident Tramp Ukrayna prezidentinin görüşdə iştirakının danışıqlara mane olacağından narahatdır. Avropalı liderlər əvvəlcə NATO baş katibi Mark Rütte və Prezident Zelenskinin birbaşa iştirakı ilə bağlı təklif versələr də, sonradan bu ideyadan imtina ediblər. Razılaşmaya görə, Donald Tramp əvvəlcə Vladimir Putinlə görüşəcək, sonra isə Zelenski və Avropa liderlərini məlumatlandıracaq. ABŞ-ın vitse-prezidenti Cey Di Vens də Avropa və Ukraynanı əmin edib ki, Vaşinqton Ukraynasız Rusiya ilə taleyüklü danışıqlar aparmayacaq.

Bununla belə, siyasi şərhçilərin sözlərinə görə, Prezident Trampın təklifi – "sülh müqabilində torpaq" və NATO-dan kənar təhlükəsizlik zəmanətləri – Qərbin klassik prinsiplərinə ziddir. Bu model ənənəvi kollektiv müdafiə və beynəlxalq hüquq mexanizmlərinə zidd olaraq ikitərəfli və praqmatik kompromislər üzərində qurulub. Bu təklifin tərəfdarlar hesab edirlər ki, belə yanaşma sürətli nəticələr gətirə və uzun sürən münaqişəni sona çatdıra bilər.

Tənqidçilər isə bildirirlər ki, belə addımlar təhlükəli presedent yaradır və gələcəkdə digər münaqişələrdə eyni yanaşmanı stimullaşdıra bilər. Bəzi analitiklərin fikrincə, bu yanaşma yalnız Avropa təhlükəsizliyini deyil, qlobal diplomatiya sistemini də sınağa çəkir. Digər ölkələr də bu modelin öz regionlarında necə tətbiq oluna biləcəyini müzakirə mövzusuna çevirə bilər. Əgər Qərb Ukrayna məsələsində ərazi güzəştlərinə razı olarsa, digər problemli regionlarda oxşar hallərin gözlənilməsi mümkündür.

Bir sözlə, Alyaska görüşündə çoxtərəfli və real, uzunmüddətli sülh üçün proqnozlar qarışıqdır. Bəziləri danışqların nikbin yekunlaşacağına inanır, digərlərisə, əksinə, görüşdən ciddi uğur gözləmirlər. İstənilən halda Tramp–Putin görüşü tərəflərə hansı istiqamətdə hərəkət etməyə aydınlıq gətirəcək.

***Səbuhi MƏMMƏDOV***
***XQ***

# Süni intellekt bədii əsərlər də yazır

**Son illərdə süni intellekt (Sİ) bədii yaradıcılıq sahəsində ciddi irəliləyişlərə imza atır və insan təxəyyülünün sərhədlərini genişləndirir. Sİ artıq təkcə texnoloji alət olmaqla kifayətlənmir, həm də yaradıcı tərəfdaş kimi çıxış edir, klassik və müasir janrlarda yeni əsərlər ortaya qoyur.**



Məsələn, OpenAI-nin GPT-3 modeli klassik şairlərin, xüsusilə də Mövlananın poetik üslubunu mənimsəyərək dərin məna daşıyan şeirlər yarada bilir. Model eyni zamanda dialoqlar, hekayələr və roman parçaları yazmaq qabiliyyətinə malikdir. Bu, süni intellektin dilin incəliklərini, ritmini və zəngin ifadə formalarını dərk etdiyini göstərir. Bənzər bir nailiyyət "DeepSpeare" adlı modeldə özünü göstərir. O, Şekspirin sonetlərini və digər poeziya növlərini uğurla təqlid edir. Bu, mürəkkəb bədii formaların rəqəmsal şəkildə yenidən yaradılması üçün gözəl nümunədir.

Süni intellektin ədəbi yaradıcılıqda erkən nümunələrindən biri 1983-cü ildə hazırlanmış "Racter" proqramıdır. Bu proqram tərəfindən yazılan kitab hekayələr, şeirlər və dialoqlardan ibarət idi və süni intellektin dil yaratmaq qabiliyyətinin ilkin mərhələdəki göstəricisi sayılırdı. Daha sonra 2016-cı ildə Yaponiyada keçirilən müsabiqəyə təqdim olunmuş "The Day a Computer Writes a Novel" romanı süni intellekt və insanın birgə yaradıcılığının parlaq nümunəsidir.

Tokioda 150 nəfər, o cümlədən süni intellekt sahəsində tədqiqatla məşğul olanlar öz yekun işlərini təqdim ediblər. Layihənin məqsədi kompüterə məşhur yapon fantastika yazıçısı Siniçi Hoşi üslubunda roman yazmağı "öyrətmək" idi.

"Hakodate Gələcəyin Universiteti"ndən olan professor Hitoşi Matsubara bildirib ki, süni intellektdən istifadə etməklə 4 roman yazılıb. Həmin əsərlər Siniçi Hoşinin şərəfinə keçirilən bədii əsərlər müsabiqəsinə təqdim olunub. H.Matsubara qeyd edib ki, romanlardan heç biri mükafata layiq görülməsə də, onlardan biri seçim turnirini keçə bilib.




2018-ci ildə "1 the Road" layihəsi çərçivəsində süni intellekt Kaliforniya boyunca avtomobil səyahəti zamanı toplanan sensor məlumatları əsasında mətnlər yaratdı. Nəticədə ortaya çıxan əsər avtomatik yaradılmış olsa da, poetik ifadələrlə zəngin idi. Bu əsər insan yaradıcılığı ilə texnologiyanın sintezini və yeni yaradıcı formaların mümkünlüyünü nümayiş etdirdi.

Professor Filip M. Parker də internetdən alınan məlumatlardan istifadə edərək şablondan avtomatik olaraq kitablar yaradan yazıçı "bot" yaradıb. Parker iddia edir ki, onun proqramı artıq 200 mindən çox müxtəlif sahələrdə kitab "yazıb".

Xatırladaq ki, bot – "robot" sözünün qısaldılmış formasıdır və kompüterdə və ya vebdə tapşırıqları avtomatik yerinə yetirən proqram mənasını verir. Bu botları yaratmaqda əsas məqsədlərdən biri görüləcək işləri asanlaşdırmaqdır.

Bu nümunələr göstərir ki, süni intellekt ədəbi yaradıcılıqda yalnız alət deyil, həm də yeni üfüqlər açan uğurlu əməkdaşdır. O, insan təxəyyülünü genişləndirir, ideya generatoru və redaktor kimi çıxış edir, yaradıcı prosesin müxtəlif mərhələlərində əhəmiyyətli rol oynayır. Gələcəkdə süni intellektin bədii yaradıcılıqda rolu daha da artacaq və insanla Sİ-nin əməkdaşlığından doğan əsərlər yeni estetik təcrübələr təqdim edəcək.

***P.ƏFƏNDİ***
***XQ***

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 170 (30864) 15 avqust 2025-ci il, cümə

## İDMAN

### Dünya Oyunlarında 4-cü medal



**Kikboksinq üzrə Azərbaycan millisinin üzvü Amin Quliyev Çinin Çendu şəhərində keçirilən Dünya Oyunlarında uğurla çıxış edib. 63,5 kiloqram çəki dərəcəsində yarışan idmançımız gümüş medal qazanıb.**

Qeyd edək ki, avqustun 17-dək davam edəcək Dünya Oyunlarında ölkəmiz 14 idmançı ilə təmsil olunur. Hazırda komandamızın hesabında 4 gümüş medal var. Daha əvvəl İrina Zaretska (karate), Tofiq Əliyev (tamblinq gimnastikası), Daniyel Abbasov və Murad Rəfiyev (akrobatika üzrə duet) mükafatçılar sırasında yer alıblar.

### PSJ Superkubokun qalibidir




**UEFA Superkubokunun qalibi adı uğrunda Fransanın PSJ komandası İngiltərənin “Tottenhem” klubuna qarşı keçirdiyi görüşün əsas vaxtı 2:2 hesabı ilə başa çatıb. İtaliyanın Udine şəhərindəki “Friuli” stadionunda baş tutan qarşılaşmanın 39-cu dəqiqəsində Mikki van de Ven londonluları hesabda önə çıxarıb. Fasilədən sonra 48-ci dəqiqədə Kristian Romero komandasının ikinci qolunu vurub–2:0.**

Oyunun sonuna yaxın parislilər dönüş yaratmağa müvəffəq olublar. Belə ki, 85-ci dəqiqədə Li Kan İn, 90+4-cü dəqiqədə isə Qonsalu Ramuş vurduqları qollarla qarşılaşmanı penaltilər seriyasına daşıyıblar–2:2.

11 metrlik zərbələri daha dəqiq yerinə yetirən (4:3) Luis Enrikenin komandası – PSJ Superkuboka sahib çıxıb.

### Kişi voleybolçularımız ardıcıl 3-cü dəfə uduzub



**AÇ-2026-nın (EuroVolleym-2026) təsnifat mərhələsinin qrup oyunları çərçivəsində növbəti görüşlər keçirilib. Turnirin B qrupunda yer alan Azərbaycan millisi Belçikanın Roeselora şəhərində yerli komandanın qonağı olub. Oyunda ev sahibləri qələbə qazanıblar – 3:0 (25:13, 25:9, 25:13). Bununla da Azərbaycan millisi qrup oyunları çərçivəsində üçüncü dəfə məğlub olub.**

Millimiz avqustun 16-da qrup oyunları çərçivəsində Bakıda Avstriyaya qarşı son matçına çıxacaq.

*Qabil YUSİFOĞLU*
*XQ*

## Sosial şəbəkə ekranı

# Selanik – Atatürkün doğma şəhəri

**Sosial şəbəkə istifadəçisi, tibb elmləri doktoru Yazgül Abdıyevanın bu günlərdə özünün “Facebook” səhifəsində Yunanıstanın məşhur Saloniki (türklər Selanik adlandırırlar) şəhərinin tarixi və müasir həyatı ilə bağlı qeydlərini təqdim edib. Paylaşımı oxucuların nəzərinə çatdırırıq.**

– Yunanıstanın ikinci böyük şəhəri Selanikin əsası eradan əvvəl 315-ci ildə məşhur Makedoniya hökmdarı Kassandr tərəfindən qoyulmuşdur. Hökmdarın əmri ilə Term körfəzi sahilində yerləşən 26 kiçik yaşayış məntəqəsi birləşdirilərək ərazidə yeni şəhər salınıb. Kassandr bu gözəl yeni məkana sevimli həyat yoldaşı, Makedoniyalı İskəndərin ögey bacısı Fessalonikanın adını vermişdir.

Məlumdur ki, Selanik 1430-cu ildə sultan II Murad tərəfindən fəth edilib. XV əsrdə şəhərə Anadoludan gətirilən çox sayda türk ailələri məskunlaşdırılıb. 1492-ci ildə İspaniyadan qovulan Sefard yəhudilərini qəbul edən Osmanlı sultanı bir hissəsinin Selanikdə yerləşməsinə izn verib.

Şəhər 500 ilə yaxın müddətdə Osmanlının himayəsi altında xristian, yəhudi və müsəlman icmalarının birlikdə yaşadığı əhəmiyyətli bir mədəni və iqtisadi mərkəz halına gəlib.

Bizim üçün ən əhəmiyyətlisi odur ki, Selanik şəhəri böyük lider Mustafa Kamal Atatürkün doğulduğu və uşaqlıq illərini keçirdiyi yerdir. Bu şəhərdə yerləşən Atatürk ev-muzeyi bu dahi siyasətçinin həyatına, şəxsiyyətinə və türk xalqının müasir tarixindəki roluna işıq tutan önəmli mədəniyyət məkanıdır.





Qeyd etmək lazımdır ki, muzey Atatürkün anadan olduğu XIX əsrin sonlarına aid olan evdə yerləşir və orada dahi sərkərdə və siyasətçinin uşaqlıq illəri, təhsili və gənclik dövrünə aid çox sayda eksponat nümayiş olunur. Həmçinin, Atatürkün Türkiyənin müstəqilliyi və inkişafı uğrunda apardığı mücadiləni əks etdirən sənədlər və şəxsi əşyalar da sərgilənir.

Təəssüf ki, ziyarətimiz zamanı sözügedən ev-muzeyi burada aparılan bərpa işləri ilə bağlı qapalı idi və içəri daxil olmaq mümkün olmadı. Bu tarixi məkan, uzun müddətdir ən çox görmək istədiyim yerlərdən biridir və gələcəkdə şəhəri yenidən ziyarət etmək niyyətindəyəm.

Belə bir məqamı qeyd etməyi özümə borc bilirəm ki, Mustafa Kamal Atatürk, yalnız Türkiyə üçün deyil, ümumilikdə XX əsr dünya tarixinin ən görkəmli şəxsiyyətlərindən biridir. O, qardaş Türkiyəni müasir, demokratik dövlətə çevirmiş dahidir. Bu, birmənalı belədir! Şəxsən mən bundan sonsuz qürur duyuram! Atatürkün ideya və idealları bu gün də milyonlarla insan üçün ilham mənbəyidir.

Yazgül xanım paylaşımında sonra bunları qeyd edib:

– Məlumdur ki, Selanik Birinci Dünya müharibəsindən sonra Yunanıstanın nəzarətinə keçdi. 1924-cü ildə Yunanıstanla Türkiyə arasında aparılan əhali mübadiləsi nəticəsində şəhərdə qalan türklər Türkiyəyə köç etmək məcburiyyətində qaldılar və Anadoludan gələn yunan mühacirlər isə onların yerini tutdular. Təəssüf ki, qısa müddət ərzində şəhərin əhali tərkibi yunanların xeyrinə dəyişdi.

Böyük Mustafa Kamal Atatürk nitqlərinin birində “Kaş ki, Selaniki də milli sərhədlərimiz içərisinə ala biləydik”, – deyərək şəhərin türklər üçün xüsusi əhəmiyyətini vurğulamışdır.

Sonda qeyd edək ki, Selanik 1997-ci ildə Avropanın mədəniyyət paytaxtı seçilmişdir.

*Təqdim etdi:*
*Zərifə HÜSEYNOVA*

## Çorman kəndində “Xatirə bulağı”



**Laçın rayonunun Çorman kəndində şəhidlərin xatirəsini əbədiləşdirmək məqsədilə yerli sakinlərin təşəbbüsü ilə tikilən bulağın açılışı olub.**

Mərasimdə Laçın rayonunda Bərpa, Tikinti və İdarəetmə Xidmətinin əməkdaşları, şəhidlərin ailə üzvləri, yaxınları və Çorman kəndinin sakinləri iştirak ediblər.

Əvvəlcə şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad olunub. Sonra çıxış edənlər bildiriblər ki, Vətən uğrunda canlarını fəda edən şəhidlərin xatirəsi əbədi olaraq qəlblərdə yaşayacaq. Bu qəhrəmanlar gələcək nəsillərə örnək olublar və onların davamçıları vətənpərvər ruhda böyüyürlər. Vurğulanıb ki, Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qüdrətli Azərbaycan Ordusu torpaqlarımızı işğaldan azad edib, ölkəmizin suverenliyi və ərazi bütövlüyü bərpa olunub.

Eyni zamanda, diqqətə çatdırılıb ki, işğaldan azad olunmuş ərazilərdə həyat yenidən canlanıb, “Böyük Qayıdış” proqramı çərçivəsində həmin yerlərdə tikinti-quruculuq işləri aparılır, sakinlər öz doğma yurdlarına qayıdırlar.

Daha sonra bulağın açılışı olub, şəhidlərin ruhuna dualar oxunub.

*XQ*

## HAVA

### Paytaxtda isti, bölgələrdə yağış, hətta leysan...

**Milli Hidrometeorologiya Xidmətindən verilən məlumata görə, bu gün Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Lakin səhər və axşam bəzi yerlərdə yağış yağacağı, şimşək çaxacağı ehtimalı var.**



Şimal-şərq küləyi axşam mülayim şimal-qərb küləyi ilə əvəzlənəcək. Havanın temperaturu gecə 22-25, gündüz 28-31 dərəcə isti olacaq. Atmosfer təzyiqi 759 millimetr civə sütunu, nisbi rütubət isə gecə 70-75, gündüz 40-45 faiz təşkil edəcək.

Azərbaycanın rayonlarında bəzi yerlərdə fasilələrlə yağış yağacağı, şimşək çaxacağı gözlənilir. Ayrı-ayrı yerlərdə leysan xarakterli intensiv olacağı, dolu düşəcəyi ehtimalı var. Gecə və səhər bəzi dağlıq ərazilərdə duman olacaq. Şərq küləyi bəzi yerlərdə arabir güclənəcək. Havanın temperaturunun gecə 20-24, gündüz 30-34, dağlarda gecə 12-17, gündüz 18-23 dərəcə isti olacağı proqnozlaşdırılır.

*XQ*

## Gənc proqramçılar üçün müsabiqə



**İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyi, Bakı Dövlət Universiteti, ICPC Azərbaycan icması və “Caspian Event Organisers” şirkətinin birgə təşkilatçılığı ilə gənc proqramçılar üçün xüsusi müsabiqə keçirilib.**

Müsabiqə, Azərbaycanın ilk proqramçısı hesab olunan, “Şöhrət” ordenli alim Ramin Mahmudzadənin irsini gənc nəslə çatdırmaq, yeni istedadları üzə çıxarmaq və gənclərə proqramlaşdırma sahəsində bilik və bacarıqlar qazandırmaq məqsədilə təşkil olunub.

Yarışda ali təhsil müəssisələrində təhsil alan və proqramlaşdırmaya marağı olan 50-dək tələbə iştirak edib. Onlar fərdi şəkildə 4 saat ərzində verilmiş xüsusi proqramlaşdırma tapşırıqlarını həll ediblər.

Nəticələr avtomatlaşdırılmış şəkildə qiymətləndirilib və ilk üç yerin qalibi avqustun 31-dən sentyabrın 5-dək Bakıda keçiriləcək “ICPC 2025” Dünya Finalı səhnəsində (Bakı Konqres Mərkəzi) xüsusi mükafat və sertifikatlarla təltif olunacaqlar.

*XQ*

**1. “İNNOVATİV LAYİHƏLƏR MƏRKƏZİ” Qapalı Səhmdar Cəmiyyətinin (VÖEN: 1004192041) yenidən təşkili qaydasında təşkilati - hüquqi formasının dəyişdirilərək Qapalı Səhmdar Cəmiyyətindən Məhdud Məsuliyyətli Cəmiyyətə çevrilməsi ilə əlaqədar dövriyyədə olan 200000 (iki yüz min manat) manata bərabər tutulan 20 (iyirmi) ədəd, hər birinin nominal dəyəri 10000 (on min manat) manat olan adi, adlı, sənədsiz səhmləri dövriyyədən çıxarılır.**

### “Xalq Üçün Mallar” ASC səhmdarlarının nəzərinə!

29 sentyabr 2025-ci il saat 12.00-da “Xalq Üçün Mallar” ASC səhmdarlarının növbəti illik ümumi yığıncağı keçiriləcəkdir.

Gündəlikdəki məsələlər:

1. Cəmiyyətin icra orqanının seçilməsi.
2. Cəmiyyətin direktorlar (müşahidə) şurasının sədr və üzvlərinin seçilməsi.
3. Cəmiyyətin nizamnaməsinin yeni redaksiyada təsdiqi və digər məsələlər.

Yığıncaqda bütün səhmdarların şəxsiyyətini təsdiq edən sənədlə iştirakı vacibdir.

Telefon-(099)899-99-87. Ünvan – Bakı şəhəri, Sabunçu rayonu, Ramana Şəhər Tipli Qəsəbəsi, Ə.Bağırov küçəsi 12.

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
Email: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994(51) 280-16-44

“Xalq qəzeti”nin kompüter mərkəzində yığılıb və səhifələnib, “Azərbaycan” nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 3431
SİFARİŞ 1515
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Əli NƏCƏFXANLI
Çapa imzalanmışdır 00:00